Xalqın qəzeti!

# Xalq qəzeti

№ 79 (30773) 22 aprel 2025-ci il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti


# Azərbaycan–Çin tərəfdaşlığı qlobal önəm daşıyır

## *Prezident İlham Əliyevin Çinin Sinxua agentliyinə müsahibəsi*



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Çinin Sinxua agentliyinə məxsusi müsahibə verib.**

**– Hörmətli cənab Prezident, xatırlayırıq ki, ötən ilin iyulunda ŞƏT-in Astanada keçirilən 24-cü sammitində Siz və ÇXR-in Sədri Si Cinpin strateji tərəfdaşlığın qurulmasına dair Birgə Bəyannamə imzaladınız. Bu sənəddə qarşılıqlı hörmət, bərabər səviyyədə etimad, bir-birinə dəstək və əməkdaşlıq prinsiplərinə əsaslanan strateji tərəfdaşlığın qurulmasını bəyan etdiniz. Bu, iki ölkə arasında münasibətlərin tarixində mühüm mərhələdir. Sizin fikrinizcə, Çin ilə Azərbaycan arasında münasibətlərin inkişafında hansı mühüm nəticələr əldə olunub və bunu necə qiymətləndirirsiniz?**

– Haqlısınız, ötən il iyulun 3-də Astanada keçirilən Şanxay Əməkdaşlıq Təşkilatının sammiti çərçivəsində “Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında strateji tərəfdaşlığın qurulması haqqında Birgə Bəyannamə” qəbul olundu. Bəyannamədə xüsusi olaraq qeyd edildi ki, 1992-ci il aprelin 2-də diplomatik münasibətlərin qurulduğu andan sonra ikitərəfli əməkdaşlığımız bir çox səmərəli nəticə verib. Bununla yanaşı, biz razılaşdıq ki, əməkdaşlığı gələcəkdə də genişləndirək, beynəlxalq məsələlərdə qarşılıqlı fəaliyyəti möhkəmləndirək, iki ölkənin ümumi maraqlarını birlikdə müdafiə edək, həmçinin regional və qlobal sülh, sabitlik və inkişaf fəaliyyətini birgə təşviq edək.

Birlikdə bəyan etdik ki, bizim strateji tərəfdaşlığımız qarşılıqlı hörmət, bərabərlik, etimad, qarşılıqlı dəstək, qarşılıqlı fayda və əməkdaşlıq kimi ikitərəfli münasibətlərin əsas prinsipləri üzərində qurulacaq. Birgə Bəyannamədə, həmçinin təsdiq etdik ki, biz bir-birinin suverenliyinə və ərazi bütövlüyünə layiqli hörmətlə yanaşan, daxili işlərə qarışmamaq və dinc yanaşı yaşamaq prinsiplərindən irəli gələn müstəqil xarici siyasət yürüdən vacib və etibarlı tərəfdaşlarıq.

**(ardı 2-ci səhifədə)**

## Müqəddəs Roma Kilsəsinin Kamerlenqosu Kardinal Kevin Farrell Həzrətlərinə

**Zati-həzrətləri!**

Müqəddəs Taxt-Tacın başçısı, zəmanəmizin görkəmli din xadimi Roma Papası Zati-müqəddəsləri Fransisk Həzrətlərinin vəfatı xəbərini dərin sarsıntı hissi ilə qarşıladıq.

Roma Papası Fransiskin simasında beynəlxalq birlik və dünya katolikləri həyat amalı bəşəriyyətin əmin-amanlığı naminə fədakarcasına xidmət olan parlaq din xadimini, yüksək mənəvi keyfiyyətlərə malik böyük şəxsiyyəti itirdi.

Roma Papası Fransisk bütün həyat və fəaliyyətini ümumbəşəri dəyərlərin qorunub saxlanmasına, dinlərarası və mədəniyyətlərarası anlaşmanın və humanizm ideallarının təşviqinə həsr etmiş, insanlar arasında qarşılıqlı anlaşma, birlik və həmrəylik münasibətlərinin bərqərar olması naminə yorulmadan çalışmışdı. Dərin məzmunlu və şərəfli ömür yolu ilə örnək olan Roma Papası Fransisk bəşəri dəyərlərin fövqündə duran nəcib əməlləri, insanlara mərhəmət, şəfqət və mənəvi ucalığa çağırışları, xeyirxahlığı və fədakarlığı ilə bütün dünyada böyük rəğbət, dərin hörmət və ehtiram qazanmışdır.

Azərbaycan ilə Müqəddəs Taxt-Tac arasında dostluq və əməkdaşlıq münasibətlərinin inkişafında və möhkəmlənməsində Zati-müqəddəsləri Fransisk Həzrətlərinin misilsiz xidmətləri olmuşdur. Onunla görüşlərimi, səmimi ünsiyyətimizi həmişə ən xoş təəssüratlarla xatırlayacağam. Roma Papası Fransiskin əziz xatirəsi və zəngin mənəvi irsi qəlblərdə və hafizələrdə daim yaşayacaqdır.

Bu ağır itkinin kədərini bölüşür, Sizə, Müqəddəs Taxt-Taca və bütün həmməzhəblərinizə şəxsən öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verirəm.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 21 aprel 2025-ci il**

## Birinci vitse-prezident Müqəddəs Pasxa bayramı ilə bağlı paylaşım edib

**Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva Pasxa bayramı münasibətilə sosial şəbəkə hesablarında paylaşım edib.**

Paylaşımda deyilir: “Müqəddəs Pasxa bayramı münasibətilə Azərbaycanın bütün xristian icmasını səmimi-qəlbdən təbrik edirəm!”.




## Dekotini nədən narahatdır?

*Şərti sərhədə tez-tez baş çəkən səfir, sanki, sülhə “badalaq vurmağa” and içib*



**İkinci Qarabağ müharibəsinin başa çatmasını şərtləndirən 2020-ci il 10 noyabr tarixli üçtərəfli Bəyanatın imzalanmasından sonra Zəngəzur bölgəsi xarici qüvvələrin ciddi marağına səbəb olub.**

O vaxtadək yada düşməyən Zəngəzura yaxın-uzaq ölkələrdən nümayəndə heyətləri axışır. Onlar dəstə-dəstə regiona gələrək burada görüşlər keçirir, hətta konsulluqlar açmaq barədə bəyanatlar verirlər.

*(ardı 4-cü səhifədə)*

## Horadiz – Arazboyunun dirçəliş qapısı



Səhifə ⇨ 12



## Azərbaycan “yaşıl dünya” platformasına çevrilib

**Müdriklər deyirlər ki, “ana dili”, “ana Vətən” və “anamız Yer kürəsi” ifadələri az qala dünyadakı bütün xalqların dilində var. Yəni müqəddəs dəyərləri hamı sevir, yüksək dəyərləndirir.**

Ancaq, çox təəssüf ki, həmin dəyərlərin qorunması hamının əsas vəzifəsi kimi qəbul edilmir. Bu iradımız daha çox anamız Yer kürəsinə münasibətdə nəinki biganəlik, həm də amansızlıq, hətta düşmənçilik edənlərə aiddir.

*(ardı 12-ci səhifədə)*

## Bakı–İrəvan: əvvəl şərt, sonra sülh!

**ATƏT-in Minsk qrupunun ləğvi, daha doğrusu, Azərbaycanla və Ermənistanın qurumun rəsmən fəaliyyətinin dayandırılması barədə birgə müraciətin ünvanlanması. Məlum olduğu kimi, Bakının İrəvanla bütün bəndləri razılaşdırılmış sülh müqaviləsinin imzalanması üçün irəli sürdüyü iki şərtdən biri budur. O da məlumdur ki, ölkəmizin mövqeyi Qarabağ münaqişəsinin, ümumən işğalçılığa səbəb olmuş ərazi iddiası məntiqinin tamamilə gündəmdən düşməsinə hesablanıb.**



*(ardı 5-ci səhifədə)*

## Ümid Londonamı qaldı?




Səhifə ⇨ 15

## “Əsrin müqaviləsi”nin “Günəşli” zirvəsi



Səhifə ⇨ 7

# Azərbaycan–Çin tərəfdaşlığı qlobal önəm daşıyır

(əvvəli 1-ci səhifədə)

Hesab edirəm ki, bizim Astanadakı görüşümüz və onun yekunlarına dair qəbul edilən Birgə Bəyannamə tarixi hadisədir və Azərbaycan-Çin münasibətlərində yeni səhifə açır. ÇXR-in Sədri Si Cinpin ilə ikitərəfli görüş əsnasında çıxışımda qeyd etdim ki, qəbul olunan Bəyannamə ÇXR və Azərbaycanı rəsmi strateji tərəfdaşlara çevirir və bu, böyük nailiyyət, böyük məsuliyyətdir. Astanada görüşümüz zamanı mən Çinə dövlət səfərinə dəvət olundum və bu dəvəti məmnunluqla qəbul etdim. Mən də ÇXR-in Sədrini onun üçün uyğun olan vaxtda ölkəmizə səfərə dəvət etdim. İnanıram ki, yüksək səviyyədə belə səfərlər mübadiləsi dövlətlərarası münasibətlərimizin dərinləşməsi prosesinə əlavə impuls verəcək.

Ölkələrimiz arasında qarşılıqlı maraq doğuran bütün sahələrdə əməkdaşlığın inkişafına xüsusi əhəmiyyət veririk və ikitərəfli münasibətlərin dərinləşməsini Azərbaycanın xarici siyasətinin mühüm istiqamətlərindən biri kimi qiymətləndiririk. Bu gün əminliklə demək olar ki, münasibətlərimiz çox müsbət dinamikaya malikdir. 2024-cü ildə hökumət və parlamentin yüksəkvəzifəli üzvləri, nazirliklərin və idarələrin, Baş Prokurorluğun rəhbərləri, həmçinin Prezident Administrasiyasının və Yeni Azərbaycan Partiyasının mərkəzi aparatının rəsmi nümayəndələri Çində səfərdə olublar.

Ötən il Çinin Xalq Siyasi Məşvərət Şurasının Ümum-Çin Komitəsi sədrinin müavini və Çinin Xarici Ölkələrlə Dostluq Cəmiyyətinin sədri Azərbaycana səfər ediblər. ÇXR Baş nazirinin müavininin BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasında – COP29-da iştirakı əlamətdar hadisə oldu. Bu tədbirdə 196 dövlətin, 150 beynəlxalq təşkilatın və BMT strukturlarının, həmçinin təxminən 2 min QHT-nin nümayəndələri iştirak etdilər. İnkişaf etməkdə olan ölkələrə iqlim maliyyəsinin ayrılması, İtki və Zərər Fondunun fəaliyyətə başlaması, həmçinin Paris Sazişinin 6-cı maddəsinin tam reallaşdırılması COP29 çərçivəsində qəbul edilən mühüm qərarlardır.

Azərbaycan COP29-a sədrliyi çərçivəsində iqlim fəaliyyəti və dayanıqlı inkişaf arasında əlaqəni əhatə edən 14 qlobal təşəbbüslə çıxış etdi və onlar geniş beynəlxalq dəstək aldılar. Əldə olunan razılaşmalar, dəstəklənən təşəbbüslər və qəbul edilən qərarlar bəşəriyyətin gələcəyi və dünyanın iqlim gündəliyi üçün müstəsna əhəmiyyətə malikdir.

Dünya ictimaiyyəti üçün belə bir mühüm tədbirdə Azərbaycana qarşı bəzi Qərb dairələri tərəfindən genişmiqyaslı əsassız təzyiq və boykot kampaniyalarına baxmayaraq, biz bir daha güclü siyasi iradə və peşəkarlıq nümayiş etdirdik ki, bu da konfransı yüksək səviyyədə keçirməyə, tarixi nəticələr əldə etməyə və çoxtərəfli danışıqlarda əsl sıçrayışa imkan verdi. Fürsətdən istifadə edərək, fəal iştirakına və iqlim dəyişikliyi ilə mübarizədə qlobal səylərə qiymətli töhfəsinə görə Çinin nümayəndə heyətinə minnətdarlığımı bildirmək istəyirəm.

**– Azərbaycan Dövlət Statistika Komitəsinin məlumatlarına görə, 2024-cü ildə Azərbaycanın xarici ticarətinin ümumi həcminin 7,9 faizi Çinin payına düşür. Çin ölkənizin dördüncü böyük ticarət tərəfdaşıdır və ilk dəfə əsas idxal mənbəyinə çevrilib. Noyabrın 24-də Azərbaycanın ixrac malları daşıyan ilk dəmir yolu qatarı Bakıdan Çinə yola salınıb. Çinin şəhərlərində Azərbaycan ticarət evləri yaradılır, Azərbaycan xalçaları, nar şirələri və başqa yüksəkkeyfiyyətli məhsullar isə minlərlə çinli ailənin evinə daxil olur. Siz "Kəmər və yol" təşəbbüsünün iki ölkə arasında praktik əməkdaşlığın inkişafında rolu haqqında nə düşünürsünüz?**

– Astanada ÇXR-in Sədri ilə görüşüm əsnasında əldə olunan daha bir razılaşmaya diqqətinizi yönəltmək istəyirəm. Söhbət ölkələrimiz arasında iqtisadi-ticari əlaqələrin gələcək inkişafından, onların keyfiyyətcə yeni məzmunla zənginləşməsindən gedir.

Azərbaycan ilə Çin arasında əmtəə dövriyyəsinin həcmi 2024-cü ildə əvvəlki illə müqayisədə 20,7 faiz artıb və 3,744 milyard dollar təşkil edib. Bəli, həqiqətən Çin Azərbaycanın 4-cü ən böyük ticarət tərəfdaşına çevrilib, onun xarici ticarət dövriyyəmizdə payı 7,9 faiz olub, həmçinin idxal üzrə də lider mövqeyinə çıxıb və bu göstərici 17,69 faizə çatıb.

İki ölkə arasında getdikcə artan iqtisadi-ticari əməkdaşlığa baxmayaraq, hələ də reallaşdırılmayan böyük potensial mövcuddur. Hesab edirəm ki, iki ölkə arasında iqtisadi-ticari əməkdaşlıq üzrə Hökumətlərarası Komissiya ikitərəfli iqtisadi əlaqələri genişləndirmək, əməkdaşlığın perspektivli istiqamətlərini aşkara çıxarmaq və onları hüquqi müstəvidə bundan sonra möhkəmləndirmək üçün mühüm mexanizmdir. Komissiyanın qərarlarının vaxtında yerinə yetirilməsi səylərimizin uğur qazanmasının rəhni olacaq. ÇXR-ə səfərim ərəfəsində Bakıda Komissiyanın 10-cu iclasının keçirilməsi planlaşdırılır.

Sizin xatırlatdığınız Azərbaycan ticarət və şərab evləri artıq ÇXR-in Pekin, Şanxay, Urumçi, Tsindao, Çendu, Nankin və Çjantszyatsze şəhərlərində fəaliyyət göstərir. Onlar ikitərəfli ticari münasibətlərimizin inkişafına sanballı töhfə verir. Azərbaycan Ticarət Evi, həmçinin Çində tanınmış beynəlxalq "JD" onlayn ticarət platformasında yaradılıb.

Bu gün Azərbaycanda Çin kapitalı ilə 375 şirkət qeydə alınıb, onlardan 298-i ölkəmizdə aktiv fəaliyyət göstərir. Hazırda Azərbaycanla Çin arasında qeyri-neft sektorunda, xüsusən yüksək texnologiyalara və innovasiyalara, alternativ və bərpaolunan energetikaya yönəlmiş birbaşa investisiyaların cəlb olunması sahəsində birgə əməkdaşlığın perspektivlərinə dair danışıqlar aparılır.

Məlum olduğu kimi, Azərbaycan ÇXR-in Sədri tərəfindən irəli sürülmüş "Kəmər və yol" təşəbbüsünü dəstəkləyən ilk ölkələrdən biridir. Biz bu istiqamətdə ciddi praktik layihələr həyata keçiririk. Əminliklə demək olar ki, Azərbaycan bu layihənin reallaşmasına istər öz ərazisində, istərsə də onun hüdudlarından kənarda Çindən sonra daha çox investisiyalar qoyan ikinci ölkədir. 2019-cu ilin aprelində Çində keçirilən 2-ci "Kəmər və yol" Forumunda çıxış edərkən qeyd etdim ki, bu layihə təkcə nəqliyyat əlaqəsini təmin etmir, həmçinin müxtəlif ölkələr arasında əlaqələri gücləndirir, dialoq və əməkdaşlığın möhkəmlənməsinə xidmət edir və beynəlxalq ticarət üçün yeni imkanlar yaradır.

Biz "Kəmər və yol" təşəbbüsü çərçivəsində Çinlə əməkdaşlığı genişləndiririk. Bu istiqamətdə artıq mühüm uğurlar qazanılıb. Özünün əlverişli coğrafi mövqeyindən istifadə edən Azərbaycan ərazimizdən yük axınının kəskin artmasını nəzərə alaraq, beynəlxalq nəqliyyat dəhlizlərini fəal inkişaf etdirməyə, müasir infrastruktur yaratmağa və onların ötürücülük qabiliyyətinin artırılmasına əlavə investisiya qoymağa davam edir.

Son 20 ildə ölkəmizdə 21 min kilometr avtomobil yolları salınıb və təmir edilib, 335 körpü və yolayrıcı, 45 tunel, 163 yerüstü və yeraltı keçid tikilib. Dəmir yolu infrastrukturunun yaxşılaşdırılması üzrə böyük işlər görülüb, 1500 kilometrdən artıq dəmir yolu tikilib və 1800 kilometrlik sahə təmir edilib.

Bu gün Bakı-Tbilisi-Qars dəmir yolu, "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizi və Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu (Orta Dəhliz), həmçinin Xəzərdə ən iri limanlardan biri olan Bakı Beynəlxalq Dəniz Ticarət Limanı "Kəmər və yol" təşəbbüsü çərçivəsində iqtisadi və nəqliyyat imkanlarının reallaşdırılması üçün yeni perspektivlər açır.

Onu da diqqətinizə çatdırmaq istərdim ki, hazırda Orta Dəhliz Avropa və Mərkəzi Asiyanı Xəzər dənizi vasitəsilə Çinlə birləşdirən etibarlı və təhlükəsiz marşrutdur, həmçinin yüklərin Çindən Avropaya və əks istiqamətdə çatdırılmasının ən optimal yoludur. Onun əhəmiyyəti sürətlə artır.

Azərbaycan ilə Çin arasında tranzit daşımaların həcmi 2024-cü ildə 378 min ton olub ki, bu da 2023-cü illə müqayisədə 86 faiz çoxdur. 2024-cü il ərzində Çindən Azərbaycana ixrac və tranzit rejimində Orta Dəhlizlə 287 marşrut qatarı yola salınıb.

**– Çin və Azərbaycan qədim İpək Yolu sivilizasiyasının mərkəzində yer alır. Son illərdə iki ölkə arasında humanitar mübadilələr, xüsusən dillərin tədrisi və turizm sahələri inkişaf edir. Pekin Xarici Dillər Universiteti Azərbaycan dilinin öyrənilməsi proqramını həyata keçirir. Daha çox azərbaycanlı tələbə Çin dilinə maraq göstərir. Azərbaycan mənbələrinin məlumatına görə, ötən il Azərbaycana səyahət edən çinli turistlərin sayı əvvəlki illə müqayisədə iki dəfə artıb. Siz bu tendensiyanı necə qiymətləndirirsiniz?**

– Siz hər iki dövlətin xüsusi əhəmiyyət verdiyi əməkdaşlığın mühüm sahələrinə toxundunuz. Strateji tərəfdaşlığın qurulmasına dair Birgə Bəyannamədə iki ölkənin mövcud müqavilə-hüquqi bazası çərçivəsində təhsil sahəsində əməkdaşlığın sabit inkişafı bəyan edilib. Bununla yanaşı, biz dillərin öyrənilməsi və tədrisi sahəsində əməkdaşlığa xüsusi diqqət yetirmişik.

Azərbaycan və Çinin ali təhsil müəssisələrində müxtəlif ixtisaslar üzrə bakalavr, magistratura və doktorantura səviyyələrində təhsil almaq imkanı əldə edən ölkələrimizin vətəndaşlarının sayı ildən-ilə durmadan artır. Konfutsi İnstitutunun tərəfdaşları olan Azərbaycanın bir sıra ali təhsil müəssisələrində Çin dili tədris olunur. Sevindirici haldır ki, son illərdə Çində də Azərbaycan dilinin və mədəniyyətinin öyrənilməsi mərkəzləri fəaliyyətə başlayıb, müvafiq kafedra yaradılıb.

İki ölkənin universitetləri arasında məhsuldar əməkdaşlıq həyata keçirilir, zəruri müqavilə-hüquqi baza yaradılır.

Əminəm ki, Çin və Azərbaycan dillərinin təhsil müəssisələrində tədrisinin, müəllimlər arasında mübadilənin və mütəxəssislər hazırlanmasının dövlət tərəfindən dəstəklənməsi dövlətlərin müxtəlif sahələrdə qarşılıqlı fəaliyyətinin səmərəliliyinə imkan yaradacaq, iki xalqın yaxınlaşmasına və qarşılıqlı mədəni zənginləşməsinə xidmət edəcək.

Ötən il Azərbaycan turizmin inkişafı və işgüzar fəaliyyətin artırılması məqsədilə Çin vətəndaşlarına münasibətdə vizasız rejimi birtərəfli qaydada tətbiq etdi. Ölkələrimizin vətəndaşlarının vizasız gediş-gəlişinin asanlaşdırılması turist axınının artmasına kömək edəcək və bununla da iqtisadi, humanitar və mədəni əlaqələr genişlənəcək.

**– 2016-cı ildə Azərbaycan ŞƏT-in dialoq üzrə tərəfdaş ölkəsi oldu və ŞƏT ailəsinin mühüm üzvüdür. Məhz ŞƏT-in Astana sammitində iki ölkə arasında strateji tərəfdaşlıq quruldu. 2024-2025-ci illərdə ŞƏT-ə sədrlik edən Çin cari ildə ŞƏT-ə üzv dövlətlərin Dövlət Başçıları Şurasının 25-ci iclasına ev sahibliyi edəcək. Sizin bu sammitdən gözləntiləriniz nədən ibarətdir?**

– Hesab edirəm ki, Çinin "Şanxay ruhunun təşviqi: ŞƏT fəaliyyətdədir" devizi altında təşkilata sədrliyi onun institusionallaşdırılmasına və beynəlxalq arenada rolunun gələcəkdə də möhkəmlənməsinə kömək edəcək. ÇXR ŞƏT-in təsisçi ölkələrindəndir və təşkilatın inkişafının aparıcı güclərindən biri olaraq qalır. Əminəm ki, Çinin sədrliyi üzrə geniş proqramı çərçivəsində səyləri ŞƏT prinsipləri əsasında çoxtərəfli əməkdaşlığın möhkəmlənməsinə, həmçinin onun vəzifələrinin həyata keçirilməsinə əlavə impuls verəcək.

Ötən il Qazaxıstan Respublikası Prezidenti Kasım-Jomart Tokayevin dəvəti ilə mən ŞƏT-in sammitində iştirak etdim. Hazırda Azərbaycan ŞƏT-də dialoq üzrə tərəfdaş statusuna malikdir. Azərbaycanın ŞƏT ilə əməkdaşlığı terrorizmlə, ekstremizmlə və separatçılıqla mübarizə, regional təhlükəsizliyin və sabitliyin təmin edilməsi kimi müxtəlif sahələri əhatə edir. Həmçinin sivilizasiyalararası dialoq, multikulturalizm və tolerantlığın dəstəklənməsi kimi məsələlər diqqət mərkəzindədir. Məlum olduğu kimi, ölkəmiz bu sahələr üzrə beynəlxalq arenada fəal rol oynayır.

Biz ŞƏT-in fəaliyyətinə böyük əhəmiyyət veririk və bu təşkilatın təməlində dayanan prinsipləri bölüşürük. Regionda etibarlı tərəfdaş və mühüm dövlət olan Azərbaycan beynəlxalq və regional sülhün, təhlükəsizliyin bərqərar olmasına töhfə verməkdə davam edir, ticarət, kommersiya və investisiya əlaqələrinin genişlənməsinə yönəlmiş, bununla da qlobal iqtisadi inkişafa və Dayanıqlı İnkişaf Məqsədlərinin əldə olunmasına kömək edən irimiqyaslı iqtisadi-ticari, nəqliyyat, infrastruktur və energetika sahələrində layihələr həyata keçirir.

Həmçinin əminəm ki, ölkələrimizin sıx ikitərəfli qarşılıqlı fəaliyyəti Azərbaycanın ŞƏT çərçivəsində əməkdaşlığının dərinləşməsinə və bu təşkilatın statusunun artmasına səmərəli surətdə kömək edəcək.

**– Çin və Azərbaycan Qlobal Cənubun mühüm üzvləri kimi çoxtərəfli platformalarda sıx əməkdaşlığı dəstəkləyir və beynəlxalq ədaləti səmərəli şəkildə müdafiə edir. Siz Qlobal Cənubun yüksəlişinin qlobal idarəetməyə təsirini və Çin tərəfindən irəli sürülmüş bəşəriyyətin ortaq taleyi konsepsiyasını necə qiymətləndirirsiniz?**

– Ötən il Astanada biz ÇXR-in Sədri Si Cinpin ilə bəşəriyyətin ortaq taleyi cəmiyyətinin yaradılmasına kömək etmək səylərimizi bəyan etdik. Biz sülh, inkişaf, bərabər hüquqlar, ədalət, demokratiya və azadlıq uğrunda, həmçinin hegemoniyaya və güc siyasətinə qarşı bəşəriyyətin ümumi dəyərlərinin təşviqi istiqamətində çıxış etdik. Bizim tərəfimizdən BMT-nin himayəsi altında beynəlxalq sistemin birgə dəstəklənməsi onun beynəlxalq məsələlərdə rolu, həqiqi çoxtərəflilik mövqeyi, həmçinin BMT Nizamnaməsi əsasında beynəlxalq hüquq, məqsəd və prinsiplərə əsaslanan dünya nizamının birgə dəstəklənməsi əzmi ifadə olundu.

Mən artıq dedim ki, Qlobal Cənubun bir hissəsi kimi, biz həmişə onun maraqlarını müdafiə etmişik. Azərbaycan 2019-2023-cü illərdə BMT-dən sonra ikinci beynəlxalq təşkilat olan Qoşulmama Hərəkatının sədri olub. Planetin əhalisinin 80 faizi, dünya ÜDM-inin təxminən 50 faizi və məcmu beynəlxalq ticarət həcminin təqribən yarısı bu təşkilatın payına düşür. Qlobal Cənubun daha dayanıqlı, ədalətli və təhlükəsiz dünya nizamı qurulmasında iştirakı təbii prosesdir.

**– 2019-cu ilin aprelində Sizin Çinə səfərinizdən altı ilə yaxın vaxt keçir. Çinə bundan əvvəlki səfərləriniz haqqında təəssüratlarınızı bölüşə bilərsinizmi? Çinə qarşıdakı səfərdən gözləntiləriniz nədən ibarətdir?**

– Çin dünyanın ən çox dinamik inkişaf edən ölkələrindən biridir. ÇXR-in Sədri Si Cinpinin qətiyyətli və müdrik rəhbərliyi altında Çinin bütün sahələrdə qazandığı nailiyyətlər və uğurlar onu dünyanın ən güclü və qabaqcıl ölkələri sırasına çıxardı, ölkənin beynəlxalq arenada mövqelərini daha da möhkəmləndirdi. Si Cinpinin başçılığı ilə Çin böyük uğurlar qazanıb. Çinin inkişafı təkcə Çin xalqının deyil, həm də dünyanın maraqlarına cavab verir.

Sədr Si Cinpinin dəvəti ilə 2014-cü ildə Çinə işgüzar səfər etdim, artıq 2015-ci ildə mənim ÇXR-ə dövlət səfərim oldu. 2019-cu ildə ÇXR Sədrinin dəvəti ilə Pekində keçirilən İkinci "Kəmər və yol" beynəlxalq əməkdaşlıq forumunda iştirak etdim.

Sədr Si Cinpin ilə görüşlərimizi və səmərəli müzakirələrimizi böyük məmnuniyyətlə xatırlayıram. Şadam ki, qədim tarixə və xeyirxah ənənələrə əsaslanan Azərbaycan-Çin münasibətləri yüksələn xətlə inkişaf edir, bizim strateji tərəfdaşlığımız isə yeni müsbət məzmunla zənginləşir. Fəal dialoqumuz, şəxsi görüşlər, telefon danışıqları, məktubların mübadiləsi əsasında yaranan qarşılıqlı hörmət və etimad ikitərəfli münasibətlərin dərinləşməsində misilsiz rol oynayır.

Əminliklə deyə bilərəm ki, ÇXR-ə bütün əvvəlki səfərlər zəngin proqrama malik idi və qarşılıqlı maraqlara əsaslanan Azərbaycan-Çin çoxtərəfli əməkdaşlığının genişləndirilməsinə yönəlmiş bir sıra mühüm ikitərəfli sənədlərin imzalanması ilə müşayiət olunurdu. İnanıram ki, qarşıdakı səfər də Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında strateji tərəfdaşlığın dərinləşdirilməsi işinə xidmət edəcək.

***AZƏRTAC***

## 1941–1945-ci illərdə İkinci Dünya müharibəsində iştirak etmiş şəxslərə, həlak olmuş və ya sonralar vəfat etmiş döyüşçülərin dul arvadlarına, arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslərə birdəfəlik maddi yardım verilməsi haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, İkinci Dünya müharibəsində Qələbənin 80-ci ildönümü ilə əlaqədar **qərara alıram:**

**1.** 1941–1945-ci illərdə İkinci Dünya müharibəsində iştirak etmiş şəxslərə 2500,0 (iki min beş yüz) manat məbləğində, İkinci Dünya müharibəsində həlak olmuş və ya sonralar vəfat etmiş döyüşçülərin dul arvadlarına, həmin dövrdə arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslərə, İkinci Dünya müharibəsi illərində döyüş cəbhələrinin arxa hüdudları, yaxud döyüşən donanmaların əməliyyat zonaları daxilində ordunun və donanmanın mənafeyi üçün tapşırıqları yerinə yetirmiş xüsusi birləşmələrin işçilərinə, İkinci Dünya müharibəsi dövründə Leninqrad şəhərinin müdafiəsinə görə müvafiq medal və döş nişanı ilə təltif edilmiş şəxslərə, habelə Leninqrad şəhərinin mühasirəsi iştirakçılarına 1 250,0 (bir min iki yüz əlli) manat məbləğində birdəfəlik maddi yardım verilsin.

**2.** Bu Sərəncamın 1-ci hissəsinin icrası məqsədilə:

2.1. Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan 3,2 milyon (üç milyon iki yüz min) manat vəsait ayrılsın;

2.2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 2.1-ci bəndində nəzərdə tutulmuş vəsaitin Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin xüsusi hesabına köçürülməsini təmin etsin;

2.3. Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi birdəfəlik maddi yardımın bu Sərəncamın 1-ci hissəsində nəzərdə tutulmuş şəxslərə ödənilməsini təmin etsin.

**3.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 21 aprel 2025-ci il**

## Balaxanı Sənaye Parkının ərazisinin genişləndirilməsi haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Balaxanı Sənaye Parkının ərazisinin genişləndirilməsi məqsədilə Bakı şəhəri Sabunçu rayonunun Balaxanı qəsəbəsində yerləşən və Bakı Bərk Məişət Tullantılarının Yandırılması Zavodunun istifadəsində olan 18,415 hektar torpaq sahəsinin icarəyə vermək hüququ ilə "Təmiz Şəhər" Açıq Səhmdar Cəmiyyətinin istifadəsinə verilməsi ilə bağlı üç ay müddətində tədbirlər görüb Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.2. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

**2.** Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi, Bakı Şəhər İcra Hakimiyyəti və Azərbaycan İnvestisiya Holdinqi bu Sərəncamdan irəli gələn məsələlərin həlli üçün zəruri tədbirlər görsünlər.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 21 aprel 2025-ci il**

## Bakı–Hanoy siyasi dialoqu



**Aprelin 21-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Vyetnam Sosialist Respublikasının xarici işlər nazirinin müavini Le Thi Thu Hangın rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.**

Görüşdə Azərbaycan və Vyetnam arasında mövcud ikitərəfli və çoxtərəfli münasibətlər, habelə regional və beynəlxalq vəziyyət müzakirə olunub.

Ölkələrimiz arasında mövcud siyasi dialoqun saxlanılması və inkişaf etdirilməsində qarşılıqlı səfərlərin və təmasların, o cümlədən siyasi məsləhətləşmələr mexanizminin əhəmiyyəti qeyd olunub.

İqtisadiyyat, ticarət, enerji təhlükəsizliyi, kənd təsərrüfatı, humanitar, turizm, təhsil və sair sahələr üzrə əməkdaşlığın inkişafı üçün geniş perspektivlərin mövcud olduğu diqqətə çatdırılıb. Mövcud imkanlardan istifadə olunmasının, habelə bu istiqamətdə iqtisadi, ticarət, elmi və texniki əməkdaşlıq üzrə Azərbaycan-Vyetnam Hökumətlərarası Komissiyasının fəaliyyətinin əhəmiyyəti qeyd edilib.

Görüş zamanı, BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) zamanı qəbul edilən tarixi qərarların əhəmiyyəti vurğulanıb.

Ceyhun Bayramov, eyni zamanda, qarşı tərəfi Azərbaycan-Ermənistan normallaşma prosesinin gedişatı barədə ətraflı məlumatlandırıb.

Eyni gündə, Azərbaycanın və Vyetnamın Xarici İşlər nazirlikləri arasında siyasi məsləhətləşmələr aparılıb. Siyasi məsləhətləşmələrə Azərbaycan tərəfindən nazir müavini Elnur Məmmədov, Vyetnam tərəfindən isə xarici işlər nazirinin müavini Le Thi Thu Hang rəhbərlik edib.

***XQ***

## Azərbaycan–İraq siyasi məsləhətləşmələri

**Xarici işlər nazirinin müavini Yalçın Rəfiyev İraqa səfər edib.**

Bağdad şəhərində Azərbaycanın Xarici İşlər Nazirliyi və İraqın Xarici İşlər Nazirliyi arasında siyasi məsləhətləşmələrin ikinci iclası keçirilib.

Siyasi məsləhətləşmələrə Azərbaycan tərəfindən xarici işlər nazirinin müavini Yalçın Rəfiyev, İraq tərəfindən isə xarici işlər nazirinin ikitərəfli əlaqələr üzrə müavini Məhəmməd Hüseyn Bahr Al-Ulum rəhbərlik edib.

Məsləhətləşmələr zamanı ikitərəfli siyasi, iqtisadi, ticarət, enerji, humanitar və parlamentlərarası əlaqələrin mövcud vəziyyəti və inkişaf perspektivlərinə dair geniş fikir mübadiləsi aparılıb.

Yalçın Rəfiyev İraqın rabitə naziri, Azərbaycan Respublikası Hökuməti və İraq Respublikası Hökuməti arasında ticarət, iqtisadi, elmi, texniki və mədəni əməkdaşlıq üzrə Birgə Komissiyanın İraq tərəfindən həmsədri xanım Hiyam Əl-Yasiri və İraqın ekologiya nazirinin müavini Casim Əbdüləziz Hamadi ilə də görüşüb.

***XQ***

# Bakı və Pekin sədləri birgə aşır

## Asiya nəhəngi Çinin Cənubi Qafqaz lideri Azərbaycanla əlaqələri geniş müstəviyə keçir

**Azərbaycanla Çin arasında münasibətlərin yeni fazaya qədəm qoymasını şərtləndirən amillər az deyil. Burada həm siyasi, həm də iqtisadi sahədə qarşılıqlı faydalı əməkdaşlığı zəruri edən transmilli layihələrlə yanaşı, yeni dünya düzənində Çinin Asiyada aşkar görünən liderliyi və Azərbaycanın Qafqazda söz və güc sahibinə çevrilməsi reallığı da var. Bu iki önəmli tərəfdaş arasında diplomatik əlaqələrin qurulmasından 33 il keçir.**



Ötən müddət ərzində əlaqələr qarşılıqlı etimad əsasında inkişaf edib, son illər isə daha geniş vüsət almağa başlayıb. Bu gün Azərbaycan Çinlə, demək olar ki, bütün istiqamətlərdə sıx əlaqələrə malikdir.

Azərbaycan Prezidenti İlham Əliyevin Çin Xalq Respublikasının Sədri Si Cinpinin dəvəti ilə dost ölkəyə rəsmi səfəri məhz qarşılıqlı faydalılıq prinsipinə əsaslanan əməkdaşlığın yeni üfiqlərini müəyyən etməyə hesablanıb.

Əslində, dünyanın indiki keşməkeşli dönəmində Azərbaycanın Asiyanın yeni lideri Çinlə strateji münasibətlər qurması gələcəyə hesablanmış strateji plan kimi qəbul edilə bilər. Bakı bu yolla tədricən, qarşıya çıxan bütün sədləri Pekinlə bərabər aşaraq irəliləməkdədir. Azərbaycanın Şanxay Əməkdaşlıq Təşkilatında (ŞƏT) özünün hüquqi statusunu yüksəltməsi, BRICS-ə üzv olmaq yolunda müəyyən addımları atması məhz bu strateji planın son hədəfə çatmasını şərtləndirən amillərdəndir. Aydın məsələdir ki, bu gün həm ŞƏT-də, həm də BRICS-də əsas ölkə hesab olunan Çin-in Azərbaycanla bağlı uğurlu tərəfdaşlığa yönəlik öz maraqları var.

Şübhəsiz ki, Azərbaycan–Çin əməkdaşlığının genişlənməsi, dərinləşməsi və intensivləşməsində iki ölkə rəhbərinin qarşılıqlı səfərlərinin əhəmiyyəti olduqca böyükdür. İstər regional, istərsə də beynəlxalq tədbirlərdə dövlət başçılarının sıx və səmimi təmasları tərəflərə fayda verəcək maraqlı ideyaların yaranmasına səbəb olub. Pekin və Bakı ölkələrin ərazi bütövlüyü prinsipini qarşılıqlı şəkildə daim dəstəkləyiblər. Rəsmi Pekin heç vaxt Xankəndidəki keçmiş separatçı "dqr"ı tanımayıb. Bakı isə Tayvanı Çindən ayrı təsəvvürünə belə gətirməyib.

BMT Təhlükəsizlik Şurasının daimi üzvü olan Çin həmişə Azərbaycanın tərəfində olub. Fransa kimi ermənipərəst dövlətin ölkəmizə qarşı bəyanat qəbul etmək və ya sanksiyaların tətbiqi ilə bağlı məsələlərdə son sözünü veto qoymaqla bildirib. Yəni, Pekin və Bakı bütün müstəvilərdə bir-birinə qarşılıqlı dəstək nümayiş etdiriblər.

Son 10 ildə Azərbaycan–Çin münasibətlərinin müsbət dinamikasını özündə əks etdirən xronikaya diqqət yetirək. 2024-cü il iyulun 3-də Şanxay Əməkdaşlıq Təşkilatının Astanada keçirilən Zirvə toplantısı çərçivəsində "Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında strateji tərəfdaşlığın qurulması haqqında Birgə Bəyannamə" qəbul olundu. Bu tarixi sənəd Azərbaycanla Çin arasında ikitərəfli münasibətlərin yaxın və uzaq perspektivlərini özündə ehtiva etməklə yanaşı, çox böyük siyasi əhəmiyyətə malikdir.

Xatırladaq ki, 2015-ci il dekabrın 11-də Prezident İlham Əliyevin Çinə dövlət səfəri zamanı Azərbaycanla Çin arasında 9 sahə üzrə əməkdaşlığa dair sənədlər paketi imzalandı. "Azərbaycan Respublikasının və Çin Xalq Respublikasının dostluq münasibətlərinin və əməkdaşlığın daha da inkişaf etdirilməsi və dərinləşdirilməsi haqqında Birgə Bəyannamə"yə Prezident İlham Əliyev və Sədr Si Cinpin imza atdılar. 2019-cu ilin aprelində Si Cinpinin dəvəti ilə İlham Əliyev II "Bir kəmər, bir yol" Forumunda iştirak etdi, 2022-ci il sentyabrın 15-də isə Səmərqənddə ŞƏT Sammiti çərçivəsində iki ölkə lideri arasında görüş baş tutdu. Həmin görüşlərin ölkələr arasında ortaq maraqların dəyərləndirilməsi, yeni hədəflərin müəyyən edilməsi, eləcə də dövlət başçılarının şəxsi münasibətlərdə inam və səmimiyyətin möhkəmlənməsi nöqteyi-nəzərindən ciddi əhəmiyyət daşıdığını söyləyə bilərik.

* * *

Azərbaycan və Çin arasında strateji tərəfdaşlığın qurulması haqqında Birgə Bəyannamədə birmənalı şəkildə qeyd olunub ki, tərəflərin strateji tərəfdaşlığı qarşılıqlı hörmətə, bərabərlik, etimad və qarşılıqlı dəstəyə əsaslanır. Bəli, Azərbaycan və Çin xarici amillərdən asılı olmayaraq, bir-birini etibarlı tərəfdaş hesab edirlər. Bəyannamədə iki ölkə arasında münasibətlərin ərazi bütövlüyünə və suverenliyə qarşılıqlı hörmətə, daxili işlərə qarışmamaq prinsiplərinə əsaslanması xüsusi vurğulanır.

Bir daha xatırladaq ki, Azərbaycan uzun illərdir ki, ŞƏT və "Bir kəmər, bir yol" təşəbbüsü kimi Şərq əsaslı beynəlmiləl platformalar vasitəsilə Çin ilə çoxşaxəli və konstruktiv əlaqələrini genişləndirir. 2024-cü ildə münasibətlərin strateji tərəfdaşlıq səviyyəsinə yüksəldilməsi iki ölkə arasında daha sıx inteqrasiyanın formalaşmasına zəmin yaratdı. İndi bu strateji tərəfdaşlıq ticari-iqtisadi əlaqələrdən başlayaraq enerji, nəqliyyat-kommunikasiya sahələrinə, eləcə də yeni nəsil texnologiyalar və rəqəmsal infrastrukturun inkişafına qədər geniş spektri əhatə edir. İrimiqyaslı iqtisadi layihələrin birgə icrası iki ölkə arasında diplomatik münasibətlərin daha da möhkəmlənməsinə etibarlı zəmin yaradıb.

**Ekspert rəyi**



**Rasim MUSABƏYOV,**
**Milli Məclisin deputatı, politoloq**

– Çin dünyanın ikinci superdövləti olmaq ərəfəsindədir. İqtisadi cəhətdən bu artıq baş verib. Siyasi cəhətdən isə iki supergüc arasındakı fərq sürətlə azalmaq üzrədir. Çin nəinki yaxın ətrafında, hətta Latın Amerikası coğrafiyasında nüfuzunu artırmaqdadır. Panama kanalının hər iki giriş-çıxış məntəqəsi Çin şikətinin əlinə keçib. Kanadaya təzyiqlər də təsadüfi deyil. Çünki Kanada neftini Çinə satacağını elan edib. Yəni, hazırda Pekin ABŞ-ın dünya hegemonluğunu sual altına qoyub. Bunlar məlum faktlardır.

Azərbaycanın Çinlə strateji portnyorluq səviyyəsində rəsmi münasibətləri var. Rəsmi Pekin Azərbaycana həmişə hörmətlə yanaşıb. Azərbaycan digər ölkələrdən fərqli olaraq, müxtəlif yardımlar üçün, investisiyaların cəlb edilməsi məsələləri ilə bağlı Çini narahat etməyib. Bakı Pekinə tərəfdaşlıq təklif edib. Məlum "Bir kəmər, bir yol" layihəsində bir çox ölkələr Çinə möhtac olduqları halda, Azərbaycan öz ərazisində bu layihənin bütün işlərini özü həyata keçirir. Bu baxımdan, Orta Dəhliz layihəsi də Azərbaycan və Gürcüstan ərazisində məhz bizim ölkənin investisiyaları hesabına formalaşıb.

Aydındır ki, Azərbaycan Çinlə siyasi dialoqu davam etdirməkdə maraqlıdır. Çin BMT Təhlükəsizlik Şurasının daimi üzvüdür. Əgər sabah bu qurumda Azərbaycana qarşı hansısa təxribatlar törətməyə cəhdlər edilərsə, Pekinin bizim ərazi bütövlüyümüzün təmin olunması məsələsində dəstəyi bunun qarşısını almaq üçün yetərlidir. Bəli, belə prinsipial məsələlərdə Çinin sabit mövqeyi var. Eləcə də Zəngəzur dəhlizinin reallaşdırılması prosesinə İrəvanın süni maneələr yaratması kontekstində Çinin dəstəyi vacibdir.

Bu da faktdır ki, Çin Xəzərin şərq və cənub sahillərində möhkəmlənib. Çin Qazaxıstanda bir nömrəli investordur, Türkmənistan qazının 80 faizi Çinə ixrac olunur. Çin İranın da bir nömrəli portnyorudur. Bu mənada Çinin Xəzərin qərb sahilində – Azərbaycanda, bütövlükdə, Cənubi Qafqazda siyasi və iqtisadi iştirakı güclənəcək. Azərbaycan Prezidentinin Çinə səfərinin məhz bu baxımdan əhəmiyyətli və faydalı olacağına əminəm.

Yeri gəlmişkən, bu gün Çin vətəndaşları Azərbaycana vizasız gəlmək imkanına malikdirlər. Onlar elektron viza üçün də müraciət etmək məcburiyyətində deyillər. İnanırıq ki, tezliklə Azərbaycan vətəndaşları üçün də belə bir fürsət yaradılacaq. Nəticədə xalqlar arasında təmaslar artacaq, bundan hər iki ölkənin turizm sektoru faydalanacaq və ictimai diplomatiya daha geniş miqyas alacaq.

Xüsusi olaraq qeyd olunmalı faktlardan biri də budur ki, Azərbaycanla Çin arasında siyasi–iqtisadi əlaqələrin artan templə inkişafının əsasında formalaşan əməkdaşlıq münasibətləri iki ölkənin milli maraqlarına cavab verməklə yanaşı, həm də bölgədə uzunmüddətli sülh və sabitliyin, sosial-iqtisadi tərəqqinin yaranmasına xidmət edir. Azərbaycanın dünyanın ikinci böyük iqtisadiyyatına, qlobal münasibətlərdə ciddi çəkiyə və nüfuza malik bu dövlətlə münasibətləri artan dinamika ilə inkişaf etməkdədir.

Tam əminliklə deyə bilərik ki, Bakı və Pekin artıq ənənəvi münasibətlərini dostluq bağları ilə möhkəmləndirmək yoluna qədəm qoyublar. ÇXR Sədri Si Cinpinin Novruz bayramı münasibətilə Azərbaycan Prezidenti İlham Əliyevə ünvanladığı təbrik məktubu bunun parlaq nümunəsi sayıla bilər. Məktubda deyilir: "Hazırda Çin–Azərbaycan strateji tərəfdaşlıq münasibətləri dinamik şəkildə inkişaf edir, siyasi qarşılıqlı etimad möhkəmlənir, "Bir kəmər, bir yol"un birgə tikintisi çərçivəsində əməkdaşlıq güclənir, beynəlxalq arenada məhsuldar qarşılıqlı fəaliyyət dərinləşir... Sizinlə birlikdə ənənəvi dostluğumuzun möhkəmlənməsində, iki ölkənin xalqlarının rifahı naminə qarşılıqlı faydalı əməkdaşlığın dərinləşməsində bundan sonra da səylər göstərməyə hazıram".

Beləliklə, Azərbaycan Çinin bu coğrafiyada, eləcə də dünyada oynadığı vacib rolunu düzgün qiymətləndirir və seçimini bu amilləri rəhbər tutaraq edir. Azərbaycanla Çin arasında uğurlu əməkdaşlığa və inkişafa yönəlik çoxşaxəli münasibətlər çox şeylər vəd edir. Azərbaycan Prezidenti İlham Əliyevin Pekinə rəsmi səfərinin ölkələrin uğurlarına sanballı vəsilə olacağı şübhəsizdir.

***İmran BƏDİRXANLI***
***XQ***



# Orta Dəhliz uzaq Çini Azərbaycana və Avropaya yaxınlaşdırır

## Marşrutun illik nəqletmə imkanı 10 milyon tona çatıb

**Bu gün beynəlxalq hesabatlarda qarşıdakı illərdə Azərbaycanın Transxəzər Nəqliyyat Dəhlizinə (Orta Dəhliz) heç vaxt olmadığı qədər ehtiyac yarandığı, Çindən gələn və Azərbaycandan keçən yüklərin ildən-ilə artdığı vurğulanır. Eyni zamanda, Orta Dəhliz layihəsinin böyük gələcəyinə güclü inam olduğu, eləcə də Azərbaycanda bu marşrutun inkişafı məqsədilə bütün lazımi infrastrukturun, o cümlədən müasir dəniz limanının inşa edildiyi, hazırda isə onun genişləndirilməsi istiqamətində iş aparıldığı bildirilir.**

Azərbaycan Prezidenti İlham Əliyev də Orta Dəhlizin inkişafına və modernləşdirilməsinə diqqət və həssaslıqla yanaşır, dəhliz çərçivəsində yerləşən infrastrukturların fəaliyyətinin səmərəliyinin artırılmasına xüsusi önəm verir. Məsələn, ölkə rəhbəri Bakı Beynəlxalq Dəniz Ticarət Limanının indiki 100 min TEU və 15 milyon ton ümumi yükaşırma qabiliyyətinin yetərli olmadığnı bildirir və onun ümumi yükaşırma qabiliyyətinin 25 milyon tona və 500 yüz min, yaxud, hətta bir milyon TEU-ya çatdırılmasını zəruri hesab edir. Dövlətimizin başçısının sözlərinə görə, əgər bu deyilənlər reallaşarsa, o zaman təkcə Çindən deyil, həm də Mərkəzi Asiyadan həcmi artan yükləri qəbul etmək imkanı yaranar.

Azərbaycan hazırda Orta Dəhliz çərçivəsində dəmir yollarının modernləşdirilməsini sürətlə gerçəkləşdirir. "Azərbaycan Dəmir Yolları"nın (ADY) bu barədə məlumatında Ələt dəmir yolu stansiyasında təmir işlərinin bu il başa çatdırılmasının nəzərdə tutulduğu qeyd edilir. Eyni zamanda, layihənin icrasının Bakı – Böyük Kəsik dəmir yolu xətti üzrə qatarların təhlükəsiz hərəkətinin təmin edilməsi və bu dəhlizdə mövcud darboğazın aradan qaldırılması məqsədi daşıdığı vurğulanır.

Qeyd edək ki, Orta Dəhlizin inkişafı və səmərəliyinin artırılması çərçivəsində bu günə kimi Sian (Çin) limanında Qazaxıstan terminalının tikintisi və Bakı–Tbilisi–Qars (BTQ) dəmir yolu xəttinin modernləşdirilməsi və ötürmə qabiliyyətinin artırılması üzrə işlər başa çatdırılıb, Dostık – Moyıntı dəmir yolu hissəsində ikinci, Almatıdan yan keçən xəttin, eləcə də Poti limanında bu il işə salınması nəzərdə tutulan konteyner terminalının tikintisinə başlanılıb. Bundan əlavə, 2025-ci ilin ortalarına qədər Aktau limanında konteyner qovşağının inşası, eləcə də Qazaxıstan tərəfinin Kurık və Bakı limanları arasında fəaliyyət göstərəcək öz bərələrini alması planlaşdırılıb.

Hazırda respublikamızda Bakı limanının 2-ci fazasının tikintisi davam etdirilir, quru yük körpüsü və liman stansiyalarının ötürücülük qabiliyyəti artırılır, eləcə də ölkəmizin dəmir yolları üçün vaqon parkının yenilənməsi nəzərdə tutulur, dəmir yollarının Ələt – Böyük Kəsik hissəsinin modernləşdirilməsi sürətlə həyata keçirilir.

Gürcüstan tərəfində keçid dəmir yolunun modernləşdirilməsi üzrə işlər artıq başa çatdırılıb və ilin sonunadək bu marşrutda ötürücülük qabiliyyətini artırmaq məqsədilə əlavə lokomotivlərin alınması planlaşdırılıb. Orta Dəhliz Qazaxıstan, Xəzər dənizi, Azərbaycan və Gürcüstan vasitəsilə Çin və Avropa ölkələrini birləşdirən beynəlxalq nəqliyyat dəhlizidir. "Avrasiya Nəqliyyat Marşrutu" (ANM) Beynəlxalq Assosiasiyası zəruri informasiya dəstəyini həyata keçirir, inzibati prosedurların sadələşdirilməsinə, rəqabət mühitinin yaradılmasına kömək edir və müxtəlif ölkələrdən, o cümlədən coğrafi cəhətdən birbaşa Orta Dəhlizdə yerləşməyən iştirakçılar üçün maksimum səmərəliliyi gerçəkləşdirir.

"Azərbaycan Dəmir Yolları" QSC Orta Dəhlizin inkişafı üçün "Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu" (TBNM) Beynəlxalq Assosiasiyası çərçivəsində islahatlara fəal qoşulub. İslahatlar nəticəsində Çindən Qazaxıstan, Azərbaycan və Gürcüstan vasitəsilə yük daşımalarının səmərəli təşkili üçün komissiyalar və işçi qrupları yaradılıb.

TBNM çərçivəsində Azərbaycanın Gürcüstan və Türkiyə ilə uğurlu əməkdaşlığı davam edir. Yeni "Avrasiya Nəqliyyat Marşrutu" Beynəlxalq Assosiasiyasının məqsədi isə Orta Dəhlizin cənub qanadındakı ölkələrin səmərəli fəaliyyətə cəlb edilməsini sürətləndirməkdir. Onu da qeyd edək ki, 2024-cü ildə TBNM ilə yükdaşımaların həcmi 62 faiz artaraq 4,5 milyona tona yüksəlib. Bu il üçün isə 5,2 milyon ton daşınma proqnozlaşdırılıb. Orta Dəhlizlə daşınan yüklərin ümumi həcmi 2024-cü ildə 7 milyon 981 min ton olub. Daşımaların 45,2 faizi dəmir yolu, 31,7 faizi avtomobil nəqliyyatı və 23,1 faizi isə dəniz nəqliyyatı ilə həyata keçirilib. Tranzit yüklərin payı 60,2 faiz təşkil edib.

Prezident İlham Əliyev bu il yanvarın 20-də Davosda Çinin CGTN telekanalına müsahibəsində Azərbaycan – Çin münasibətləri, respublikamızın şaxələnmiş xarici siyasəti və Orta Dəhlizin potensialından danışarkən iki ölkə arasında əməkdaşlığın son illər xüsusən iqtisadi –ticari sahədə daha da inkişaf etdiyini bildirib. Dövlətimizin başçısı, eyni zamanda, müsahibəsində Çin və Azərbaycanın strateji tərəfdaşlıq münasibətlərinə də toxunub: "Ötən il Çin və Azərbaycan rəsmi olaraq strateji tərəfdaş oldular. Ötən yay mənim Çinin Sədri ilə görüşümdən sonra strateji tərəfdaşlıq üzrə müvafiq Bəyannamə qəbul edildi və bu bizim ikitərəfli əlaqələrdə çox mühüm siyasi addımdır. Strateji tərəfdaşlıq çox yüksək səviyyəli qarşılıqlı etimad, əməkdaşlıq deməkdir və biz təkcə Ümumdünya Ticarət Təşkilatına deyil, müxtəlif beynəlxalq təşkilatlara qoşulma məsələsi daxil olmaqla Çin ilə tərəfdaşlığımızın genişləndirilməsini arzulayırıq."

Prezident İlham Əliyev və Çin Dövlət Şurasının Sədri Si Cinpin arasında 2024-cü ilin iyulunda keçirilən görüş çərçivəsində iki ölkə lideri tərəfindən "Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında strateji tərəfdaşlığın qurulması haqqında Birgə Bəyannamə" qəbul olunması da münasibətlərin daha da yaxınlaşmasına müsbət təsir göstərir. Adıçəkilən bəyannamə Azərbaycan və Çin arasında qarşılıqlı maraqları və əməkdaşlıq sahələrini genişləndirməklə yanaşı, əlaqələri strateji tərəfdaşlıq səviyyəsinə yüksəltmək məqsədi daşıyır.

Yeri gəlmişkən, sözügedən həmin görüşdə dövlətimizin başçısı Bəyannamənin qəbulunu böyük uğur adlandırıb: "Ölkələrimiz yaxın tərəfdaşlardır və bu gün qəbul ediləcək Bəyannamə Çin Xalq Respublikasını və Azərbaycanı rəsmi olaraq strateji tərəfdaşlara çevirir. Hesab edirəm ki, bu, böyük nailiyyətdir, həmçinin yüksək məsuliyyətdir. Biz gələcəkdə də fəal qarşılıqlı fəaliyyət göstərmək, ikitərəfli əlaqələri bütün istiqamətlər üzrə möhkəmləndirmək niyyətindəyik".

Görüş zamanı Çin Sədri Si Çinpin də, öz növbəsində, iki ölkə arasındakı əlaqələrin səmimiyyətə və qarşılıqlı etimada əsaslandığını vurğulayıb: "Ölkələrimiz yaxşı dostlardır, bərabərlik və qarşılıqlı faydaya əsaslanan yaxşı tərəfdaşlardır. Çin – Azərbaycan münasibətləri həmişə sağlam və sabit şəkildə inkişaf edib. İki ölkə arasında əməkdaşlıq səmərəli nəticələr verib və daha zəngin strateji məzmuna çatıb".

Bu gün Azərbaycan–Çin münasibətlərinin strateji tərəfdaşlıq səviyyəsinə yüksəlməsi ticari-iqtisadi əlaqələrin inkişafına geniş imkanlar açır. Təbii ki, belə bir şəraitin davamlı şəkildə formalaşmasına iki ölkə arasında sərmayələrin təşviqi və qorunması, habelə ikiqat vergitutmanın qarşısının alınması üzrə imzalanan bir sıra sazişlər, həmçinin texniki-iqtisadi əməkdaşlığa dair sənədlər mühüm önəm daşıyır.

Azərbaycanın əsas ticarət tərəfdaşlarından biri olan Çinlə ölkəmiz arasında son illərdə səmərəli investisiya əməkdaşlığı həyata keçirilib. Respublikamızda Çin investisiyalı 300-ə yaxın şirkət qeydə alınıb. Bundan başqa, Azərbaycanın işğaldan azad edilən ərazilərində icra olunan infrastruktur layihələrində Çin şirkətlərinin fəaliyyəti getdikcə genişlənib. Məsələn, "Huawei" şirkəti tərəfindən Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında "ağıllı kənd" və "ağıllı şəhər" təşəbbüslərinin gerçəkləşməsində müəyyən uğurlar əldə edilib.

Çin Azərbaycanın dördüncü ən böyük ticarət tərəfdaşıdır. Ölkəmizin bu dövlətlə ticarət dövriyyəsi davamlı olaraq artır. Çin şirkətləri respublikamızda sənaye, enerji, infrastruktur, informasiya texnologiyaları, ticarət, kənd təsərrüfatı və digər sahələrdə fəaliyyət göstərirlər. Onların ölkəmizə böyük marağı təsadüfi deyil. Çünki son illər ərzində Azərbaycan resursdan asılı iqtisadiyyatdan innovasiyaya, sahibkarlıq və biliyə əsaslanan sənaye iqtisadiyyatına keçidi uğurla gerçəkləşdirib. Tətbiq edilən vergi və kredit güzəştləri, hökumət təşəbbüsləri ilə dəstəklənən əlverişli investisiya mühiti və dövlət–özəl sektor tərəfdaşlığının genişləndirilməsi diqqətdə saxlanılıb.

İşğaldan azad edilən ərazilərdə vergi güzəştləri, sosial sığorta müavinətləri, təkmil investisiya təşviqi mexanizmləri, kommunal xidmətlər üzrə güzəştlər, əmək miqrasiyası kvotasının müəyyənləşdirilməsi və sadələşdirilən iş prosedurları ilə bağlı əlverişli şərtlər Çin şirkətlərinin Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında həyata keçirilən layihələrə marağını şərtləndirib.

Prezident İlham Əliyev bu il yanvarın 20-də isə Davosda Çinin CGTN telekanalına müsahibəsində Orta Dəhlizin əhəmiyyəti barədə də danışıb. Dövlətimizin başçısı söhbətində Azərbaycanın Orta Dəhlizlə bağlı mövqeyinin, sadəcə, tranzit ölkəsi kimi tranzitdən ödənişlər almaqdan ibarət olmadığını deyib və respublikamızın özəl sektora bundan faydalanmağa kömək etmək, dəhlizin keçdiyi ərazilərimizdə müəssisələr yaratmaq olduğunun mühüm vəzifə kimi qarşıya qoyulduğunu bildirib.

Xatırladaq son illər ərzində Orta Dəhliz vasitəsilə tranzit yükdaşımaların həcmi getdikcə artıb. Azərbaycanın düşməndən təmizlənən ərazilərində istifadəyə verilən beynəlxalq hava limanları bu istiqamətdə önəmli rol oynayıb. Zəngəzur dəhlizinin fəaliyyətə başlamasından sonra isə artıq regionun tranzit potensialının daha da güclənəcəyi əminliyi yaranıb.

Orta Dəhliz marşrutu 2014-cü ilin fevral ayında Azərbaycan, Qazaxıstan və Gürcüstanın müvafiq strukturlarının iştirakı ilə yaradılıb. Sonradan layihəyə Ukrayna, Rumıniya və Polşa da qoşulub.

İndi marşrut Çin – Qazaxıstan sərhədindən başlayır və Qazaxıstan, Xəzər dənizi, Azərbaycan və Gürcüstan ərazisindən keçərək Avropaya qədər uzanır. Bütün marşrut boyunca vahid tarif yaradılaraq "vahid pəncərə" prinsipi tətbiq olunur.

Burada bir məsələni də qeyd etmək istərdik. Azərbaycan Çinlə Avropa İttifaqı (Aİ) arasında ən önəmli nəqliyyat qovşağına çevrilməklə yanaşı, bütün bölgənin iqtisadi inkişafını şərtləndirəcək yeni layihəyə başlayıb. Belə ki, Qazaxıstandakı "Kaşağan" yatağından ilk test xam neft partiyası Xəzər dənizindən keçməklə Aktau–Bakı marşrutu ilə daşınıb. Daşınma "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-yə məxsus "Akademik Xoşbəxt Yusifzadə" tankeri ilə gerçəkləşdirilib.

Orta Asiya və Cənubi Qafqazdan keçən Orta Dəhlizin əsas funksiyası Şərqdən Qərbə enerjidaşıyıcılarının və konteyner daşımalarının intensivliyi ilə miqyasının artırılmasıdır. Bir zamanlar çox böyük ümidlər bəslənən və az qala "yeni əsrin ən böyük, qlobal layihəsi" kimi təqdim edilən, Çinin təşəbbüsü olan "Bir kəmər – bir yol" layihəsindən fərqli olaraq Orta Dəhliz səmərəliliyi ilə diqqət çəkir.

Azərbaycan, Çin, Qazaxıstan və Gürcüstan tərəfindən Orta Dəhliz marşrutunun inkişaf etdirilməsi nəzərdə tutulur. Ekspertlərin hesablamalarına görə, marşrutun illik potensialı 10 milyon metrik ton və ya 200 min konteynerdir. Dörd ölkə daxili şirkətlər üçün vahid tarifləri müəyyənləşdirmək, habelə yükdaşıma şirkətlərinin fəaliyyətini sadələşdirmək niyyətindədir.

***VB AYRAMOV***
***XQ***

# Dekotini nədən narahatdır?



(əvvəli 1-ci səhifədə)

Yada salmaq yerinə düşər ki, 2022-ci il oktyabrın 20-də İran İslam Respublikasının Xarici işlər naziri Hüseyn Əmir Abdullahian Ermənistana rəsmi səfər etmişdi. O, səfər çərçivəsində Zəngəzur vilayətinin inzibati mərkəzi olan Qafanda İran baş konsulluğunun açılışına qatılmışdı.

Bundan əlavə, Rusiya tərəfi də vilayətdə baş konsulluğunun açılmasına çalışır. Bu istiqamətdə üç ilə yaxındır ki, iş aparılır. 2023-cü ilin sentyabr ayından etibarən Qafanda baş konsulluğun açılışına hazırlıq üçün məsul olan qrup işləyir. Ermənistan xarici işlər nazirliyi martın sonlarında "Sputnik Ermənistan" agenliyinin yazılı sorğusuna cavab olaraq bildirib ki, hazırda iki ölkə arasında Qafanda baş konsulluğunun açılması məsələsi müzakirə olunur. Redaksiya, xüsusilə prosesin hansı mərhələdə olduğunu, diplomatik nümayəndəliyin açılmasının nə vaxta planlaşdırıldığını, hansı işlərin görüldüyünü, həmçinin konsulluğun niyə hələ də fəaliyyətə başlamadığı ilə maraqlanıb. Ermənistan XİN-dən isə bu suallara qısa cavab verilib: "Qaldırdığınız məsələ iki ölkə arasında müzakirə mərhələsindədir".

Zəngəzurla bağlı bütün bu fəallaşmanın, səfər və görüşlərin Azərbaycan, Rusiya və Ermənistan liderləri arasında imzalanmış üçtərəfli bəyanatdan sonra baş verməsinə dair yazımızın ilk cümləsindəki qeydimiz təsadüfi deyil. Hamıya məlumdur ki, sənəddə, konkret olaraq onun 9-cu bəndində bölgədəki bütün iqtisadi və nəqliyyat əlaqələrinin bərpa ediləcəyi əksini tapıb. Qeyd edilib ki, Ermənistan Respublikası vətəndaşların, nəqliyyat vasitələrinin və yüklərin hər iki istiqamətdə maneəsiz hərəkətinin təşkili məqsədilə Azərbaycan Respublikasının qərb rayonları və Naxçıvan Muxtar Respublikası arasında nəqliyyat əlaqəsinin təhlükəsizliyinə zəmanət verir. Nəqliyyat əlaqəsi üzrə nəzarəti Rusiyanın Federal Təhlükəsizlik Xidmətinin sərhəd xidməti orqanlarının həyata keçirəcəyi, tərəflərin razılığı əsasında Naxçıvan MR-lə Azərbaycanın qərb rayonlarını birləşdirən yeni nəqliyyat kommunikasiyalarının inşasının təmin ediləcəyi də bəyanatda vurğulanıb.

Elə həmin vaxtdan etibarən bəzi dairələrin Zəngəzur haray-həşiri başlayıb. Onlar Zəngəzur dəhlizinin açılmasına dair İrəvanın üzərinə götürdüyü öhdəliyin icra olunmaması üçün var gücləri ilə çalışırlar. Dəhlizlə bağlı irəli atdıqları əsas tezis bundan ibarətdir ki, guya, Azərbaycan güc yolu ilə Mehri rayonunu tutmaq, Naxçıvana maneəsiz yol açmaq niyyətindədir. Bir neçə il öncə bununla bağlı xarici mediada yayımlanan yazıları xatırlamaq kifayətdir. Ancaq zaman bu iddiaların hamısının yalan olduğunu sübuta yetirdi. Buna baxmayaraq, məlum dairələr yenə də öz əməllərindən əl çəkmirlər.

Bugünlərdə Zəngəzur vilayətinə Böyük Britaniyanın Ermənistandakı fövqəladə və səlahiyyətli səfiri Con Qallaher səfər edib. Hayastan mediası bu barədə Böyük Britaniyanın Ermənistandakı səfirliyinə istinadən məlumat yayıb. Qallaher səfər çərçivəsində Gorus şəhərinin meri Aruş Aruşanyanla görüşüb. Səfir merlə şəhərin gələcək inkişaf planlarını və yerli hakimiyyət orqanlarının icmaların ehtiyaclarına necə cavab verdiyini müzakirə edib. Yerli rəhbərliyin rolu və vətəndaşların idarəetmədə iştirakının vacibliyi də müzakirə edilib. "Gorus Sünik (haylar Zəngəzuru belə adlandırırlar – S.H.) vilayətinin mühüm mərkəzlərindən biridir. Merin planlarını dinləmək və əməkdaşlıq imkanlarını müzakirə etmək faydalı oldu" – deyə diplomat qeyd edib.

C.Qallaher Avropa İttifaqının Ermənistandakı monitorinq missiyasının üzvləri ilə də görüşüb. Bu görüş zamanı səfir regional təhlükəsizlik məsələsinə toxunub: "Avropa İttifaqının monitorinq missiyası ilə çox faydalı görüş keçirdim. Onlar öz mandatlarını necə yerinə yetirdikləri və sərhəd icmalarında etimadı necə yaratdıqları barədə danışdılar. Zəngəzurdakı əhalinin dinc, təhlükəsiz şəraitdə yaşamaq və işləmək hüququ var".

Fransanın Ermənistandakı səfiri, anti-Azərbaycan mövqeyi ilə məşhur olan Olivye Dekotini də Azərbaycanla sərhədə gəlib. Diplomat bu barədə "X" platformasındakı hesabında qeydlər paylaşıb. Dekotini Fransanın humanitar yardımının göstərilməsi proseslərini yerində qiymətləndirmək üçün hayların "Vayoçdzor" kimi eybəcər ad yapışdırdıqları Dərələyəz mahalında olub.

Səfir Dərələyəzi Ermənistan ərazisinin sərhəddə yerləşən strateji vacib regionu adlandırıb. Səfərdə əsas diqqət bir neçə istiqamətə yönəldilib: sərhədyanı yaşayış məntəqələrində vəziyyət, Fransanın əhalinin həssas qruplarına dəstəyi, mədəni irsin qorunması. Dekotini Naxçıvan MR-lə sərhəddə yerləşən Xaçık kəndində də olub. O vurğulayıb ki, Fransanın dəstəyi ilə Beynəlxalq Qırmızı Xaç Komitəsi kənd təsərrüfatı işlərinin davamlılığını təmin etmək üçün kəndin fermerlərini buğda toxumu ilə təmin edir.

Qeyd edək ki, fransız səfir Azərbaycanla bağlı xoşagəlməz, qıcıqlandırıcı, araqarışdıran addım atmağa vərdiş edib. Sanki İrəvanda fəaliyyətə başlayarkən regionda sülhə "badalaq quracağına", Ermənistanda revanşist düşüncələri ölməyə qoymayacağına dair sədaqət andı içib. Ölkəmizin əleyhinə açıqlamalar vermək, qara yaxmaq Dekotininin, necə deyərlər, həyat amalına çevrilib. Halbuki, fövqəladə və səlahiyyətli səfir diplomatik rütbəsinə malik olan bu şəxsin vəzifəsi üçüncü ölkələrə qarşı fəaliyyət aparmaq yox, Fransa–Ermənistan münasibətlərinin inkişafı üçün çalışmaqdan ibarətdir. Görünür, səfir Azərbaycan əleyhinə fəaliyyəti Paris–İrəvan əlaqələrinin inkişafına mühüm "töhfə" hesab edir.

Dekotini ötən ilin noyabrında "X" hesabında İran ərazisində yerləşən Qərbi Azərbaycan ostanının (əyalət) xəritəsini yerləşdirmişdi. Səfirin xəritəni "Tək və yeganə" sözləri ilə paylaşmışdı. Azərbaycana qarşı bütün platformalarda anti-təbliğat aparan diplomat bu paylaşımla da Vətən müharibəsindən sonra ölkəmizdə xüsusi intişar tapan Qərbi Azərbaycana qayıdış ideyasına, ümumiyyətlə, bu sözə qarşı çıxdığını nümayiş etdirmişdi. Dekotini demək istəmişdi ki, Qərbi Azərbaycan yalnız İrandadır.

2024-cü ilin avqustunda isə səfir lokal xarakterli antiterror tədbirlərinin mahiyyətini təhrif etmiş, necə deyərlər, "gözə kül üfürməyə" çalışmışdı. Həmin günlərdə "ermənilərin Qarabağa qayıtmaq hüququ"ndan danışan diplomat yenə də "X" platformasındakı hesabında yazmışdı: "Gəlin, öz torpaqlarından qovulmuş Dağlıq Qarabağ ermənilərini unutmayaq. Onların qayıtmaq hüququ Beynəlxalq Məhkəmə tərəfindən təsdiqlənib".

Amma səfirin bu ermənipərərəst açıqlamalarını qeyd etməklə yanaşı, onun təmsil etdiyi dövlətin siyasətini həyata keçirdiyini də unutmaq olmaz. Şübhə yoxdur ki, Dekotini Parisdən aldığı təlimatlar əsasında hərəkət edir. Paris isə beynəlxalq hüququn prinsiplərinə formal şəkildə sadiq qalaraq, erməni tərəfinə birtərəfli dəstəyini getdikcə daha çox nümayiş etdirir. Yelisey sarayı Ermənistanın hərbiləşdirilməsi prosesini fəal şəkildə təşviq edir ki, bu da öz növbəsində regional gərginliyi artırır.

Makron hökumətinin həm indi, həm də son illərdəki hərəkətləri, xüsusən Ermənistan və Azərbaycan arasında münaqişədən sonrakı sülh prosesi kontekstində haqlı narahatlıq doğurur. Elə bir neçə gün öncə – aprelin 17-də Fransa Avropa Parlamentinin Fransadan olan nümayəndələrinin İrəvanda hələ də fəaliyyət göstərən keçmiş separatçı rejimin nümayəndəliyində Qarabağ erməni icmasının "strukturları", o cümlədən keçmiş separatçı rejimin sonuncu başçısı Samvel Şahramanyanla görüşü, eləcə də görüş zamanı tərəflərin səsləndirdikləri bəyanatlar bir daha təsdiqləyir ki, Fransa Cənubi Qafqazda destruktiv siyasətini davam etdirir. Bu baxımdan Dekotinin bölgədəki gərginlik yaradan fəaliyyətinin məsuliyyətini həm də Makron hökuməti daşıyır.

*Səxavət HƏMİD*
*XQ*

**Ekspert rəyi**



**Ramiyə MƏMMƏDOVA, "World Panorama" Strateji Araşdırmalar və İnkişaf Mərkəzinin rəhbəri, politoloq**

– Zəngəzur dəhlizinin həm açılmasını istəyən, həm də buna mane olmağa çalışan qüvvələrin sayı çoxdur. Təbii ki, dəhlizin əhəmiyyəti böyükdür. Çünki Avropdan Asiyaya yüklərin daşınması, Şərqlə Qərb arasında kommunikasiyanın asanlaşması bəzi ölkələrin böyük marağındadır. Bəzi ölkələr isə buna qısqanclıqla yanaşırlar. Belə ölkələrdən biri də Fransadır.

Fransa səfirinin zəhlətökən hərəkətləri, yəni mütəmadi olaraq Ermənistan–Azərbaycan sərhədinə gələrək haylara dəstək verməsi, onların necə deyərlər, beyinlərini yuması qınanılası hərəkətdir. Fransa Avropa İttifaqının aparıcı dövlətlərindən biri kimi anlamalıdır ki, Ermənistan–Azərbaycan münasibətlərində, nəhayət, sülh hökm sürməlidir. Əgər onlar həqiqətən də bir Avropa dövləti kimi Rusiya neft-qazından imtina etmək, Moskvanın hegemonluğunu azaltmaq istəyirlərsə, Cənubi Qafqaz bölgəsinin inkişafına, Zəngəzur dəhlizinin açılmasına çalışmalıdırlar. İndiki vəziyyət, yəni gərginlik ocağını sönməyə qoymamaq elə Avropanın özünün maraqlarına cavab verməyən ən böyük yanlışlıqlardan biridir. Çox təəssüf ki, Parisdə bunu başa düşmək istəmirlər və Bakı–İrəvan münasibətlərini gərginləşdirməklə məşğuldurlar.

Onu da qeyd etmək lazımdır ki, Azərbaycanla Ermənistan arasında üçüncü qüvvəyə ehtiyac yoxdur. İki ölkə anlaşa bilir. Ermənistan dövləti də Fransa kimi ölkələrin onun daxili və xarici işlərinə qarışmasına imkan verməməlidir. Bu imkanın yaradılmasının İrəvanın səhvi olduğunu anlamalıdırlar.

# Qırğız torpağında Azərbaycan dünyası



**Dünən Qırğız Respublikasında Azərbaycan Mədəniyyəti Günləri start götürdü. Bişkek bu dəfə musiqi, rəqs və sənət ahəngində Azərbaycanı dinlədi. Qırğız torpağında səslənən hər bir muğam, nəğmə, nümayiş etdirilən hər bir sənət nümunəsi xalqlarımızın ortaq yaddaşına və zövqünə vurulan yeni mədəni möhür oldu.**



Azərbaycan Mədəniyyəti Günlərinin Toktaqul Satılqanov adına Milli Filarmoniyada təntənəli açılışı türk dövlətləri arasında mədəni bağların daha da möhkəmləndiyinin rəmzinə çevrildi. Mərasimdə Azərbaycanın mədəniyyət naziri Adil Kərimli, Qırğızıstanın mədəniyyət, informasiya, idman və gənclər siyasəti naziri Mirbek Mambetəliyev, TÜRKSOY-un Baş katibi Sultan Rayev, Azərbaycanın Qırğızıstandakı səfiri Lətif Qəndilov, xarici ölkələrin səfirləri, diplomatik dairələrin təmsilçiləri, elm, mədəniyyət və incəsənət xadimləri, diasporumuzun üzvləri, jurnalistlər iştirak edirdilər.

Mirbek Mambetəliyev qonaqları salamlayaraq belə mədəniyyət günlərinin keçirilməsinin vacibliyindən və önəmindən söz açdı. O qeyd etdi ki, ötən ilin aprel ayında Bakıda yüksək səviyyədə Qırğızıstan Mədəniyyət Günləri keçirilib. Bu da mədəni sahədə əlaqələrimizin daha da genişlənməsinə təkan verib.

Azərbaycanın mədəniyyət naziri Adil Kərimli ölkələrimiz arasında bütün sahələrdə, o cümlədən mədəni istiqamətdə əməkdaşlığın durmadan inkişaf etdiyini vurğuladı. Nazir bildirdi ki, Azərbaycan və qırğız xalqları dost və qardaşdır, biz həm ikitərəfli, həm də Müstəqil Dövlətlər Birliyi və Türk Dövlətləri Təşkilatı çərçivəsində uğurlu əməkdaşlıq edirik və bundan sonra da əlaqələrimizin inkişaf etdirilməsi əzmindəyik.

Rəsmi çıxışlardan sonra qala-konsert oldu. Proqramda Azərbaycan incəsənət ustaları və rəqs ansamblları geniş və rəngarəng repertuarla çıxış etdilər.

Həmin gün Qırğızıstan Milli Təsviri İncəsənət Muzeyində hər iki nazirin iştirakı ilə Azərbaycan sənətçilərinin əsərlərindən ibarət sərgi açıldı.

Mədəniyyət günləri bu gün Bişkekin müxtəlif ünvanlarında keçirilən görüş və təqdimatlarla davam edir.

*Qulu KƏNGƏRLİ,*
*XQ-nin Türküstan müxbiri*
**Bişkek**

# Kəmaləddin Heydərov Naxçıvanda qəbul keçirib



**Fövqəladə hallar naziri Kəmaləddin Heydərov aprelin 21-də Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin inzibati binasında sakinlərin qəbulunu keçirib.**

K.Heydərov ümummilli lider Heydər Əliyevin Naxçıvan şəhərindəki abidəsini ziyarət edərək önünə gül dəstəsi qoyub, əziz xatirəsini dərin ehtiramla yad edib.

Sonra nazir tərəfindən qəbul edilən Naxçıvan Muxtar Respublikası sakinlərinin müraciətlərinin əksəriyyəti yerindəcə öz həllini tapıb, bir sıra məsələlərlə bağlı qanunvericiliyə uyğun dərhal zəruri tədbirlərin görülməsi barədə nazirliyin aidiyyəti strukturlarının rəhbərlərinə tapşırıqlar verilib.

Nazirlə yanaşı, nazir müavinləri, nazirliyin müvafiq baş idarə və qurum rəhbərləri də vətəndaşları qəbul edib.

Qəbula gələn vətəndaşlar onların müraciətlərinə yerində və operativ yanaşılması üçün yaradılan şəraitə görə ölkə Prezidentinə minnətdarlıq ediblər.

*XQ*

**Replika**

# "Haykanuş"un hekayəsi: yalanın göz yaşı olmur!

**110 il bundan əvvəl Osmanlı İmperiyasında onun nənəsinin valideynləri (?) dini inanclarına görə öldürülübmüş. Bu barədə "Rossiya 1" telekanalının "İnsanın taleyi" verilişinin efirində danışan Marqarita Simonyan nənəsinin "möcüzə nəticəsində" soyqırımından sağ çıxdığını deyib: "Onlar (nənəsinin valideynləri-red.) xristian olduqlarına görə öldürülən insanlar idi".**

"Dəhşətli faciənin nənəsinin gözləri qarşısında" baş verdiyini ah-nalə ilə, sızıldaya-sızıldaya danışan Marqarita uydurduğu yalana inandırıcılıq donu geyindirmək üçün "timsahın göz yaşları"nı axıtmağı da yaddan çıxarmayıb.

Dini hisslər üzərində "xaltura" məşqi edən hay "axçisi", həmçinin əlavə edib ki, ailənin mənəvi ənənələrini ona ötürən, dua etməyi öyrədən nənəsi olub. Yəni, onun dediyindən belə qənaət hasil olur ki, nənəsi olmasaydı, ondan düz-əməlli xristian çıxmayacaqmış.

Belə yerdə deyirlər ki, "oğru elə bağırdı ki, doğrunun bağrı çatladı". Sənin ulu babaların deyildimi Osmanlı ordusunun başının müharibəyə qarışmasından istifadə edib, ona arxadan xaincəsinə zərbələr endirən, müdafiəsiz qalmış dinc əhalini qəddarcasına qətlə yetirən, "böyük Ermənistan" yaratmaq üçün təkcə Türkiyədə deyil, Güney Azərbaycanda, Quzey Azərbaycanda, Naxçıvanda, Zəngəzurda qırğınlar törədən?

Balayanların, kaputikyanların şovinist ideoloji xələfi adlandırılmağa layiq "haykanuş" Simonyan artistlik istedadını birinci dəfə deyildir ki nümayiş etdirir. İlyarım bundan əvvəl Ukrayna mətbuatının yazdığına diqqət yetirin: "Marqarita Simonyan özünün də inana bilməyəcəyi biabırçı yalanlar uydurur. Bundan əlavə, o, peykləri sıradan çıxarmaq və dünyanı rabitə vasitələrindən məhrum etməklə iflic vəziyyətinə salmaq üçün Sibir üzərində termo-nüvə partlayışı törətməyə



çağırış edib. Sibir sakinləri faşist təbliğatçının təklifini özlərinə "dərin təhqir" sayaraq ondan üzr istəməsini tələb ediblər. Bu biabırçı olaydan sonra Kreml Simonyanı "inkar edib", onun bəyanatlarının hakimiyyətin rəsmi mövqeyini əks etdirmədiyini bildirib.

Bu, hələ harasıdır. Moskva Şəhər Dumasının deputatı Yevgeni Stupinin köməkçisi Nikolay Korolyov Rusiya İstintaq Komitəsinə və Daxili İşlər Nazirliyinə Sibirdə nüvə partlayışı təşkil etmək çağırışına görə Marqarita Simonyanın cinayət məsuliyyətinə cəlb olunması tələbi ilə müraciət etmişdi. Xəstə təxəyyüllü "haykanuş" hesab edirmiş ki, bunda "qorxunc bir şey yoxdur" və zərbədən sonra nüvə qışı olmayacaq: "Lakin bütün radioelektronika və peyklər sıradan çıxacaq, ölkə "bir növ 91-ə qayıdacaq". Axı, o vaxt gözəl yaşayırdıq".

SSRİ-nin nostaljisini çəkən daşnak millətçisi Simonyanın cavabını Korolyov belə vermişdi: "Bu bəyanatın vəhşiliyini və absurdluğunu qırağa qoysaq belə, bu tip bəyanatlar Rusiya Federasiyasının qanunvericiliyinin pozulmasıdır. İstintaq Komitəsi və Daxili İşlər Nazirliyi Marqarita Simonyanın "təşəbbüslərinin" təhlili və onun məsuliyyətə cəlb edilməsi ilə məşğul olmalıdır".

Üç il bundan əvvəl isə "Rossiya seqodnya" xəbər agentliyinin və RT telekanalının baş redaktoru Marqarita Simonyan Rusiyanın Ukraynaya qarşı apardığı müharibəni qınayan şoumen Maksim Qalkini Vladimir Solovyovun "Rossiya-1" telekanalında yayımlanan verilişinin canlı efirində "gey" adlandırmışdı. Ona Qalkinin sənətçi dostu, Latviyanın Xalq artisti, tanınmış estrada müğənnisi Layma Vaykule tutarlı cavab vermişdi. O, şoumen Maksim Qalkini yaşlı qadınla evlənən "gey" adlandıran jurnalist Marqarita Simonyanın ünvanına sərt ifadələr işlətmişdi.

"Mən Marqarita Simonyanın kim olduğunu təxminən bilirdim. İndi dəqiq bilirəm. Bu insan əxlaq və etikanın heç bir normasına məhəl qoymayan bir məxluqdur və bu andan etibarən onu vicdansız hesab edirəm". Maksim Qalkin və həyat yoldaşı SSRİ Xalq artisti Alla Puqaçovanı yaxşı tanıdığını vurğulayan Layma Vaykule belə yazmışdı. Tanınmış müğənni Simonyanın hansısa səbəbdən bu xoşbəxt cütlüyə nifrət hissi duyduğunu, onların şərəf və ləyaqətini qəsdən alçaltdığını peşəkar və insani bacarıqsızlığın nümayişi kimi səciyyələndirir və ona maraqlı sual ünvanlayır: "Marqarita, ağlınız yerindədir?"

Məgər ağlı yerində olan məxluq bu cür yalanlara, ağılsızlıqlara, sərsəmləmələrə yol verər? O da hay "axçisi" ola!

*İ.HƏSƏNQALA*
*XQ*

# Nazir vətəndaşlarla görüşüb



**Aprelin 21-də elm və təhsil naziri Emin Əmrullayev Sabirabadda vətəndaşların müraciətlərini dinləyib.**

Qəbulda Beyləqan, İmişli, Saatlı, Sabirabad və Xocavənd sakinləri iştirak ediblər.

Qəbuldan əvvəl ulu öndər Heydər Əliyevin abidəsi ziyarət edilib, önünə gül dəstələri düzülüb.

Qəbul zamanı vətəndaşlar xarici diplomların tanınması, sertifikatlaşdırma, həmçinin digər məsələlərlə bağlı müraciət ediblər. Nazir qəbula yazılmış vətəndaşları dinləyib, müraciətlərin operativ şəkildə araşdırılması, qaldırılan məsələlərin qanunvericiliyə uyğun həlli istiqamətində aidiyyəti qurumlarının rəhbərlərinə tapşırıqlar verib.

*XQ*

# Bakı–İrəvan: əvvəl şərt, sonra sülh!

(əvvəli 1-ci səhifədə)

Nəzərə alaq ki, ATƏT-in Minsk qrupu Qarabağ münaqişəsinin həlli ilə "məşğul olurdu". Əslində, vaxt uzadırdı. Bu məqsədlə təsisatın Rusiyadan, ABŞ-dan və Fransadan olan həmsədrləri təxminən otuz ilə yaxın müddətdə Azərbaycana və Ermənistana mənasız səfərlər gerçəkləşdirdilər. Özlərini, guya, iş görürlərmiş kimi apardılar. Hələ ATƏT sədrinin Anjey Kaspşik adlı şəxsi nümayəndəsi də xatirimizdədir. Adam, öz aləmində, qoşunların təmas xəttində monitorinqlər keçirir, sanki, atəşkəs rejimini "qoruyur", rəhbərliyə "hər şeyin qaydasında olduğuna" dair yekə-yekə hesabatlar verirdi. Azərbaycan rəsmiləri işğal olunmuş torpaqlarımızı istənilən yolla geri qaytarmaqdan söz açanda isə bu adamlar ağızları köpüklənə-köpüklənə münaqişənin hərbi həllinin mümkünsüzlüyünü bildirir, "sülh göyərçinlərinə" çevrilirdilər. Yeri gəlmişkən, 44 günlük müharibə beləleri üçün də yaxşı dərs oldu. İndi ATƏT-in Minsk qrupunun ləğvi təxminən eyni mahiyyət daşımalıdır. Yazımızda bunun da izahını verəcəyik.

Deməli, ATƏT-in gerçək məramı Minsk qrupunun "köməyi" ilə vaxt uzadıb Azərbaycan torpaqlarının işğalını legitimləşdirməyə yönəlmişdi. Bu, bütövlükdə kollektiv Qərbin mövqeyinin ifadəsi olmuşdu. Diqqət yetirək, ölkəmiz 2001-ci ildə Avropa Şurasına üzv qəbul edilmişdi. Təşkilatdan Qarabağ məsələsində ədalət gözləmişdik. Düzdür, AŞ bəzi qətnamələri ilə işğalın dayandırılmasına çağırışlar səsləndirmişdi. Amma sənədlər mənasız və kəsərsiz çağırış mahiyyəti daşımışdı. Prinsipial yanaşmaya gəlincə, AŞ-dən bildirmişdilər ki, münaqişənin həlli ilə məşğul olan ATƏT-dir.

Beləliklə, özünü üzv ölkələrdə insan hüquqlarının qorunmasına mükəlləf sayan AŞ erməni işğalı nəticəsində bir milyona yaxın azərbaycanlının yaşam hüququndan məhrum duruma düşməsini hesaba almaqdan boyun qaçırmışdı. Bunu qurumdakıların diqqətinə çatdıranda gözlərini döymüşdülər.

Bəli, böyük əksəriyyət etibarilə Qərb dünyası üçün Ermənistanın təcavüzkar siyasətinin, yəni haqsızlığın və ədalətsizliyin müdafiəsi ATƏT platformasında, daha dəqiq desək, həmin platformanın Minsk qrupu kontekstində gerçəkləşən proses olmuşdu. Ona görə Azərbaycanın qrupun ləğvinə dair hazırkı tələbi təkcə İrəvanın işğalçı mahiyyətini sıradan çıxarmaq məqsədi daşımırdı. Ölkəmizin siyasəti bütövlükdə erməni məsələsi üzərinə siyasi sərmayə yatıranların strateji yanaşmalarını darmadağın etməyə yönəlib. Rəsmi İrəvan isə ATƏT-in Minsk qrupunun rəsmən fəaliyyətini dayandırması ilə razılaşmaqla, xaricdəki havadarlarının ərazi iddiası ilə bağlı yardımlarından imtina etdiyini təsdiqləmiş olacaqsa, digər tərəfdən, Ermənistan hakimiyyəti avantürizm naminə alətə çevrilmək niyyətindən uzaqlaşdığı mesajını verəcək. Amma başqa vacib nüans var...

Hələlik onu deyək ki, açıqladığımız məqamlar Azərbaycanın irəli sürdüyü şərtin – haqqında söz açdığımız ATƏT-in Minsk qrupunun ləğvi təşəbbüsünün fundamentallıq göstəriciləridir. Ermənistan uzun müddət bu şərti səssiz qarşılayıb və çalışıb ki, sırf öz baxış bucağını təbliğ edərək, beynəlxalq miqyasda dəstək qazansın. Ölkəmizin qətiyyətli mövqeyi nəticəsində rəsmi İrəvanın təmsilçiləri əvvəlcə ATƏT-in Minsk qrupunun yalnız sülh müqaviləsi imzalandıqdan sonra buraxıla biləcəyini bildirdilər. İndi isə dedikləri budur ki, təsisatın rəsmən ləğvi üçün müraciəti barış sazişinin imzalanması ilə eyni vaxtda ünvanlamağa hazırdırlar. Bunu ötən həftə həm Ermənistanın baş naziri Nikol Paşinyan, həm də ölkənin xarici işlər naziri Ararat Mirzoyan dedi. Hər ikisinin sözlərindən gəlinən qənaət budur: Sülh müaviləsi varsa, Minsk qrupuna ehtiyac yoxdur.

Ancaq biz gördüyümüzü görmüşük. Ermənistan tərəfi ATƏT-in Minsk qrupunun ləğvi ideyasına qarşı çıxıb. Hələ ölkənin hakim komandasının üzvləri bir vaxtlar təsisatın vacibliyini əsaslandırmağa da girişmiş, fikirləri bu olmuşdu ki, Minsk qrupu Qarabağ ermənilərinin bölgəyə dönüşünə, habelə "Azərbaycanda saxlanılan erməni məhbuslar" məsələsinin həllinə kömək göstərə bilər. Belə sərsəm deyimlərin ana xəttini ATƏT-in uzun illər olduğu kimi, yenə Ermənistanla Azərbaycan arasında vasitəçilik missiyasını həyata keçirməsi istəyi təşkil etmişdi.

Gələk anonsunu verdiyimiz başqa nüansa. Tam əminliklə deyə bilərik ki, kollektiv Qərbin erməniпərəstlik kursunun başlıca təsir aləti sayılan ATƏT-in Minsk qrupunun ləğvi təkcə Ermənistanlıq deyil. Məsələ həm də beynəlxalq aləmin erməniпərəstləri ilə bağlıdır. Erməni məsələsinin həmin Qərbin geosiyasi maraqlarından qaynaqlandığını vurğulamışıq. Ona görə rəsmi İrəvanın sülh müqaviləsi ilə eyni vaxtda Minsk qrupunun buraxılmasına dair birgə müraciətin ünvanlanmasına dair mövqeyinə şübhə pəncərəsindən baxmalıyıq.

Şübhəmizi şərtləndirən düşüncəmizdir. Düşünürük ki, tutalım, Azərbaycan və Ermənistan rəsmiləri sülh müqaviləsinə imza atdıqları gün ATƏT-in Minsk qrupunun ləğvi üçün müştərək müraciəti də imzaladılar. Kim təminat verə bilər ki, ATƏT rəhbərliyi məsələyə xeyir-dua verəcək? Əlbəttə, ATƏT dedikdə biz təkcə bu təşkilatın mövqeyinə deyil, ümumən, Qərbin yanaşmasına söykənirik. Hər halda, Ermənistan özbaşına deyil.



Digər yandan, İrəvan üçün atdığı imzanın əhəmiyyət payı varmı? Bu barədə də ciddi düşünülməlidir. Axı xeyli müddətdir, Ermənistan rəhbərliyinin çeşidli manipulyasiyalarını görmüşük. Görürdük ki, Paşinyan administrasiyası ilə sülh sazişinin bəndlərini razılaşdırmaq müşkülə çevrilib. Müqavilənin 13 bəndi üzrə razılıq əldə ediləndə rəsmi İrəvanın təmsilçiləri sənədin imzalanmaq üçün tam hazır olduğunu vurğulayır və mövcud istiqamətdə təbliğat aparırdılar. Onlar təbliğatlarına anti-Azərbaycan motivləri qataraq, xüsusən, ölkəmizi sülh istəməyən tərəf kimi göstərməyə çalışaraq, təzyiq yolu tutur, var gücləri ilə sazişin natamam şəkildə ərsəyə gəlməsinə səy göstərirdilər. Sonradan 15 bənd üzrə razılıq zamanı da eyni cür davrandılar. Yəni, çalışdılar ki, sülh müqaviləsi avantürizm pəncərəsi tam bağlanmadan imzalansın.

Azərbaycan ötən müddətdə, obrazlı desək, həmin pəncərənin deşiklərini tıxamaqla məşğul oldu. Ölkəmizin məqsədi barış mühitini avantürizmin gələcək təsirlərindən sığortalamaq idi və yenə həmin məqsəd öz aktuallığını qorumaqdadır. Çünki Prezident İlham Əliyevin vurğuladığı kimi, Ermənistana inam sıfıra bərabərdir. Dövlətimizin başçısı bu fikri sülh müqaviləsinin bütün bəndləri razılaşdırıldıqdan sonra bildirirsə, deməli, həm də həmin vaxtadək keçilmiş yolun rəvanlıqdan uzaqlığını vurğulayır.

Bəli, Ermənistana etibar yoxdur. Yəni, indiki durumda ölkə Azərbaycanla birgə ATƏT-in Minsk qrupunun ləğvi ilə bağlı müştərək müraciət ünvanlasa belə, heç kəs deyə bilməz ki, Paşinyan və komandası gələcəkdə səmimi davranacaq, təsisatın rəsmən ləğvi baxımından israrlı olacaq. ATƏT-də, yaxud Qərbdə kimsə özünün sərsəm düşüncələrini işə salıb Minsk qrupunun hələ də qalmalı olduğunu əsaslandırmağa qalxsa, Paşinyan administrasiyası üzvlərinin həmin şəxsin çaldığı musiqiyə qol qaldırmayacaqlarını söyləmək çox çətindir. Axı Paşinyanın öz imzasından dolayı imtinasına, səsləndirdiyi fikirlərə zidd hərəkətlərinə çox şahidlik etmişik. Belə yanaşma isə böyük anlamda götürsək, iki Cənubi Qafqaz ölkəsi arasında etimad quruculuğuna zərbə vurub.

Baxın, səsləri hələ də çıxmaqda olan Qarabağdakı keçmiş separatçı tör-töküntülərin özünü "prezident" adlandıran oyuncaq lideri Samvel Şahramanyan bildirir ki, ATƏT-in Minsk qrupu aradan qaldırılmamalı, erməni ictimaiyyəti buna yol verməmək üçün ölkə iqtidarına təzyiq göstərməlidir. Hələ Şahramanyan Ermənistandakı revanşist-şovinist kəsimin ən xırda təmsilçisi statusundadır. Başqa "iribuynuzlu" avantüristlər var. Bütün bunlara görə əvvəlcə ATƏT-in Minsk qrupu rəsmən ləğv edilməli, sülh sazişi yalnız proses tamamilə başa çatdıqdan sonra imzalanmalıdır. Başqa sözlə desək, Azərbaycan qarşısındakı məğlubiyyət təkcə Ermənistan yox, onun havadarları tərəfindən də təsdiqlənməlidir.

Sonda bir məqamı da vurğulayaq. Azərbaycan hakimiyyəti əbəs yerə bildirmir ki, Ermənistandakı faşizmin kökü kəsilməlidir. Heç şübhəsiz, bu, erməni avantürizminin tarixin arxivinə gömmək zərurətindən qaynaqlanmış mövqedir. O avantürizm ki, rəsmi İrəvan hazırda ondan tamamilə imtina etməmək üçün, bir növ, tutacaq yerlər axtarır.

Ölkəmizin isə sülh müqaviləsinin imzalanması baxımından irəli sürdüyü daha bir şərt var. Söhbət Ermənistan konstitusiyasına dəyişiklikdən gedir. Yəni, dəyişiklik erməni əsas qanununu işğalçılığı rəhbər tutan ərazi iddiası motivindən qurtarmalıdır. Bu, konstitusiyanın ölkənin İstiqlaliyyət bəyannaməsinə istinad yükündən xilası ilə mümkündür.

Hazırda Ermənistan rəhbərliyi sülh müqaviləsi ilə eyni vaxtda ATƏT-in Minsk qrupunun ləğvi üçün müraciətin imzalanması üzərində dayanırsa, deməli, Azərbaycanın konstitusiya dəyişikliyi tələbini müəyyən mənada unutdurmaq, diqqəti onun üzərindən yayındırmaq məqsədini güdür. Halbuki, iki məsələyə eyni prizmadan münasibət mütləqdir. Prinsipial baxış belə olmalıdır: əvvəlcə Azərbaycanın şərtləri tam şəkildə, hansısa siyasi möhtəkirlik elementlərini saxlamadan yerinə yetirilməli – işğalçılıq və ərazi iddiası mərəzindən imtina baxımından maksimum təminat yaranmalı, nəticə etibarilə sülhün Cənubi Qafqazı inkişafa daşıyacaq məramına hətta nəzəri təhdid meyili belə sıradan çıxarılmalı, sonra sülh müqaviləsi imzalanmalıdır.

***Ə.CAHANGİROĞLU***
***XQ***

# Kilsə, yoxsa terror mərkəzi?

## *Qüdsdə erməni kilsəsinin fəaliyyəti dini dəyərlərlə uzlaşmır*

**2020-ci ildə baş verən 44 günlük Vətən müharibəsi Azərbaycanın ərazi bütövlüyünün bərpası ilə nəticələndi və bu, Ermənistan Respublikası, erməni diasporu və erməni kilsəsi qarşısında konkret çağırış və vəzifələr qoydu. Hayastan rəhbərliyinin nala-mıxa vurmasına baxmayaraq, erməni xalqına ən böyük təsir gücünə malik olan iki institutun – erməni diasporunun və kilsənin son 5 ildəki bəyanatları Qarabağla bağlı məsələnin onlar üçün bağlanmadığını göstərdi.**

Bugünlərdə Qüdsdə baş verənlər bu versiyanı bir daha təsdiqləyir. Erməni Apostol kilsəsində revanşist əhval-ruhiyyəsi son zamanlar daha da güclənməkdədir. Son hadisələrdən biri – Yerusəlimdə, yəni müqəddəs Qüds şəhərində Pasxa bayramı zamanı erməni keşişlərin qondarma "Dağlıq Qarabağ respublikası"nın bayrağını qaldırması, bu revanşist tendensiyaların dini platformadan üfürüldüyünü göstərdi. Erməni kilsəsi yarandığı gündən yalnız dini yox, həm də siyasi institut kimi fəaliyyət göstərib. Erməni xalqının milli kimliyinin formalaşmasında və saxlanmasında bu kilsə mühüm rol oynayıb. Bu gün də həmin destruktiv davranış davam etməkdədir. Azərbaycanın suverenliyinə qarşı yönələn çağırışlar kilsə atributları fonunda nümayiş olunursa, bu, artıq sadəcə siyasi deyil, eyni zamanda, dini alətlərin təxribat üçün istifadəsi deməkdir.

Qüds təkcə dini yox, həm də beynəlxalq siyasi simvollarla zəngin olan bir məkandır. Erməni keşişlərin burada separatçı bayraq qaldırması təkcə bir jest deyil, həm də beynəlxalq ictimaiyyətə yönələn simvolik çağırışdır. Bu addım vasitəsilə Ermənistanın dini dairələri öz revanşist mesajlarını qlobal səviyyədə yaymaq niyyətindədirlər. Bu, həm də xristian həmrəyliyi adı altında anti-Azərbaycan təbliğatının yayılmasına yönəlmişdir.

Məlumdur ki, dini məkanlar və dini bayramlar siyasi aksiyalar üçün tribuna olmamalıdır. Bu prinsiplər BMT və UNESCO kimi beynəlxalq təşkilatlar tərəfindən də dəfələrlə vurğulanıb. Erməni kilsəsinin bu qaydaları pozaraq belə tədbirləri siyasi platformaya çevirməsi dini zəmində qarşıdurmalara zəmin yarada bilər. Azərbaycanın ərazi bütövlüyü BMT tərəfindən tanınıb və bu reallığı şübhə altına almağa cəhd göstərən hər hansı təşəbbüs beynəlxalq hüquqa ziddir.

Erməni kilsəsinin Qüdsdəki addımı bir daha göstərdi ki, Ermənistan cəmiyyətində sülhə və regional əməkdaşlığa hazır olmayan qüvvələr hələ də aktivdir. Dini məkanları və bayramları təxribat alətinə çevirmək isə nə dini dəyərlərə, nə də regionun gələcəyinə xidmət edir.

Erməni kilsəsinin və diasporunun Azərbaycana qarşı müharibəni davam etdirmələri Cənubi Qafqazın gələcəyinə təhdiddir. Məlumdur ki, azərbaycanlıların son iki əsrdə qətliamlara və soyqırımlara məruz qalmalarının arxasında həmişə erməni kilsəsi dayanıb. Belə çıxır ki, bu qondarma kilsənin Qüdsdə, İrəvanda var olması regional təhlükəsizliyə təhdiddir. Buna görə də, Azərbaycan kilsənin gələcəyi ilə bağlı addımlar ata bilər.

*

Uzun əsrlərdir ermənilər dünya ictimaiyyətini aldadaraq Ermənistanı xristianlığın beşiyi adlandırırlar. Baxmayaraq ki, xristianlığın arealının yayıldığı illərdə ermənilərin dövləti yox idi.

Xristianlıq dünyada müxtəlif məzhəblər və kilsələr vasitəsilə təzahür edir: katolik, pravoslav, protestant və digər yönümlər mövcuddur. Bu çərçivədə, Erməni Apostol kilsəsi özünü ilk xristian kilsələrindən biri kimi təqdim etsə də, həm teoloji baxımdan, həm də praktiki fəaliyyəti etibarilə universal xristianlıqdan kəskin şəkildə fərqlənir. Bu fərqlər, sadəcə, dini rituallar və ayinlərdə deyil, həm də kilsənin ideoloji və siyasi mövqeyində müşahidə olunur.



**1. Teoloji əsaslar və fərqliliklər**

Erməni Apostol kilsəsi 451-ci ildə keçirilən Xalkedon Kilsə Məclisinin qərarlarını qəbul etməyərək Xalkedon sonrası əsas xristian doktrinasından ayrılmışdır. Bu səbəbdən, o, monofizit (yəni İsa Məsihin yalnız ilahi təbiətini tanıyan) mövqedə qalmış və universal pravoslav və katolik kilsələrindən teoloji olaraq ayrılmışdır.

Əsas teoloji fərqlər:

– İsa Məsihin təbiəti barədə fərqli anlayış (monofizitlik).

– Apostol ardıcıllığına dair yalnız milli kontekstdə legitimlik iddiası.

– Liturgiya və dini ayinlərdə digər məzhəblərlə uyğunluğun olmaması.

Bu fərqlər onu xristian dünyasının əsas cərəyanlarından ayırır və qapalı, millətçi bir dini quruma çevirir.

**2. Dinin milliləşməsi: Xristianlıqdan millətçiliyə**

Erməni Apostol kilsəsi dini universal dəyər kimi deyil, etnik-milli kimliyin əsas dayağı kimi təqdim edir. Əslində, bu kilsənin fəaliyyəti çox vaxt dini deyil, etnosentrik xarakter daşıyır. Beləliklə, xristianlığın qlobal və birləşdirici ruhundan uzaqlaşaraq onu sırf erməni milli ideologiyasının daşıyıcısına çevirir.

**Nəticə olaraq:**

– Erməni olmayanlara qarşı qapalı sistemdir;

– xristianlıqla bağlı sülh, tolerantlıq və bərabərlik prinsipləri bu kilsədə prioritet deyil;

– Qarabağ münaqişəsində açıq şəkildə separatizmi və silahlı mübarizəni təbliğ edir.

**3. Kilsənin siyasi alətə çevrilməsi**

Xristianlığın təməl prinsipləri siyasətdən uzaq durmaq, dövlətdən müstəqil olmaq və dini dəyərləri qorumaq üzərində qurulub. Lakin Erməni Apostol kilsəsi bu prinsipləri pozaraq:

– Ermənistanın dövlət siyasətinə birbaşa təsir göstərir;

– xarici ölkələrdəki diaspor strukturlarına dini rəhbərlikdən çox siyasi yön verir;

– Qarabağda və digər regionlarda separatçı silahlı dəstələrə mənəvi dəstək verib, bəzi hallarda onları "müqəddəs döyüşçü" kimi təqdim edib.

Bu hal isə onun dini qurumdan çox, ideoloji-siyasi təbliğat vasitəsi kimi çıxış etməsinə səbəb olur.

**4. Dini etika və xristianlıqdan uzaqlaşma**

Xristian etikası bağışlama, sevgi və barış üzərində qurulmuşdur. Lakin erməni kilsəsinin ritorikası çox zaman nifrət, düşmənçilik və revanşizmlə yüklənir. Bunun nümunəsi:

– Qüdsdə separatçı bayraqların dini ayinlərdə nümayişi;

– digər din və xalqlara qarşı dözümsüzlük ritorikası;

– münaqişəli regionlarda sülhə deyil, qarşıdurmaya çağırışlar.

Erməni Apostol kilsəsi formal olaraq xristianlıq çərçivəsində təqdim olunsa da, onun teoloji təməlləri, funksional rolu və praktiki fəaliyyəti bu dinin əsas prinsipləri ilə ziddiyyət təşkil edir. Bu qurum daha çox milli və siyasi ideologiyanın daşıyıcısı, dini dəyərlərin isə aləti rolunu oynayır.

Beləliklə, hazırda Azərbaycan və Ermənistan arasında ikitərəfli münasibətlərin gələcəyi ilə bağlı danışıqların getdiyi bir vaxtda son hadisələr kilsə ilə bağlı rəsmi İrəvan qarşısında tələbin qaldırılması ilə nəticələnə bilər. Erməni kilsəsi daim öz fəaliyyətində türkü özünə düşmən görüb, cəmiyyətini zəhərləməklə məşğuldur. 44 günlük müharibə isə regionda yeni reallığın əsasını qoyub. Bu reallıqda bu cür kilsəyə yer yoxdur. Deməli, erməni keşişlər ya xaçlarını götürüb öz lokasiyalarını dəyişməlidirlər, ya da kilsənin ideoloji baxış bucağını, proqramını yenisi ilə əvəzləməlidirlər. Ermənistan dövləti konstitusiyasını, erməni kilsəsi siyasi baxışlarını və fəaliyyət planını, erməni diasporu davranışını dəyişməlidir. Onlar Qafqaza 200 il əvvəl gəldiklərini unutmasınlar.

***Zaur MƏMMƏDOV,***
***Bakı Politoloqlar***
***Klubunun rəhbəri***

# Qlobal geosiyasətdə “türk ssenarisi”



**V MƏQALƏ**

## Cənubi Qafqazda sülh təşəbbüsləri

Qlobal geosiyasətdə türk ssenarisi üçün böyük əhəmiyyəti olan və Azərbaycanın dövlət başçısı tərəfindən irəli sürülən prinsipial məqamları geniş vurğulamaq lazımdır. Prezident İlham Əliyev bu məsələni 4 prinsipial müddəanın qarşılıqlı əlaqəsində təqdim etmişdir:

Birincisi, Qarabağ münaqişəsi artıq keçmişdə qalmışdır. İkincisi, Azərbaycan sülh müqaviləsini imzalamağa hazırdır. Üçüncüsü, hər bir region dövlətinin bu prosesi müsbət aspektdə dəstəkləməsi zəruridir. Dördüncüsü, sülh sazişi beynəlxalq hüquq normaları çərçivəsində imzalanmalıdır.

Qarabağ münaqişəsinin keçmişdə qalmasının vurğulanması yalnız Azərbaycana deyil, bütövlükdə, Türk dünyasına aid olan məsələdir. Çünki həmin qələbə ilə Bakı Avrasiyada İkinci dünya müharibəsindən sonra yeganə dövlətdir ki, öz gücünə ərazi bütövlüyünü tam bərpa və suverenliyini tam təmin etdi. Bununla Azərbaycan bir türk dövləti olaraq müstəqil olmaq qüdrətində olduğunu sübut etdi. Eyni məntiqlə bu qələbəni bütövlükdə, Türk dünyasına aid edirlər. Prezident İlham Əliyevin bu fundamental addımı qlobal geosiyasətdə türk ssenarisinin baza prinsiplərindən birini ifadə edir.

Onun əsasında Azərbaycan dövlət başçısı iki mühüm siyasi prinsipi müəyyən etmişdir. Onlardan biri milli miqyasla bağlıdır – “Azərbaycan sülh müqaviləsini imzalamağa hazırdır”, digəri isə Cənubi Qafqazın region kimi inteqrasiyası prosesi ilə əlaqəlidir – “hər bir region dövlətinin bu prosesi müsbət aspektdə dəstəkləməsi zəruridir”.

Buradan geosiyasətdə türk yanaşmasının iki vacib parametrini müəyyən etmək olar. Birinci parametr: türk dövlətləri yalnız sülh, barış, əməkdaşlıq və təhlükəsizliyə istiqamətlənmişlər. İkinci parametr: bu sülhsevərliyi regional miqyasa proyeksiya etməkdə qərarlıdırlar. Buna görə də Azərbaycanın sülh müqaviləsi imzalamağa hazırlığı həm də Cənubi Qafqazda inteqrasiya prosesinin real məzmun almasına xidmətdir.

Nəhayət, qlobal geosiyasətdə türk ssenarisinin reallaşması baxımından prinsipial əhəmiyyəti olan dördüncü müddəanı vurğulamaq lazımdır – “sülh sazişi beynəlxalq hüquq normaları çərçivəsində imzalanmalıdır”.

Bu prinsip türk dövlətləri üçün fundamental əhəmyyət daşıyır. TDT–nin qurulması, onun daxili münasibətlərinin məzmunlaşması və başqa dövlətlərlə (və ya dövlətlər qrupu, beynəlxalq və regional təşkilatlarla) münasibətləri ancaq beynəlxalq hüquq normaları çərçivəsində ola bilər. Azərbaycan Prezidentinin daim vurğuladığı bu prinsip XXI əsrdə beynəlxalq münasibətlərdə əsas faktor kimi qəbul edilməlidir. Qlobal geosiyasətdə türk ssenarisinin başlıca özəlliyi və o anlamda üstünlüyü məhz beynəlxalq hüquq normaları çərçivəsində fəaliyyət göstərməklə bağlıdır.

Yeri gəlmişkən, qlobal geosiyasətdə türk ssenarisinin etik aspekti ədalətlilik və humanitarlıqdır (yəni, qarşılıqlı paylaşmaq xətti). Beləliklə, qlobal geosiyasətdə türk ssenarisi 3 təməl prinsip üzərində bərqərar olmaqdadır: beynəlxalq hüquq, ədalətlilik və humanitarlıq!

Bu yanaşma olduqca pozitivdir və parçalanmış dünyada diplomatiyanın birləşdirici rol oynamasına töhfədir. Geosiyasi baxımdan bu tezislərin mühüm cəhətlərindən biri İlham Əliyevin qlobal təhlükəsizlik və əməkdaşlıq arxitekturasının qurulmasına regional miqyaslarda sağlam əməkdaşlıq, qarşılıqlı anlaşma və təhlükəsizlik bazasını yaratmaqla nail olmağın səmərəliliyini ön sıraya çıxarması çox əlamətdardır. Belə br mövqenin nəzəri və praktiki nəticəverici gücü böyükdür.

## Zəngəzur dəhlizi və regional inteqrasiya

Azərbaycanın dövlət başçısı yuxarıda vurğulanan istiqamətdən başqa bir mühüm aspektə diplomatik məharətlə keçid etmişdir. Onları faktiki olaraq, bir-biri ilə məzmun, məntiq və ümumi kontekstlə əlaqələndirmişdir. Biz Zəngəzur dəhlizi məsələsini İlham Əliyevin regional inteqrasiya kontekstində təhlil etməsini nəzərdə tuturuq.

Bu məsələ Avrasiya üçün aktualdır. Çünki Çindən başlayan əməkdaşlıq yolunun Qərbə qədər sabit işləməsi üçün Zəngəzur Cənubi Qafqazda açar məkan rolunu oynayır. İlham Əliyev bu faktoru dünyanın yeni düzənində inteqrasiyanın perspektivi kontekstində diqqətə çatdırmaqla, bütövlükdə, hər bir iştirakçı dövlətin (xüsusilə, böyük dövlətlərin) Zəngəzur dəhlizinin açılmasında maraqlı olması zərurətini ifadə etmişdir. Burada Türk Dövlətləri Təşkilatı (TDT) üzvlərinin də Zəngəzur dəhlizinin açılması üçün siyasi və geosiyasi məsuliyyət daşımalı olduğu məqamı da vardır.

Çünki Çindən başlayan Orta Dəhliz marşrutu üzərində Mərkəzi Asiyanın türk dövlətləri də yerləşmişdir. Onların əraziləri həm də TDT-nin ərazisidir. Ola bilməz ki, Mərkəzi Asiya dövlətləri Avropa İttifaqı ilə hər hansı əməkdaşlıq sazişi imzalaya və onu Türk dünyasının demirik, Çinə qarşı yönəldə. O halda Mərkəzi Asiya “Yeni İpək yolu” layihəsindən kənarda qalır ki, sonucda, bu, Avropa ilə əməkdaşlığa zərbə vurmaq deməkdir. Buna görə də, TDT üzvü kimi Mərkəzi Asiya dövlətləri Prezident İlham Əliyevin müəyyən etdiyi Zəngəzur dəhlizinin regional inteqrasiyaya töhfəsi məsələsini avtomatik qəbul etməlidirlər.

Bununla Zəngəzur nümunəsi ilə Azərbaycan lideri yeni diplomatik məharət nümayiş etdirmiş və geosiyasi aspektdə dünyanın birləşməsinin konkret üsullarından birini ortaya qoymuşdur.

## Türk dünyasının vahid diplomatik strategiyası

Regional interqasiyanın geosiyasi, ticari, təhlükəsizlik və enerji aspektlərindən regional təşkilatlanmanın diplomatik cəhətinə keçid böyük addımdır. Geosiyasi təlimlərdə bu cür keçidlərin ciddi nəzəri əsaslara malik olmasına xüsusi yer verilir. İlham Əliyev Antalya Forumunda bunun yüksək diplomatik nümunəsini göstərmişdir. Məsələ həm də bir sıra səbəblərə görə, müəyyən dairələrin həm Türk Dövlətləri Təşkilatına (TDT) hücumlar təşkil etməsi, həm də bəzi türk dövlətlərinin qeyri-sabit mövqe nümayiş etdirməsi fonunda əhəmiyyətli praktiki məna kəsb edir.

Azərbaycan Prezidenti forumda müxtəlif siyasi liderlərlə apardığı aktiv müzakirələri və irəli sürdüyü fikirlərlə səmimiyyət və qətiyyətlə türk dövlətlərinin vahid diplomatik strategiya yaratması prosesinə sadiqliyini, bu yolda səmərəli fəaliyyət göstərmək əzmini, qətiyyətini və uğur əldə ediləcəyinə böyük əminliyini təsdiq etdi. O cümlədən, Prezident İlham Əliyev forumda Şimali Kipr Türk Cümhuriyyətinin başçısı Ə.Tatarla görüşdü və vurğulanan problemi müzakirə etdi. Azərbaycan Prezidenti Kipr türklərinə böyük dəstəyinin davam edəcəyini və Şimali Kipr Türk Cümhuriyyətinin tanınmasına qədər mübarizə aparacaqlarını bir daha vurğuladı. Və bu məqsədə nail olacaqlarına əminliyini söylədi.

Qlobal geosiyasət kontekstində Azərbaycan Prezidentinin vahid diplomatik strategiya prinsipini ayrıca vurğulaması aparıcı məqamdır. Çünki diplomatik strategiya hər bir nəzəri yanaşmanın və fəaliyyət prinsiplərinin realpolitika çərçivəsində praktiki reallaşmasının əsas mexanizmidir.

Bundan başqa, hər hansı bir təşkilatın qlobal miqyasda güc olmaq iddiası vardırsa, onun vahid diplomatik strategiyasına malik olması mütləq şərtdir. Bundan kənarda hər hansı müsbət nəticədən danışmaq absurddur. Azərbaycan Prezidenti məsələnin bu cəhətini həm nəzəri səviyyədə aktuallaşdırır, həm də praktiki diplomatik fəaliyyətində onu çox gözəl əks etdirir.

Yuxarıda Şimali Kiprlə bağlı İlham Əliyevin vurğuladığımız mövqeyi bunun əyani təsdiqlərindən biridir. Eyni zamanda, Suriya məsələsində Bakı ilə Ankaranın çiyin-çiyinə dayanması Türk dünyasının vahid diplomatik strategiya müəyyən etməsinin vacib nümunəsidir. Başqa türk dövlətlərinin də bu ibrət dərsini yaxşı mənimsəyəcəklərini ümid edirik. İnformasiya müharibəsinin, faktiki olaraq, yeni keyfiyyət səviyyəsinə yüksəldiyi müasir dünyamızda bu məqamın strateji vacibliyi daha da artmış kimi görünür!

## Multikulturalizm və Bakı prosesi

Prezident İlham Əliyev multikulturalizm və Bakı prosesi faktorlarına qlobal geosiyasət kontekstində toxunmaqla metodoloji aspektdə ciddi addım atmışdır.

Birincisi, İlham Əliyev göstərmişdir ki, artıq Azərbaycanın dünyanı birləşdirmədə səmərəli ola biləcək təcrübəsi vardır. İkincisi, bu, siyasi, sosial və ideoloji aspektlərdə multikulturalizm, geosiyasi kontekstdə isə Bakı prosesidir.

Hər iki istiqamət üzrə Azərbaycan kifayət qədər təcrübə toplamışdır. Bakının bununla bağlı konkret müsbət nəticələri də vardır. Onları dünya miqyasına proyeksiya etmək olmazmı? Əlbəttə, olar və bu, çox fayda verə bilər.

Eyni zamanda, Azərbaycan təcrübəsinin qlobal geosiyasətdə real yer tutması TDT miqyasında onun öyrənilməsi ilə sıx bağlıdır. Türk dövlətləri Azərbaycanın tətbiq etdiyi multikulturalizm təcrübəsini TDT-yə səmərəli proyeksiya etmək üçün dərindən araşdırmalıdırlar. Bakı prosesi isə geosiyasi kontekstdə, Türkiyə də daxil olmaqla, hər bir TDT üzvü üçün aktual geosiyasi təcrübə keyfiyyətində qəbul edilməlidir.

Multikulturalizm və Bakı prosesinin TDT miqyasına uğurlu proyeksiyası bir çox aspektlərdə türk dövlətlərinin həmrəyliyinə yeni nəfəs verə bilər. Hər şeydən öncə, TDT sivil, müasir və qarşılıqlı faydalılıq prinsipinə əsaslanan təşkilat kimi qlobal geosiyasətdə öz yerini tutar.

Yekunda belə bir ümumi qənaət əldə edə bilərik ki, TDT dünya miqyasında ən perspektivli əməkdaşlıq modeli olmaq potensialına malikdir. Bu aspektdə, o, həm də perspektivli həmrəylik və əməkdaşlıq məkanı kimi qəbul edilə bilər. Həm də o anlamda ki, türk dövlətləri regionlararası miqyasda sülh, barış, əməkdaşlıq və təhlükəsizlik dəyərlərinin yaradıcısı olmaq imkanlarına malikdirlər. Buna görə də TDT-dən yalnız türk xalqları və dövlətləri deyil, bütöv Avrasiya məkanı faydalana bilər. Bu təşkilatla səmimi münasibətlər hər kəsin xeyrinədir! Bu, qlobal geosiyasətdə türk ssenarisinin əsl mahiyyətini ifadə edən tezisdir!

*Füzuli QURBANOV,*
*XQ-nin analitiki,*
*fəlsəfə elmləri doktoru*

**Qan yaddaşı**

# Güney Azərbaycan türklərinin soyqırımı

**(əvvəli qəzetin ötən sayında)**

Kitabın bir hissəsində Cənubi Azərbaycanın Qərb bölgələrində ermənilərin silahlanmasından, əhalinin oradan köçürülməsi üçün xalqa edilən zülmün miqyasından bəhs edilir. 405-ci səhifədə oxuyuruq: “Bizim üçün silah almaq zəruri bir vəzifə idi. Çünki İrandan silah almaq üçün bazar yox idi. Ona görə Rusiyadan gətirməli olurduq. Bu iş də çox çətin idi. Dostlar təklif etdilər ki, Təbrizdə və Səlmasda silah zavodları açaq. Təsis etdiyimiz sexlərdə tüfənglərin qundağını, metal hissələrini hazırlamaq mümkün idi. Digər hissələrini isə Rusiyadan gətirməli olduq. Biz onları Rusiyanın Orlov və Tula silah zavodlarından ala bildik”.

Bütün bunlar 1900-cü illərin əvvəllərində baş verirdi. Ruben Ter-Minasyan Səlmasın əhəmiyyətini belə izah edir: “Səlmasdan Qafqaza, Vana və Balkanlara çatmaq bizim üçün çox əlverişli idi. Buradakı fədailərimizi silah və digər sursatlarla təchiz etmək çətin deyildi”. Ruben bu bölgənin erməni silahlı dəstələri üçün əlverişli yer olduğunu vurğulayır, nəzarətdən kənar ərazi olduğunu qeyd edir. O, Andranikin silahlı dəstəsinin burada yerləşdiyini belə izah edir: “Andranik özü bir müddət sonra Səlmasdan ayrılsa da, silahlı dəstəsi burada qalırdı. Koms da onun kimi... Gələcək erməni hərbi rəisləri Nikol Duman Xoyda öz dəstəsini yaratmışdı, “Daşnak” partiyası da öz idarə mərkəzini Afinadan Tehrana köçürərək, Xoy, Təbriz, Rəşt şəhərlərində təşkilat mərkəzləri təşkil etməsi ilə bizim üçün rahat şərait yaranmışdı və İsfahanda fəallaşmağımız gələcək planların gerçəkləşməsinin xəbərçisi idi. Urmiya və Səlmas əsas hədəflərdən biri idi. “Daşnaksütyun” partiyasının planı bölgələrdəki digər xristianların da dəstəyini alaraq buranı “erməni vətəninə” çevirmək idi”.

Qafqazda çıxan erməni qəzetləri də bu planın həyata keçirilməsindən yazırdılar. Tiflisdə çıxan “Mşak” adlı qəzet, demək olar ki, hər nömrəsində buradakı proseslərlə bağlı yazılar verirdi.

Ermənilərin İranın müxtəlif bölgələrində türk-müsəlmanlara qarşı cinayətləri 1918-20-ci illərdən xeyli əvvəl planlaşdırıldığı xatirələrdən də məlum olur. 1908-ci ildə Tehranın Atabəy parkında “sərdari-milli” Səttar xanı güllələyən də erməni idi. Yeprem Davtyanın Tehranda açdığı atəş nəticəsində Səttar xan ayağından yaralanmış, bir il sonra bu yaradan ölmüşdü. Səttar xanı güllələyən Davtyan Van, Ərzurum və Sasuna, bu vilayətlərin kəndlərinə erməni quldur dəstələrinin basqınlarına rəhbərlik etmiş, bir çox cinayətlərinə görə Rusiya tərəfindən həbs edilib Sibirə göndərilmişdi. Amma o, sürgündən qaçaraq, Təbrizdə məskunlaşmışdı. Maraqlıdır ki, 1905-1911-ci illər İran inqilabından və şahın devrilməsindən sonra o, polis rəisi təyin edilmiş, daha sonra müvəqqəti də olsa İran silahlı qüvvələrinin komandanı olmuşdur. İran hökuməti ona sərdar (ümumqoşun komandanı) titulu vermişdi. O, Tehranın polis rəisi işləyərkən çox qan tökdü. Yepremin özü törətdiyi cinayətləri belə izah edirdi: “1908-ci il fevralın 8-də Qəzvində Qiyas Nizaminin oğlu Nəsir xanı müavini ilə birlikdə öldürdüm. Sonra baş ferraş Vəli xanı tapıb öldürdüm. Hurzandakı erməni icması ilə birlikdə Qəznədən 35 kilometr aralıda olan Şahsevənə getdik. 58 nəfəri öldürdük, 46 nəfəri yaraladıq və s.”.

Yeprem daha sonra yazır: “Aprelin 19-da 90 erməni ilə Qəzvinə gəldik. Qazi Nizaminin 21 yaşlı oğlunu girov götürdüm. Ən azı 60-70 nəfəri öldürdük, 35 nəfəri yaraladıq. Sərdarı götürüb getdik. 1908-ci il aprelin 18-də biz 7 erməni silahlısı ilə Şahsevənlərə hücum edərək 8 kişi və bir qadını öldürdük”. Günahsız adamları öldürməklə öyünən bu quldurbaşı Ermənistanda qəhrəman kimi qələmə verilir.

Məsələnin əhəmiyyəti ondadır ki, bu cinayətləri ermənilərin özləri etiraf edirlər, həmin dövrdə baş verənlər onların öz dillərində yazdıqları kitablarda yer alır.

Azərbaycanlılar arasında “Cilovluk fəlakəti” kimi tanınan cinayət zamanı Güney Azərbaycanda ermənilərin köməyi ilə asurilərin həyata keçirdikləri qırğınlarda bəzi tarixçilərə görə 300 min azərbaycanlı qətlə yetirilib. Bu faciə uzun illər gündəmdə olmayıb. Bu qırğınların təməli, əslində, Birinci Dünya müharibəsindən xeyli əvvəl qoyulmuşdu. 1914-cü ildən sonra bölgədə baş verən Osmanlı–rus qarşıdurmaları ruslara arxalanan erməni-asurilərи böyük ölçüdə Rusiyadan asılı vəziyyətə salmışdı. Rusların güclü olduğu bölgələrdə ermənilər və asurilər güclü idilər. Rusiyanın zəifləməsi ilə ermənilər və asurilər, müvəqqəti də olsa, bölgəni tərk etməyə üstünlük verdilər. Amma onların havadarları təkcə ruslar deyildi, fransız və ingilislər də bu məsələyə fəal şəkildə müdaxilə etməyə başladılar. İranın mərkəzi hakimiyyəti aciz idi.

Rusiyada bolşevik inqilabının başlaması və bu ölkənin İranın şimal-qərbi və Osmanlı İmperiyasının şərqindəki işğal etdiyi torpaqlardan çıxması ilə ermənilərin və asurilərin aldıqları dəstək xeyli azaldı. Lakin qısa müddətdən sonra bölgədə cəbhənin zəifləməsinin qarşısını almaq üçün Rusiyanı İngiltərə və Fransa əvəz etdi. Bu qüvvələr regionda öz maraq və planlarını üç əsas qrup vasitəsilə həyata keçirirdilər: Nasturilərə (asurilər) Benjamin Marşimon (o, həm də onların dini lideri idi), ermənilər isə bir müddət Urmiyadakı Osmanlı konsulu olmuş Nikitin və Petros ağa tərəfindən idarə olunurdu. Üçüncü qrup isə İsmayıl ağa Smitkonun (Türkiyə tarixində Simko adı ilə tanınır) başçılıq etdiyi kürdlərdən ibarət qrup idi, İngiltərə və Fransanın öz maraqlarına uyğun Osmanlı imperiyasına və yerli xalqa qarşı müharibə aparırdı. Bu işdə əsas alət yenə ermənilər idi.

Ancaq Nasturi lider Marşimon ilə Smitkonun Çehrik bölgəsində bir görüşü ölümlə nəticələndi. Kürd– asuri– erməni əməkdaşlığının necə inkişaf edəcəyi ilə bağlı görüşdə Smitko gələcək dövlətdə və ya hökumətdə ona yer verilməyəcəyi şübhəsi ilə Marşimonu öldürdü. Asurilər bu hadisəni eşidəndə qisas almaq üçün Çehrikə hücum etdilər. Lakin Smitko qaçmışdı. Oradakı türklərin kürd



Smitko ilə heç bir əlaqəsi olmasa da, asurilərin intiqamının hədəfinə çevrilmiş, tarixçilərin fikrincə, üç gün ərzində (22-25 fevralda) orada 12 min müsəlman vəhşicəsinə qətlə yetirilmişdir.

Fevralın 25-də Urmiya şəhərinin süqutu ilə vəziyyət daha da pisləşdi və müsəlmanları tərksilah etmək bəhanəsilə şəhərdə minlərlə türk qətlə yetirildi. Urmiya ətrafındakı kəndlər boşaldıldı və qırğından qaçan insanların çoxu köç yolunda aclıqdan və ya epidemiyadan öldü. Bu arada erməni dəstələrinin komandirlərindən biri olan Andranik Ozanyan Şimali Azərbaycanın bir çox bölgələrini tutmuşdu və “Böyük Ermənistan” planını həyata keçirmək üçün İran Azərbaycanındakı asuri-erməni dəstələrinə qoşulmağa can atırdı. Andranikin komandanlığı ilə ermənilər 1918-ci il mayın 28-də Xoy şəhərinə girməyə cəhd etdilər. Osmanlı ordusu 1918-ci ilin aprelində artıq hərəkətə keçmişdi. Yerli əhalini qorumaq üçün asuri-erməni dəstələrinə zərbələr vuran Osmanlı ordusu iyul ayında Andranikdən əvvəl Xoy şəhərinə, Səlmas və Urmiya şəhərlərinə daxil olaraq bölgəni tamamilə nəzarətə götürərək 6 aya yaxın davam edən qırğınlara son qoydu.

Müttəfiq qüvvələrlə atəşkəs əldə edildikdən sonra Osmanlı ordusu 1918-ci il oktyabrın 19-da Qərbi Azərbaycan bölgəsini yerli əhalinin ixtiyarına buraxaraq oradan çəkildi. Lakin bu bölgə qırğınlardan sonra çox zəifləmiş və əhalinin böyük hissəsi həyatını itirmişdi. Məşhur İran tarixçisi Əhməd Kəsrəvi “Azərbaycanın 18 illik tarixi” kitabında yazır ki, ermənilər Urmiya və digər bölgələrdə ən azı 150 min müsəlman türkü qətlə yetiriblər. Bu rəqəmin 300 minə qədər olduğunu deyən tarixçilər də var. Urmiyənin o dövrdəki hökumət nümayəndəsi Motemedolvozeranın yazdığı gündəlikdən tərtib etdiyi “Böyük müharibə dövründə Urmiyə” kitabına görə, Urmiyanın yarısı, yəni 150 min insan öldürüldü və şəhər boşaldı. Urmiyənin Qara Sandık, Hatip, Şeref, Ağdaş, Həzran və Qoç Məhəmməd kimi qəbiristanlıqları həmin qətliamın əlamətləridir. Xatırladaq ki, bu qanlı hadisələrdən öncə Urmiyada 300 min əhali yaşayırdı.

Bölgədəki xristianlar birləşmişdi, onlara dəstək isə kürd aşirətlərindən gəlirdi. Urmiya və Xoyda ermənilərlə asurilər arasındakı əlaqələr hər iki icmanın xristian kimliyindən qaynaqlanırdı. Təbii ki, bunu başa düşmək olardı, lakin bölgədə yaşayan kürd tayfalarının erməni–asuri ittifaqında iştirak etdiyini anlamaq çətin idi.

Ruben Ter-Minasyanın xatirələrində bu xalqın, yəni kürdlərin asuri və ermənilərə yaxınlığının gələcəkdə Ermənistan dövləti üçün istifadə ediləcək müsəlman amili olacağı deyilirdi. Ermənilər asurilərin lideri Marşimon ilə yaxşı münasibətdə idilər. Burada əsas söz sahibi o idi. Kürd lideri İsmayıl Ağa Smitko da ermənilərin planlarından xəbərdar idi və bu ittifaqda iştirak etməyə razılıq vermişdi. Ruben yazır ki, erməni hərbi dəstəsinin başçısı Nikol Duman çıxışlarının birində söyləmişdi: “...Amma şiə olan müsəlmanlar bu ittifaqda iştirak edə bilməzlər. 1900-cü illərin əvvəllərində belə bir fikir var idi ki, onlar özlərinə yer tapmalıdırlar, onların burada qalmaları qan tökülməsinə səbəb ola bilər. Partiyamızın burada keçirilən iclasında qərara alındı ki, “şiə-sünni” münaqişəsi təşkil edək. Bunlar şiədir, sünnilərə qarşı istifadə etməklə öz məqsədimizə nail ola bilək. Biz çalışmalıyıq ki, onları Türkiyədən ayıraq...”.

**(ardı var)**

*Qafar ÇAXMAQLI,*
*XQ-nin Türkiyə müxbiri*

**Prezident yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinin yaydığı məlumata görə, ölkəmizdə Milli Etalon Vaxtının yaradılması istiqamətində işlərə start verilib.**




# Ölkəmizdə Etalon Vaxt yaradılır

Bildirilib ki, hazırda respublikada vaxtın düzgün və koordinasiyalı paylaşılması, yəni sinxronlaşdırılması müxtəlif xarici mənbələr və üsullar vasitəsilə həyata keçirilir. Bu isə xarici sistemlərə asılılığın artmasına və daha dəqiq sinxronlaşmanın çətinləşməsinə səbəb olur. Nəticədə, maliyyə, logistika, kommunikasiya və digər sahələrdə müxtəlif texniki maneələrin yaranması riski artır.

Azərbaycan Metrologiya İnstitutu indiyədək bu sahədə mühüm addımlar atıb. Belə ki, Prezident İlham Əliyevin 22 iyul 2022-ci il tarixli müvafiq sərəncamı ilə təsdiqlənən "2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf strategiyası"nın tədbirlər planına uyğun olaraq, institutun yeni yaradılmış Vaxt və tezlik ölçmələri laboratoriyasında sezium atom saatları və GNSS (Qlobal Naviqasiya Peyk Sistemi) qəbulediciləri quraşdırılıb.

Bu avadanlıqlar Milli Etalon Vaxtının (UTC-AZ) formalaşdırılmasında əsas texniki baza rolunu oynayır. Beləliklə, GNSS peyklərindəki atom saatları ilə laboratoriyadakı atom saatları arasında zaman fərqi gündəlik olaraq ölçüləcək və məlumatlar Çəkilər və Ölçülər üzrə Beynəlxalq Büroya (BIPM) göndəriləcək. Bu üsulla Azərbaycanın milli vaxtı ilə Koordinasiyalı Universal Vaxt (UTC) arasındakı fərq dəqiqliklə izlənəcək.

Laboratoriyada quraşdırılmış NTP (Şəbəkə Vaxtı Protokolu) sistemi vasitəsilə gələcəkdə internet üzərindən milli vaxt sinxronizasiyası mümkün olacaq və ölkədə vahid zamanın istifadəsi təmin ediləcək.

Milli Etalon Vaxtının yaradılması prosesinin 2025-ci ilin sonunadək tamamlanması planlaşdırılır. Layihənin reallaşması Azərbaycanda müxtəlif sahələrin daha səmərəli və etibarlı fəaliyyət göstərməsinə töhfə verəcək, ölkəni beynəlxalq səviyyədə də rəqabətqabiliyyətli vaxt infrastrukturuna sahib ölkələr sırasına daxil edəcək.

# İstehlak bazarı 5 faiz böyüyüb



**Dövlət Statistika Komitəsinin məlumatına görə, cari ilin yanvar-mart aylarında Azərbaycanda istehlakçıların tələbatlarının ödənilməsi məqsədilə satılmış malların və göstərilmiş xidmətlərin dəyəri 18,483 milyard manat (2024-cü ilin eyni dövrü ilə müqayisədə 5,1 faiz çox) olub.**

Üç aylıq dövriyyənin 78,9 faizini pərakəndə ticarət, 18,1 faizini əhaliyə göstərilmiş ödənişli xidmətlərin dəyəri, 3 faizini isə ictimai iaşə dövriyyəsi təşkil edib. Qeyri-dövlət sektorunun təsərrüfat subyektlərinin satdıqları malların və göstərdikləri xidmətlərin dəyəri illik müqayisədə 4,9 faiz artaraq 17,7 milyard manata çatıb ki, onun da 44,9 faizi və yaxud 7,95 milyard manatı (2,5 faiz çox) fərdi sahibkarların fəaliyyəti sayəsində formalaşıb.

Hesabat dövründə dövlət mülkiyyəti üzrə təsərrüfat subyektlərinin satdıqları malların və göstərdikləri xidmətlərin dəyəri illik müqayisədə 10,8 faiz artaraq 775 milyon manata çatıb.

# "Əsrin müqaviləsi"nin "Günəşli" zirvəsi

## *18 ildə "Dərinsulu Günəşli" platformasından 89 milyon ton neft çıxarılıb*

**Xəzərin Azərbaycan sektorunda yerləşən "Günəşli" yatağı karbohidrogen ehtiyatlarının zənginliyi ilə digər yataqlardan xeyli dərəcədə seçilir. Azərbaycan neftçilərinin şücaəti sayəsində ötən əsrin 80-ci illərinin əvvəllərində istismara verilmiş bu yatağın ilkin mərhələdə yalnız dayaz sulu hissəsindəki ehtiyatları işlənməyə cəlb etmək mümkün olub. Həmin dövrdə respublikamızın məhdud maliyyə imkanları, eləcə də lazımi texnologiyanın olmaması istər "Günəşli" yatağının dərinsulu hissəsinin, istərsə də yaxınlıqda yerləşən "Çıraq" və "Azəri" kimi zəngin neft yataqlarının da istismarında bir sıra çətinliklər yaradıb.**



Yalnız 1994-cü il sentyabrın 20-də xarici neft şirkətləri ilə imzalanmış "Əsrin müqaviləsi" "Azəri-Çıraq-Günəşli" yataqlar blokunun zəngin karbohidrogen ehtiyatlarının işlənməyə cəlb edilməsinə yol açıb. 30 il müddətinə imzalanmış bu tarixi saziş isə geniş bir coğrafi ərazini əhatə etdiyindən neft yataqlarının mərhələli şəkildə istismara daxil edilməsi qərara alınıb. Beləliklə, "Əsrin müqaviləsi"nin "İlkin neft layihəsi" və yataqların tammiqyaslı işlənməsinin birinci və ikinci mərhələləri ("Faza-1" və "Faza-2" layihələri) çərçivəsində "Çıraq" yatağı, eləcə də "Azəri" yatağının mərkəzi, qərb və şərq hissələri işlənməyə cəlb olunub.

"Günəşli" yatağının dərinlikdə yerləşən hissəsindən neft və qaz hasilatını həyata keçirməyi nəzərdə tutan "Faza-3" layihəsi ilə bağlı qərar isə 2004-cü il sentyabr ayının 20-də – "Əsrin müqaviləsi"nin 10-cu ildönümünə həsr olunmuş yubiley tədbirində qəbul edilib. Layihənin reallaşdırılması üçün 4,7 milyard dollar vəsait ayrılıb ki, bunun da 3,2 milyard dolları tikinti-quraşdırma işlərinə sərf olunub. Onu da qeyd edək ki, "Azəri-Çıraq-Günəşli" yataqlar blokunun tammiqyaslı işlənməsinin sonuncu mərhələsi olan "Faza-3" layihəsi 1,25 milyard barel və ya 176 milyon ton neftin çıxarılmasına hesablanıb.

Layihə dənizin 175 metr dərinliyində bir-biri ilə suüstü körpü ilə birləşdirilən iki nəhəng qurğunun – hasilat və kompressor (laylarda təzyiqi saxlamaq üçün su və qazın vurulması) platformalarının tikintisi ilə yanaşı, bir sıra sualtı birləşdirici kəmərlərin çəkilişi kimi mürəkkəb işləri əhatə edib. Bütün bu işləri yerinə yetirmək üçün dünyanın neft sənayesi üzrə tanınmış podratçı şirkətləri ilə müqavilələr imzalanıb.

Həmin müqavilələrə əsasən layihənin mühəndis-təfsilat işlərinin həyata keçirilməsi, eləcə də qazma, texnoloji təchizat və yaşayış platformasının birləşmiş göyərtəsinin yığılması, quraşdırılması və istismara verilməsi müvafiq olaraq ABŞ-ın "Halliburton International" və "McDermott" şirkətlərinə, platformaların tikintisi Fransanın "BOS Shelf" şirkətinin və SOCAR-ın Heydər Əliyev adına Dərin Özüllər Zavodunun yaratdıqları "BOS Shelf LLC" birgə müəssisəsinə, emal, qaz kompressoru, suvurma və texnoloji təchizat platformasının yığılması, quraşdırılması və istismara verilməsi Britaniya – Türkiyə – Azərbaycan alyansı olan "Amec – Tekfen – Azfen" şirkətinə həvalə olunub. Bundan əlavə, "Faza-3" layihəsi çərçivəsində bir sıra digər tikinti-quraşdırma işlərinin yerinə yetrilməsi üçün "BP-Azerbaijan" şirkəti ilə İtaliyanın "Saipem", İsveçin "Pharmadule Emtunga AB", Niderlandın "Mercon Steel Structures BV", Britaniyanın "KCA Deutag" və ABŞ-ın "Vetco Grey Controls" şirkətləri, həmçinin Türkiyə – Azərbaycan "Tekfen – Azfen" alyansı ilə podrat müqavələləri imzalanıb.

Tikinti-quraşdırma işlərinin qrafikə uyğun olaraq iki il müddətində başa çatdırılması nəzərdə tutulub. Yeri gəlmişkən, əvvəlkilərdən fərqli olaraq "Faza-3" platformaları suyun daha dərin hissəsində quraşdırılıb. Eyni zamanda, bu unikal qurğular daha mürəkkəb geoloji şəraitdə hasilatın həyata keçirilməsinə hesablanıb. "Dərinsulu Günəşli" kompleksinin tikintisi ilə bağlı işlərin bir qismi ölkə daxilində, digər qismi isə "McDermott"un Dubaydakı müəssisələrində iki il ərzində yerinə yetirilib.

"Faza-3" layihəsinin icrası zamanı konsorsium iştirakçıları tərəfindən nəzərdə tutulmuş 30 milyon adam-iş saatı öhdəliyinə tam təhlükəsiz şəkildə riayət edilib. Əsas tikinti-quraşdırma işlərinin yerinə yetirilməsində Azərbaycanın kadr potensialından maksimum istifadə olunub. Belə ki, tikinti-quraşdırma işlərinin 80 faizindən çoxu yerli işçi qüvvəsindən və mövcud infrastrukturdan istifadə olunmaqla ölkə daxilində yerinə yetirilib. Ümumilikdə, "Faza-3" layihəsi çərçivəsində bir-biri ilə körpü vasitəsilə birləşdirilən 48 quyu gövdəsinə malik qazma, texnoloji təchizat və yaşayış, eləcə də texnoloji emal, qaz kompressor, suvurma və texnoloji təchizat platformaları inşa olunub, xam neftin və qazın Səngəçal terminalına nəqlini təmin etmək məqsədilə 30 və 28 düymlük sualtı boru kəmərləri çəklib.

Əməliyyatlar başlanandan indiyədək "Dərinsulu Günəşli" platformasından, ümumilikdə, 58 quyu qazılıb. Bunlardan 52-si neft hasilatı, 5 su injektoru, 1-i isə şlamların yenidən laya vurulması üçün qazılan quyulardır. Ötən müddətdə "Günəşli" yatağının dərinlikdə yerləşən hissəsində əlavə olaraq 22 sualtı injektor quyusu qazılıb.

"Dərinsulu Günəşli" platformasında hasilata isə 2008-ci il aprelin 22-də başlanıb. Bununla da, "Azəri-Çıraq-Günəşli" yataqlar blokunun tammiqyaslı işlənməsi təmin edilib. Platformada maksimal illik neft hasilatı 2014-cü ildə qeydə alınıb. Həmin il burada 7,2 milyon ton neft çıxarılıb. Müqayisə üçün qeyd edək ki, 2014-cü ildə "Günəşli" yatağının dərinlikdə yerləşən hissəsində gündəlik orta neft hasilat 145,9 min barel təşkil etdiyi halda, ehtiyatların azalması səbəbindən ötən ilin yekunlarına görə, bu rəqəm 57 min barel olub. Ümumilkdə, istismara verildiyi vaxtdan indiyədək "Dərinsulu Günəşli" platformasından 657 milyon barel və ya 89 milyon ton neft çıxarılıb.

# Ağdamdan Xankəndiyə yeni yol çəkilir




**Ağdam-Əsgəran-Xocalı-Xankəndi avtomobil yolunun tikintisi işləri sürətlə davam etdirilir. Başlanğıcını Bərdə-Ağdam avtomobil yolundan götürən yolun ümumi uzunluğu 33,6 kilometrdir. Yolun ilk 11,7 kilometrlik hissəsi layihə üzrə II texniki dərəcəyə uyğun, qalan 21,9 kilometrlik hissəsi isə I texniki dərəcəyə uyğun yenidən qurulur. Torpaq yatağının eni müvafiq olaraq 15 və 26,5 metr təşkil edən yolun hərəkət hissəsi 2 və 4 zolaqdan ibarətdir. Hər bir istiqamət üzrə çiyinlərin eni isə 3,75 metrdir.**

Hazırda layihə çərçivəsində torpaq işləri görülür. Belə ki, xüsusi texnikalardan istifadə olunmaqla yararsız qruntun çıxarılması və əvəzində yararlı material verilərək normativ hündürlüyə çatdırılması, yolun genişləndirilərək profilə salınması işləri həyata keçirilməklə yol geyiminin tikintisi aparılır. Yol yatağı və yol əsası hazır olan hissələr asfaltlanır. Artıq 3,6 kilometr hissədə 2 lay asfalt-beton örtük döşənilib.

Bundan əlavə, yol boyu 148 ədəd müxtəlif diametrlərə malik düzbucaqlı və dairəvi suötürücü boruların, eləcə də keçidlərin tikintisi işləri görülüb və hazırda bu istiqamətdə işlər davam etdirilir. Layihədə nəzərdə tutulan 6707 metr uzunluğa malik istinad divarından 4397 metr hissəsinin inşası isə artıq başa çatdırılıb

Hazırda həmin işlərlə yanaşı, 1 və 3 aşırımlı 5 körpünün inşası da sürətlə davam etdirilir. Körpülər yolun 1,6, 4,4, 7,2, 9,6 və 14-cü kilometrlik hissələrində inşa edilir. Bütövlükdə, layihə üzrə işlərin 72-i tamamlanıb.

Xatırladaq ki, Ağdam-Əsgəran-Xocalı-Xankəndi avtomobil yolu bölgədə gediş-gəlişi asanlaşdıracaq, kənd təsərrüfatının, turizmin inkişafına əhəmiyyətli təsir göstərəcək. Yol Bərdə istiqamətindən Xankəndi, Şuşa və Laçın şəhərlərinə getmək istəyən sürücü və sərnişinlərin Ağdam şəhərinə daxil olmadan bu yoldan istifadə edərək sürətlə və təhlükəsiz hərəkətlərini davam etdirmələrinə imkan verəcək.

**Ötən il Azərbaycan Dövlət Neft Şirkətinə məxsus Kulevi neft terminalı vasitəsilə, ümumilikdə, 2,5 milyon ton yük aşırılıb. Bunun da 950 min tonu Azərbaycan mənşəli, 1 milyon 550 min tonu isə tranzit yüklər təşkil edib. Müqayisə üçün qeyd edək ki, 2023-cü ildə adıçəkilən terminal vasitəsilə aşırılmış yük 2,16 milyon ton olub. Beləliklə, 2024-cü ildə yük həcmi əvvəlki illə müqayisədə 349 min ton çox olub.**

# Kulevi–Qara dənizdə neft terminalımız



Xatırladaq ki, Gürcüstanın Qara dəniz sahilində yerləşən Kulevi terminalı və dəniz limanı 2008-ci il mayın 16-da fəaliyyətə başlayıb. Bir ay sonra limana ilk tanker yan alıb. Ötən 17 ildə terminalın tutumu, eləcə də limanın qəbuletmə, yükləmə və yolasalma əməliyyatları xeyli artırılıb. Liman ilboyu fasiləsiz fəaliyyət göstərir. Terminalın anbar parkının ümumi tutumu 320 min kubmetrdir. Tbilisi – Poti polad magistralı ilə Kulevini birləşdirən 14 kilometr uzunluğunda yeni dəmir yolu da ahəngdar rejimdə fəaliyyət göstərir. Bütövlükdə isə, terminalın infrastrukturu müntəzəm olaraq müasirləşdirilir.

Yeri gəlmişkən, illik yükdaşıma gücü 10 milyon tona qədər olan terminal karbohidrogenlərin və neft-kimya məhsullarının daşınması üçün nəzərdə tutulub. Kulevi terminalının xidmətlərinə dəmir yolu ilə karbohidrogen və neft-kimya məhsullarının qəbul edilməsi, çənlərə nəql olunması, saxlanılması, gəmilərə yüklənməsi və liman qurğularının istismarı daxildir.

# 27 "yaşıl" layihə dəstəklənib

**İqtisadiyyat Nazirliyi yanında Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA) sahibkarların 27 "yaşıl" layihəsinə 450 min manat qrant ayırıb.**



KOBİA-nın bununla bağlı məlumatında daha sonra "yaşıl" təşəbbüslərin dəstəklənməsi çərçivəsində 10-dan çox kiçik və orta biznes subyektinə "Startap" şəhadətnaməsi verildiyi qeyd edilib.

Bundan başqa, KOBİA "yaşıl" iqtisadiyyata keçid çərçivəsində 250 təlim, 250-dən çox sahibkarın iştirakı ilə görüş və maarifləndirici tədbirlər, eləcə də 3 daxili bazar araşdıması aparıb.

**Türkiyə mediasının yazdığına əsasən, "Beynəlxalq İnvestorlar Birliyi" (BİB) 2025-ci ilin yanvar-fevral aylarında qardaş ölkəyə yatırılan birbaşa xarici sərmayələrə dair məlumatları açıqlayıb.**

# Türkiyəyə xarici yatırım 92 faiz artıb



## *Azərbaycan ilk 5-likdə qərarlaşıb*

Bildirilib ki, bu investisiyaların həcmi 2024-cü ilin eyni dövrü ilə müqayisədə 92 faiz artıb və 1,35 milyard dollarlıq ümumi investisiyanın 58 faizi və ya 780 milyon dolları pərakəndə və topdansatış ticarət sektoruna yönəldilib.

Ən böyük beynəlxalq investisiyalar Niderland, ABŞ, İsveçrə, Böyük Britaniya və Azərbaycan tərəfindən qoyulub.

***Səhifəni hazırladılar:***
***Vaqif BAYRAMOV,***
***Mirbağır YAQUBZADƏ***
***XQ***

# Qoy bütün dünya eşitsin və bilsin!

**1992-ci ilin fevralında Ermənistan silahlı qüvvələri tərəfindən Xocalıda törədilən qətliam Azərbaycanın milli yaddaşında dərin və sağalmaz iz qoymaqla yanaşı, beynəlxalq hüququn fundamental anlayışları – "etnik təmizləmə", "soyqırımı" və "insanlıq əleyhinə cinayət" kateqoriyalarına tam uyğun olaraq tarixə düşdü. Ancaq bu gün məsələnin hüquqi tərəfi ilə yanaşı, daha mühüm bir aspekti – Ermənistan ordusunun sabiq üzvünün etirafının yaratdığı siyasi rezonans artıq regional və beynəlxalq səviyyədə yeni reallıqlar formalaşdırır.**



Xocalı hadisələrinin birbaşa iştirakçısı olan Madat Babayanın məhkəmədə verdiyi ifadələr Azərbaycan diplomatiyası üçün mühüm hüquqi və siyasi fürsət pəncərəsi açdı. Babayanın "Məqsəd o idi ki, azərbaycanlılar Xocalıdan çıxarılsın" etirafı hadisənin əvvəlcədən planlaşdırılmış etnik təmizləmə aktı olduğunu ortaya qoyur. Məhkəmə prosesinin sənədləşdirilib beynəlxalq ictimaiyyətə təqdim olunması beynəlxalq münasibətlərdə Ermənistanın məsuliyyətinə dair qlobal diskussiyanı gücləndirir.

Siyasi rezonansın əsas vektoru Madat Babayanın etirafı ilə ortaya çıxan planlaşdırılmış xarakterin hüquqi çərçivədən çıxaraq siyasi məsuliyyət müstəvisinə keçməsi ilə bağlıdır. Etiraf sistemli və strukturlaşdırılmış bir cinayət mexanizminin mövcudluğunu üzə çıxarır. Babayanın ifadələrində Ermənistan silahlı qüvvələrinin zabitlərinin, habelə siyasi rəhbərliklə funksional əlaqəsi olan şəxslərin adlarının hallanması hadisənin lokal müharibə cinayəti deyil, dövlət tərəfindən planlaşdırılmış və həyata keçirilmiş etnik təmizləmə aktı olduğunu təsdiqləyir.

Etirafın beynəlxalq hüquqi çərçivədə sənədləşdirilməsi Azərbaycan diplomatiyasına strateji üstünlük qazandırır və beynəlxalq tribunalarda mövqeyini daha da gücləndirir. Artıq məsələ yalnız tarixi ədalətin bərpasına yönəlmiş siyasi ritorikadan ibarət deyil – bu, beynəlxalq hüquq normalarına uyğun şəkildə ifadə edilmiş və hüquqi baxımdan qəbul edilə bilən real faktlar sistemidir.

Bu, Xocalı soyqırımının tanıdılması prosesində yeni mərhələyə keçidi şərtləndirir və beynəlxalq təşkilatlarla və digər qlobal platformalarda aparılan diplomatik fəaliyyətlərin yeni məzmun və məntiq çərçivəsində təşkili üçün mühüm alətə çevrilir. Eyni zamanda, Madat Babayanın ifadələri Xocalının hüquqi statusunun beynəlxalq miqyasda tanıdılması istiqamətində konkret və hüquqi əsaslı təşəbbüslərin irəli sürülməsi üçün presedent yaradır. Nəticədə, Azərbaycan öz diplomatik strategiyasını yalnız emosional və tarixi haqlılıq arqumentləri üzərində deyil, həm də hüquqi sübutlara söykənən rasionallıq çərçivəsində qurmaq imkanı əldə edir.

Məhkəmə prosesində səslənən faktlar beynəlxalq ictimaiyyət üçün deyil, eyni zamanda, Ermənistanın daxili siyasi və ictimai mühitində də dərin psixoloji və ideoloji silkələnməyə yol aça bilər. İllərlə regional və qlobal informasiya platformalarında "əzabkeş xalq" imici üzərindən siyasi legitimlik əldə etməyə çalışan Ermənistan üçün mövcud ideoloji əsasların təməlindən sarsılmasına səbəb olacaq yeni bir reallıq yaranır. Cəmiyyət daxilində tarix boyu mövcud olmuş "qurbanlıq psixologiyası"nın yerini artıq "cəllad dövlət" imici ala bilər. Bu isə Ermənistan siyasi identikliyində və kollektiv şüurunda ziddiyyətli bir transformasiya prosesini başlada bilər. Ermənistan ictimaiyyətinin, xüsusilə də gənc nəsil və siyasi elita arasında Xocalı faciəsi ilə bağlı həqiqətlərin təsdiqlənməsi mövcud milli narrativlərin yenidən dəyərləndirilməsini zəruri edir. Belə bir informasiya və psixoloji zərbə Ermənistanın daxili siyasi balansına, eləcə də onun regional münasibətlər sistemindəki mövqeyinə təsirsiz ötüşməyəcək.

Xocalı faciəsinə dair təqdim edilən yeni etiraflar artıq regional siyasi sferanı aşaraq qlobal diplomatik gündəliyin də mərkəzinə daxil olmağa başlayır və hadisənin yaratdığı siyasi rezonans beynəlxalq hüquq sisteminin və qlobal normativ nizamın ikili standartlar dilemması ilə üzləşdiyini bir daha nümayiş etdirir. Xüsusilə, Qərb ölkələrinin parlamentləri, insan hüquqları üzrə beynəlxalq təşkilatlar və nüfuzlu media institutları uzun illər "mübahisəli hadisə" kimi təqdim olunan Xocalı faciəsinə dair yeni hüquqi-siyasi sübutlar fonunda öz mövqelərinə yenidən baxmaq zərurəti ilə qarşı-qarşıya qalırlar.

Hadisənin birbaşa iştirakçısı tərəfindən verilən, planlaşdırılmış və sistemli xarakter daşıyan soyqırımı faktlarını təsdiqləyən ifadələr beynəlxalq hüququn "soyqırımı", "etnik təmizləmə" və "insanlıq əleyhinə cinayətlər" kateqoriyalarına tam uyğundur. Beləliklə, beynəlxalq ictimaiyyət qarşısında iki seçim qalır: ya universal hüquq prinsipləri əsasında prinsipial və ədalətli mövqe nümayiş etdirmək, ya da realpolitik və geosiyasi maraqlar naminə bu cinayətin üstündən susqunluqla keçmək və bunun mənəvi-siyasi məsuliyyətini daşımaq.

Mövcud dilemma isə beynəlxalq sistemdə normativ dəyərlərin selektiv tətbiqinə dair uzun müddətdir davam edən tənqidlərin aktuallığını daha da artırır. Xocalı məsələsi timsalında Qərbin hüquq və insan haqları üzrə yaratdığı universal diskursun nə dərəcədə obyektiv və qərəzsiz olduğu sınağa çəkilir. Belə şəraitdə Azərbaycan diplomatiyasının əsas çağırışı – beynəlxalq hüququn selektiv deyil, ümumbəşəri prinsiplərlə tətbiqinə nail olmaq və bu kontekstdə Ermənistanın hüquqi və siyasi məsuliyyətini beynəlxalq tribunal müstəvisiyə çıxarmaqdır.

Son olaraq qeyd edə bilərik ki, Xocalı cəlladlarının etirafı təkcə bir cinayətin təsdiqi deyil, həm də beynəlxalq sistemdə ədalət və ikili standartlar dilemmasını aktuallaşdıran, Ermənistanın hüquqi-siyasi məsuliyyətini gündəmə gətirən, Azərbaycan diplomatiyasına isə yeni bir mübarizə aləti təqdim edən siyasi hadisədir. Bu hadisə bir daha göstərdi ki, həqiqət nə qədər gec olsa da, öz yolunu tapır. İndi məsələ bu həqiqətin qarşısında susmamaq və onu dünyaya çatdırmaq iradəsindədir.

*Şəbnəm ZEYNALOVA,*
*siyasi elmlər üzrə fəlsəfə doktoru*

## Qayıdışın addımları

**Xoş, təravətli bahar günlərində respublikamızın müxtəlif şəhər və rayonlarından keçmiş məcburi köçkünləri doğma yurd-yuvalarına qaytaran növbəti köç karvanları yenidən Qarabağa istiqamət götürdü. Dünənki köç zamanı elimiz-obamız ikiqat qayıdış sevinci yaşadı. Belə ki, Böyük Qayıdışın bu mərhələsində 83 nəfərdən ibarət 21 ailə Xocalının Ballıca kəndində, 34 ailə (141 nəfər) isə Ağdam rayonunun Sarıcalı kəndində fərdi yaşayış evləri ilə təmin edildi.**

# Ballıca və Sarıcalı yeni köç sevinci yaşadı



Hər iki kənddə yeni sakinlərin qarşılanması mərasimi keçirildi. Həyatın yenidən canlandığı, gündən-günə abadlaşan, müasir şəhər və kəndlərin tikildiyi Qarabağa köç edənlər hərtərəfli qayğı ilə əhatə olunduqlarına görə dövlət başçısına, torpaqlarımızı işğaldan azad edən qəhrəman əsgər və zabitlərimizə minnətdarlıqlarını bildirdilər, bu yolda canlarından keçən şəhidlərimizi böyük ehtiramla yad etdilər.

**Ballıca kəndinin yeni sakini, məcburi köçkünlüyə əbədi vida edən Vüqar Əhmədov** öz sevincini "Xalq qəzeti"nin Qarabağ bürosu ilə bölüşərək bu günü uzun illər arzuladıqlarını bildirdi:

– Azərbaycanın hər qarışı bizim üçün əzizdir, doğmadır. Ancaq doğulduğun, böyüyüb boya-başa çatdığın Vətən torpağı həmişə insanı özünə çəkir. Xoşbəxtəm ki, yenidən Qarabağa qayıtdım, bundan sonra burada yaşayacağam. Mən fürsətdən istifadə edib bütün keçmiş məcburi köçkünlər adından xalqımıza bu qüruru, bu sevinci bəxş etdiyi üçün möhtərəm Prezidentimiz, müzəffər Ali Baş Komandanımız İlham Əliyevə təşəkkür etmək istəyirəm. Dövlətimiz Ballıcada bizim üçün hər cür şərait yaradıb. Biz də bu torpaqlara sahib çıxıb, əkib-becərib, bu yerlərin yenidən dirçəlişində iştirak etməliyik. Qoy, dostlar baxıb sevinsin, düşmənlərimizin gözləri kor olsun!

**Atası Birinci Qarabağ müharibəsi zamanı şəhidlik zirvəsinə ucalmış Ceyhunə Abdullayeva** da Ballıcaya qayıdış həyəcanı yaşayanlar arasındadır. Təəssüratlarını soruşduqda bunları dedi:

– Bu gün keçirdiyim hissləri sözlə ifadə etmək, həqiqətən, çox çətindir. Özümə söz vermişəm ki, kədərlənməyim. Çünki həm torpaqlarımız işğaldan azad edildiyi üçün, geri, doğma yurdlarımıza qayıtdığımız üçün atamın ruhu şaddır. Həm də illər boyu çəkdiyimiz Qarabağ həsrəti sona çatır. 11 yaşında çıxdığım Xocalıya qayıtmaq, burada yaşamaq ən böyük arzum idi. Bu gün arzuma çatdığım üçün özümü çox xoşbəxt hesab edirəm! Bir də ona görə xoşbəxtəm ki, dörd övladım daha bundan sonra öz ev-eşiyimizdə rahat, firavan yaşayacaq, məcburi köçkünlük bitdi!

Qeyd edək ki, Böyük Qayıdışa dair I Dövlət Proqramı çərçivəsində Xocalı rayonunun Ballıca və Ağdamın Sarıcalı kəndlərində sakinlərin rahat yaşayışı üçün hər cür şərait yaradılıb. Hər iki kənd fasiləsiz qaz, su, elektrik enerjisi, yüksəksürətli internet xətti ilə təmin olunub. Ballıcaya və Sarıcalıya köç prosesi bundan sonra da davam etdiriləcək.

*Mahir RƏSULOĞLU,*
*XQ-nin Qarabağ müxbiri*

**Xocalı**

## Xuntaçıların məhkəməsi

# Xocalı soyqırımına Serj Sarkisyan və Arkadi Ter-Tadevosyan rəhbərlik ediblər

**Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, o cümlədən təcavüzkar müharibənin hazırlanması və aparılması, soyqırımı, müharibə qanunlarını və qaydalarını pozma, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə, hakimiyyəti zorla ələ keçirmə, onu zorla saxlama və digər çoxsaylı cinayətlər törətməkdə təqsirləndirilən Ermənistan Respublikasının vətəndaşları Arayik Harutyunyan, Arkadi Qukasyan, Bako Sahakyan, David İşxanyan, David Babayan, Levon Mnatsakanyan və digərlərinin barəsində olan cinayət işləri üzrə açıq məhkəmə prosesinin baxış iclası aprelin 21-də davam etdirilib.**



Bakı Hərbi Məhkəməsində hakimlər Zeynal Ağayevin sədrliyi ilə, Camal Ramazanovdan və Anar Rzayevdən ibarət tərkibdə (ehtiyat hakim Günel Səmədova) keçirilən məhkəmə iclasında təqsirləndirilən şəxslərin hər biri bildikləri dildə tərcüməçi, həmçinin müdafiələri üçün vəkillərlə təmin olunub.

İclasda təqsirləndirilən şəxslər, onların müdafiəçiləri, zərərçəkmiş şəxslərin bir qismi, onların hüquqi varisləri və nümayəndələri, həmçinin dövlət ittihamını müdafiə edən prokurorlar iştirak ediblər.

Hakim Zeynal Ağayev prosesdə ilk dəfə iştirak edən zərərçəkmiş şəxslərə məhkəmə heyətini, tərcüməçiləri və digərlərini təqdim edib, habelə onların qanunvericiliklə nəzərdə tutulmuş hüquqlarını və vəzifələrini izah edib.

Məhkəmə prosesində təqsirləndirilən şəxslər 1992-ci il fevralın 25-dən 26-na keçən gecə törədilmiş Xocalı soyqırımı, faciə zamanı günahsız insanların məhz azərbaycanlı olduğuna görə məqsədli şəkildə məhv edilmələri ilə bağlı dövlət ittihamını müdafiə edən prokurorların suallarına cavab veriblər.

Təqsirləndirilən şəxs Arkadi Qukasyan Baş prokurorun böyük köməkçisi Vüsal Əliyevin suallarına cavabında Xocalıda törədilənlər haqqında ilk dəfə 1992-ci ilin fevralında "rəsmi məlumatlar" verilməsi nəticəsində məlumat aldığını bildirərək deyib: "O zaman faciənin miqyasını bilmirdik. Biz bilirdik ki, Xankəndidə Xocalıdan gətirilmiş yüzlərlə azərbaycanlı var. Onlar da sonradan qarşı tərəfə təhvil verilmişdi". O, dinc əhalinin qətlini pislədiyini də vurğulayaraq qeyd edib: "Bu qəbuledilməzdir, müharibənin qanlı səhifələrindən biridir".

A.Qukasyan Xocalı soyqırımı zamanı qondarma rejimə rəhbərliyi Artur Mkrtçyanın, hərbçilərə rəhbərliyi isə Ermənistan silahlı qüvvələrində müxtəlif rəhbər vəzifələr tutmuş, "Komandos" ləqəbli Arkadi Ter-Tadevosyanın etdiyini bildirib. Əlavə edib ki, həmin vaxt yeni formalaşan "özünümüdafiə qüvvələri"nin rəhbəri Serj Sarkisyan idi. O, daha sonra deyib: "Bütün müharibələrin əleyhinəyəm. Amma bu baş verirsə, müharibə qanunları gözlənilməlidir".

Təqsirləndirilən şəxs Bako Sahakyan Baş Prokurorluğun Dövlət ittihamının müdafiəsi üzrə idarəsinin şöbə rəisi Nəsir Bayramovun suallarını cavablandırarkən Xocalı hadisələri ilə bağlı dərin və təfsilatlı məlumata malik olmadığını iddia edib. O, məhkəmədə nümayiş olunan videomateriallara və sənədlərə işarə edərək bildirib: "Bu qədər təfsilatlı bilmirdim. Amma bu, mənim mövqeyimi dəyişmir. O vaxt da, indi də bu cür hadisələri pisləyirəm".

Təqsirləndirilən şəxs Xocalı soyqırımında keçmiş sovet ordusunun 366-cı motoatıcı alayının iştirakı barədə eşitdiyini, sonradan Ermənistanın müdafiə naziri olan Seyran Ohanyanın həmin alayda xidmət etdiyini bildirib.



Təqsirləndirilən şəxs David İşxaynan dövlət ittihamçısı Vüsal Abdullayevin suallarına cavabında Xocalı soyqırımı ilə bağlı görüntülərdə yer alanların vəhşilik olduğunu deyib. O, hadisələr zamanı qondarma rejimdə "deputat" olduğunu söyləyib.

Təqsirləndirilən şəxs David Babayan isə dövlət ittihamçısı Fuad Musayevin suallarını cavablandırarkən Xocalı soyqırımı və Xocalının işğalı hadisələrinin iştirakçısı olmadığını bildirib. O deyib ki, Xocalı hadisələri zamanı məsələni güc yolu ilə həll etmək istəyənlər məqsədlərinə çatıblar. "Bu əməliyyatda müxtəlif qruplar iştirak edib", - deyə o vurğulayıb.

D.Babayan onu da deyib ki, hətta qondarma rejimdə "Xocalının azad edilməsi uğrunda" medalı "təsis" olunub.

Zərərçəkmiş şəxslərin nümayəndəsinin "Əgər Ermənistanın iddia etdiyi kimi, Xocalı soyqırımı zamanı dinc sakinlərin çıxmaları üçün dəhliz var idisə, niyə onların getməsinə imkan verilməyib, Arkadi Qukasyanın da məhkəmədə dediyi kimi, yüzlərlə azərbaycanlı Xankəndiyə aparılıb" sualına isə D.Babayan cavab verə bilməyib. Əvəzində, o, "Uşaqlara, dinc sakinlərə qarşı edilənlərə necə bəraət vermək olar?! Bu, barbarlıqdır" deyib.

Təqsirləndirilən şəxs Arayik Harutyunyan dövlət ittihamçısı Təranə Məmmədovanın suallarına cavabında Xocalı hadisələrini Birinci Qarabağ müharibəsinin ən böyük faciəsi hesab etdiyini bildirib. O, qondarma rejimdə Xocalı əməliyyatı ilə bağlı müzakirələr olmadığını iddia edib və deyib: "Məsələn, Şuşa əməliyyatı ilə bağlı bir neçə kitab yazılıb. Ona görə də bilirik ki, orada kimlər iştirak edib, necə olub. Xocalı əməliyyatı ilə bağlı isə müzakirələr aparılmayıb. O vaxt başlıca hərbi rəhbər Arkadi Ter-Tadevosyan idi. Yəqin ki, Xocalıda hərbi əməliyyatlar onun göstərişi və razılığı ilə keçirilib".

A.Harutyunyan deyib ki, istənilən halda bu, bağışlanmaz bir faciə idi.

Daha sonra məhkəmədə "Memorial" İnsan Hüquqları Mərkəzinin 1992-ci il fevralın 25-26-da Xocalı yaşayış məntəqəsinin işğalı zamanı insan hüquqlarının kütləvi şəkildə pozulması ilə bağlı hesabat sənədi tədqiq edilib.

Təşkilatın hesabat sənədində bildirilir ki, erməni hərbçiləri tərəfindən Xocalının işğal olunması ilə nəticələnən əməliyyat zamanı əhalinin kütləvi qətlləri, insan haqlarının milli zəmində pozulması halları baş verib.

"Xocalı Ermənistanın hərbçiləri tərəfindən zəbt olunduqdan sonra orada qalan mülki əhali deportasiya edildi. Bu əməllər mütəşəkkil formada həyata keçirildi", - deyə sənəddə qeyd edilib.

Sənədə görə, deportasiya olunan əhalinin əksəriyyəti Xankəndidə saxlanılıb ki, bu da qondarma rejim "hakimiyyət"inin bu barədə müvafiq əmrinin olduğunun aşkar göstəricisidir.

Dinc əhalinin kütləvi şəkildə qırılmasına heç bir halda haqq qazandırıla bilməz.

"Memorial" İnsan Hüquqları Mərkəzi təsdiq edir ki, Xocalıya hücum zamanı Ermənistanın Qarabağdakı dinc əhaliyə qarşı hərəkətləri Cenevrə konvensiyalarına, həmçinin Ümumdünya İnsan Haqları Bəyannaməsinin müvafiq maddələrinə kobud qaydada ziddir.

Məhkəmənin növbəti iclası aprelin 24-nə təyin olunub.

***XQ***

# Elmlər Akademiyası XX əsrdə tarixi zərurətdən yarandı

**(əvvəli ötən saylarımızda)**

Sonra bizə dedilər ki, hesablayıcı maşınla bağlı bir arayış yazın, Mstislav Keldışlə keçirilən görüşdə Heydər Əliyev həmin arayışdan istifadə etsin. Arayışı tez-tələsik, bir az da alayarımçıq hazırlayıb Mərkəzi Komitəyə verdik və görüşdə iştirak etmək üçün Dzerjinski adına kluba gəldik. Ürəyimiz əsirdi ki, arayışı yaxşı hazırlamadığımızı bizə irad tutacaqlar. Görüşdə Heydər Əliyev çıxış edərək Mstislav Keldışın elmi



Ümummilli lider Heydər Əliyev akademik Mirzə İbrahimova Sosialist Əməyi Qəhrəmanının medalını təqdim edərkən

fəaliyyətini o qədər aydın, dəqiq, əhatəli təhlil etdi ki, hamının marağına səbəb oldu. Heç mütəxəssis-alimlər də Keldışın elmi fəaliyyətini belə gözəl təhlil edə bilməzdi. Yalnız bunu dahilər edə bilərdi.

Heydər Əliyevin çıxışı Mstislav Keldışə o qədər xoş təsir göstərmişdi ki, görüşdən sonra o bizə dedi: “Nə qədər çətin olsa da, mən sizə “BESM-6” markalı hesablayıcı maşın təşkil edəcəyəm”. Beləliklə, Keldışın şəxsi təşəbbüsü və köməyi ilə Azərbaycan Elmlər Akademiyasına həmin hesablayıcı maşın verildi. “BESM-6” hesablayıcı maşın o zaman respublikamızda olan elmi problemlərin həllində, iqtisadiyyatın inkişafında çox böyük rol oynadı. Mstislav Keldış, eyni zamanda, SSRİ Elmlər Akademiyasında avadanlıq bölgüsü ilə məşğul olan şöbənin müdirinə tapşırıq vermişdi ki, yeni elmi avadanlıq alındıqda Azərbaycan Elmlər Akademiyasına da verilsin. Heydər Əliyevin onun haqqında çıxışından sonra Keldış ömrünün sonuna kimi Azərbaycana xüsusi diqqət göstərirdi”.

Ümumilli ider Heydər Əliyevin Azərbaycana rəhbərliyinin birinci dövründə AMEA-nın təsisçilərindən olan akademiklər Mustafa Topçubaşova (1975-ci ildə), Mirzə İbrahimova (1981-ci ildə) və Mikayıl Hüseynova (1985-ci ildə) Sosialist Əməyi Qəhrəmanı adı verilmişdir.

Heydər Əliyevin Sosialist Əməyi Qəhrəmanı adına layiq görülmüş (SSRİ Ali Soveti Rəyasət Heyətinin 14 oktyabr 1981-ci il tarixli fərmanı ilə) Xalq yazıçısı Mirzə İbrahimovun 70 illik yubileyinə həsr olunmuş təntənəli yığıncaqda demişdir: “Bədii yaradıcılığı ilə yanaşı, Mirzə İbrahimovu respublikamızda və ölkəmizdə görkəmli bir ədəbiyyatşünas, alim, tənqidçi və publisist kimi də tanıyırlar. Azərbaycan SSR Elmlər Akademiyasının həqiqi üzvü kimi bu sahələrdə onun fəaliyyəti yüksək qiymətə layiqdir”.

Ulu öndər Heydər Əliyev AMEA-nın təsisçilərindən olan Sosialist Əməyi Qəhrəmanı akademik Mustafa bəy Topçubaşovun 100 illik yubileyinə həsr olunmuş təntənəli gecədəki çıxışında isə (14 oktyabr 1995-ci il) qeyd etmişdir: “Mustafa bəy Topçubaşov nadir bir sima və nadir bir insan olmuşdur... Azərbaycan xalqının formalaşmasında, milli təfəkkürün inkişafında, xalqımızın ağır xəstəliklərdən qurtulmasında, elmimizin, təhsilimizin inkişaflarında böyük xidmətlər göstəribdir”.

## Beşinci dövrün təhlili

2005–2025-ci illəri əhatə edən son iki onillik müstəqil Azərbaycan elminin müasir intibah dövrü kimi səciyyələnir. Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmiz bütün sahələrdə olduğu kimi, elm və texnologiyalar sahəsində də yeni zirvələr fəth etmişdir. Bu mərhələdə elmin inkişafı dövlətin uzunmüddətli strategiyalarına daxil edilmişdir.

Elmi-strateji baxımdan innovasiya yönümlü iqtisadiyyat quruculuğunda elmin roluna xüsusi önəm verilmişdir. Azərbaycan alimləri artıq təkcə ölkədaxili problemlərin həlli ilə kifayətlənmir, qlobal elmi gündəmə də fəal qoşulur. Bunun bariz nümunəsi kimi, alimlərimizin beynəlxalq qrant layihələrində iştirakı, nüfuzlu elmi jurnallarda məqalələrinin artması, eləcə də AMEA-nın ilk dəfə beynəlxalq elm təşkilatlarında (məsələn, Beynəlxalq Elmi Şura və AASSA) təmsil olunması qeyd edilə bilər.

**Sosial baxımdan:** Bu dövrdə “bilik iqtisadiyyatı” konsepsiyasına uyğun olaraq elmin cəmiyyətdəki faydasını artırmaq məqsədilə startap inkubatorları, Yüksək Texnologiyalar Parkı kimi infrastruktur layihələri reallaşdırıldı, gənc ixtiraçılar və tədqiqatçılar dövlət tərəfindən təşviq edildi.

**İdeoloji cəhətdən:** Elmimiz dövlətçilik ideallarına sadiq qalaraq Qarabağ Zəfərinin tarixi-siyasi əhəmiyyətini, azərbaycançılıq məfkurəsinin elmi-nəzəri əsaslarını dərindən araşdırır və cəmiyyətə aşılayır.

**Mədəni müstəvidə:** Azərbaycanın mədəni irsinin dünyada təbliği üçün beynəlxalq



**Arif HƏŞİMOV, akademik**

simpoziumlar, “Nizami Gəncəvi İli” (2021) kimi böyük təşəbbüslər çərçivəsində aparılan araşdırmalar xalqımızın mənəvi dəyərlərinin qlobal mədəni kontekstdə tanınmasına xidmət edir. Akademik İsa Həbibbəylinin son bir ildə həyata keçirdiyi islahatlar isə elmin bu intibahını daha da sürətləndirmişdir– AMEA-nın bəzi elmi müəssisələrinin Elm və Təhsil Nazirliyi sisteminə inteqrasiyası və universitetlərlə birgə proqramların icrası, qalan institutlarda tədqiqat prioritetlərinin ölkənin yeni reallıqlarına uyğun yenidən qurulması buna misaldır.



Mikayıl Hüseynov

Xüsusilə post-münaqişə dövrünün çağırışları (işğaldan azad edilmiş ərazilərin bərpası, Böyük Qayıdış və s.) üzrə elmi konsepsiyaların hazırlanması, “Qarabağın bərpasında innovasiyalar” kimi forumların təşkili göstərir ki, elmi ictimaiyyət dövlətin yeni dövr tələblərinə adekvat cavab verir. Ümumən, beşinci dövrdə Azərbaycan elminin həm ölkə daxilində, həm də beynəlxalq aləmdə nüfuzu ciddi şəkildə artmış, elm cəmiyyət həyatının ayrılmaz tərkib hissəsinə çevrilmişdir.

AMEA-nın yeddinci onilliyinin son bir neçə ilinin AR Eim və Təhsil Nazirliyi və onun elmi-tədqiqat və ali təhsil müəssisələri ilə birgə apardıqları tədqiqatları, həyata keçirdikləri tədbirləri Azərbaycanın müasir dünyanın narahatedici qlobal problemlərinin müzakirə müstəvisinə çevrilməsində ölkəmizin intellektual səviyyəsi ilə bağlılığını təsdiqləyən amil kimi göstərmək olar. Bu o deməkdir ki, ölkənin intellektual inkişaf səviyyəsi bu tipli məsələlərin müzakirəsinə, adekvat qərarların qəbuluna imkan yaradır.

Azərbaycan yalnız COP29-un keçirildiyi fiziki məkandan əlavə, həm də burada öz intellektual potensialı, elmi elitası, ideoloji trendləri ilə də yaxından iştirak edir. Xüsusi olaraq qeyd edilməlidir ki, bu nailiyyətlər, necə deyərlər, üç-beş günə əldə edilən uğurlar deyildir. Bugünkü güclü Azərbaycanın əsası hələ neçə onillər bundan öncə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev tərəfindən qoyulmuşdur.

Bu gün biz vaxtilə ulu öndər Heydər Əliyevin xüsusi uzaqgörənliklə müəyyən-



Prezident İlham Əliyev AMEA-nın 70 illik yubileyində çıxış edərkən

ləşdirdiyi ideyaların, əsasını qoyduğu strateji hədəflərin necə reallaşdığının, həyata necə vəsiqə aldığının şahidi oluruq. Bu mənada obrazlı şəkildə belə ifadə edə bilərik ki, fiziki baxımdan, zaman etibarilə Heydər Əliyevdən uzaqlaşdıqca mənəvi və ideoloji olaraq ona bir o qədər yaxınlaşırıq. Ulu öndərin memarı olduğu Azrbaycanın uğur və nailiyyətləri, xüsusən Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin tam bərpa edilməsi qeyd edilənlərin əyani sübutdur.

COP29-da müzakirə olunan əsas məsələlərdən biri enerji istehsalı prosesinin iqlim dəyişikliyinə təsiri, iqlim dəyişikliyi şəraitində enerji təhlükəsizliyi məsələləridir. Bu da tamamilə təbiidir. Çünki bu gün bəşəriyyətin qarşılaşdığı ekoloji problemlərin bir çoxunun bəşəriyyətin enerji tələbatının ödə-



Akdemik Mustafa bəy Topçubaşov

nilməsi zərurətindən doğduğu, gələcəkdə bu tələbatın daha da artacağı hamıya bəllidir. Ona görə də COP29-da qlobal təhlükəsizliyi təmin edən enerji mənbələrindən istifadənin vacibliyi diqqətə çatdırıldı, qərarlar qəbul olundu və aidiyyəti sazişlər imzalandı.

Təqdirəlayiq haldır ki, artıq ərazi bütövlüyünü və suverenliyini tam bərpa etmiş respublikamız iqtisadi inkişafının yeni prioritetlərini müəyyənləşdirmişdir. Bunun da əsasında dayanan ən mühüm amillərdən biri düzgün müəyyənləşdirilmiş enerji siyasətidir. Müasir reallıqlar şəraitində bu siyasətin əsasında isə bəşəriyyətin təbii ehtiyaclarını biosferin təbii imkanları ilə uyğunlaşdırmaq prinsipi dayanır. Belə yanaşma yalnız təbiət elmlərini deyil, təbiət elmləri ilə ictimai və humanitar elmlərin qarşılıqlı əlaqələrinin zəruriliyini ortaya qoyur.

Bəşəriyyətin tarixən yaratmış olduğu bir sıra sosial institutların, müxtəlif mədəniyyətlərin, mənəvi təlimlərin humanitar resursları indi əvvəlki dövrlərdə olduğundan daha çox səfərbərliyə cəlb edilir, onların mədəni energetik potensialından müasir yaşam meyarlarının tənzimlənməsi üçün müxtəlif humanitar alətlərlə istifadəyə daha intensiv və məqsədyönlü cəhdlər edilir. Məhz bunun təzahürüdür ki, dünya humanitar elitasını hər il Bakıya toplayan Azərbaycan bu proseslərdə öncül dövlətlərdən biri kimi fəal iştirak edir. Bakıda keçirilən COP29 bunun ən bariz nümunəsidir.

COP29-dan belə bir fəlsəfi qənaət hasil oldu ki, yaşıl sivilizasiya yaşıl təfəkkürdən doğmalıdır. Onu isə bütün planet miqyasında normativləşdirməyə məsul olan ictimai və humanitar elmlərdir. İndi dünyanın inkişaf etmiş ölkələrində irimiqyaslı texnoloji layihələr həyata keçirilərkən həmişə açıq ifadə edərək belə bir nəticəyə gəliblər ki, baş vermiş strateji problemlərin həlli sosial tədqiqatların rolunun əhəmiyyətli dərəcədə artırılmasını tələb edir.

İlk növbədə, fəlsəfənin rolu artmalıdır. Fəlsəfə müasir texniki elmlərin ayrı-ayrı istiqamətlərinə bilavasitə nüfuz edlir. Amerika alimləri texnoloji inkişafda sosial biliklərin iştirakını vacib hesab edirlər. Onların fikrincə, sosial elmlər texniki elmlərdə ekspert qismində çıxış etməlidilər. Avropa alimləri isə hesab edirlər ki, sosial elmlər texnoloji tərəqqidə əsas təsiredici amil kimi çıxış etməlidir. Bu proseslərdə sosial elmlər strateji rol oynamalıdır. Burada sosial elmlərin, xüsusilə fəlsəfənin texnoloji və elmi proseslərə nəzəri çərçivə verməsi ideyası təsdiqlənir.

Beləliklə, iqlim dəyişikliyi kontekstində bəşəriyyətin gələcək rifahı və firavanlığı bilavasitə bu sahədə optimal modellərin tapılmasından və tətbiqindən asılı olacaqdır. Bu istiqamətdə Azərbaycanda həyata keçirilən çoxistiqamətli tədbirlər, dövlətin bu sahəyə olan xüsusi diqqət və qayğısı onu deməyə əsas verir ki, Azərbaycan da bu proseslərdə dünyanın öncül dövlətlərindən biridir. Bu fikir, Azərbaycanın yalnız resurslarla deyil, həm də intellektual və normativ töhfələrlə iştirak etdiyini göstərir.

**“AMEA və COP29”:** Elm sferasında COP29 kimi qlobal miqyaslı bir tədbirdə fəal iştirak etməyimiz Azərbaycanın elm və diplomatiya sintezinin gücünü nümayiş etdirdi. Bu hadisə Azərbaycan alimlərinin iqlim dəyişikliyi və davamlı inkişaf problemlərinin həllinə real töhfə vermək iqtidarında olduğunu göstərdi. Belə nüfuzlu beynəlxalq platformada AMEA rəhbərliyinin–xüsusən, akademik İsa Həbibbəylinin fəal mövqeyi diqqət çəkir. O, öz geniş erudisiyası və strateji təfəkkürü ilə alimlərimizin dünya elminə inteqrasiyasını təşviq edərək elm diplomatiyasının əhəmiyyətini ön plana çıxardı. Artıq elmimiz qlobal problemlərin həllində müşahidəçi deyil, təşəbbüskar və icraçıdır. Bu isə həm dövlətin ideoloji xəttinə uyğundur (Azərbaycanın beynəlxalq arenada fəal rol oynaması), həm də cəmiyyətin elmə inamını daha da gücləndirən mühüm amildir.

Məqalədə AMEA-nın keçdiyi 80 illik tarixi yolun bir hissəsinin bəzi əlamətdar hadisələrinə toxunuldu və əldə edilən nailiyyətlərin bir qismi, qısa şəkildə də olsa, göstərildi. Bu retrospektiv baxış, Azərbaycan elminin tarixinə qısa ekskurs, ötən dövr ərzində akademik elmin təşkili üçün əsaslı bünövrənin qoyulduğunu nümayiş etdirdi.

80 il insan həyatı üçün müəyyən qədər çox sayılsa da, metaforik müqayisədə elmi inkişaf və tərəqqi baxımından bu, hələ başlanğıcdır: AMEA-nın misalında isə gözəl bir başlanğıcdır. AMEA və bütövlükdə, Azərbaycan elmi çağırışlar qarşısında, bugünkü reallıqlara uyğun düzgün, layiqli həllər təklif edə biləcək bir fəaliyyəti həyata keçirmək üçün hərtərəfi yenilənmə və islahatlar dövrünü yaşamaqdadır. Qeyd edilən fikri nəzərə aldıqda, həqiqətən, bizim akademiyanın yaşlı olmadığını qətiyyətlə deyə bilərik.

Bu xüsusda “525-ci qəzet”də (14 mart 2025-ci il) Xalq yazıçısı Anarın dahi Azərbaycan şairi və mütəfəkkiri Məhəmməd Füzulinin gənclik illərinin portretinin yaradılmasının vacibliyi haqqında dediyi sözlərə nəzər salaq: “Məhəmməd Füzulinin ancaq yaşlı vaxtının rəsmləri var, ancaq Füzulini gənc yaşında da çəkmək lazımdır axı. Əgər “Tutuşdu qəm oduna şad gördüğün könlüm, Müqəyyəd oldu ol azad gördügün könlüm” misraları yaşlı Füzulinin şeiri kimi normal qəbul edilir və çəkilmiş rəsmləri ilə uyğunluq təşkil edirsə, “Dəhənin dərdimə dərman dedilər cananın, Bildilər dərdimi, yoxdur dedilər dərmanın” beytini qoca kişi deməz, gənc Məhəmməd Füzuli deyər”.

Akademiyamızın keçmişi ilə birlikdə bugününün qiymətləndirilməsi ilə yanaşı, onun gələcəyinin əks etdirilməsi də məqsədəuyğun olardı. Deyə bilərik ki, Azərbaycan xalqının elmi və ictimai fikir tarixinin, ümumən, sosial-mədəni tərəqqisinin inkişafında əhəmiyyətli rolu olan akademiyanın da “gənclik portreti” onun parlaq gələcəyinin rəsmidir. Bu rəsmi çəkmək isə AMEA-nın ümumi fəaliyyətinin müasir dünyanın çağırışlarına, Azərbaycanda dövlət siyasətinin sosial-iqtisadi, mədəni-mənəvi və ideoloji prioritetlərinə, Azərbaycan Milli Elmlər Akademiyasının Nizamnaməsində müəyyən edilmiş yeni məqsəd, fəaliyyət istiqamətləri və vəzifələrə uyğunlaşdırılması yolu ilə mümkündür.

Təsadüfi deyil ki, Prezident İlham Əliyevin rəhbərliyi altında xalqımızın qarşıda duran strateji hədəflərə doğru inamla irəlilədiyi, ərazi bütövlüyümüzün və suverenliyimizin tam bərpa olunduğu hazırkı şəraitdə cənab Prezidentin xüsusi diqqət və qayğısı nəticəsində AMEA yeni inkişaf mərhələsinə qədəm qoymuşdur.

Hazırda özünün yeniləşmə dövrünü yaşayan Azərbaycan Milli Elmlər Akademiyası Azərbaycan Respublikasının elm sahəsində müəyyən etdiyi vəzifələri həyata keçirmək istiqamətində genişmiqyaslı islahatlar apararaq, yenidən qurulur və inkişaf edir. Bu məqsədyönlü işlər gələcək inkişaf üçün əsaslı şəraitin formalaşmasına tam əminlik yaradır.

Dövlət başçısı İlham Əliyevin 28 dekabr 2024-cü il tarixli “Azərbaycan Respublikasında 2025-ci ilin “Konstitusiya və Suverenlik İli” elan edilməsi haqqında” sərəncamında əksini tapan “Azərbaycan Respublikasının xalqımızın milli maraqlarını rəhbər tutaraq yeni reallıqlar şəraitində müstəqil siyasətini daha cəsarətlə, prinsipiallıqla davam etdirməsi, Konstitusiyanın tələblərinə və öz suveren hüquqlarına əsaslanaraq, qarşıda duran strateji hədəflərə doğru inamla irəliləməsi” haqqında bugünün çağırışına əsaslanaraq, eyni zamanda, COP29-da Prezident İlham Əliyevin öz çıxışında göstərdiyi kimi, “Azərbaycan artıq öz inkişafının yeni səviyyəsinə yüksələrək qlobal rəqabət mühitinin azsaylı əsas tərəflərindən birinə çevrilmişdir” tezisini nəzərə alan AMEA gələcək fəaliyyət strategiyasını müəyyənləşdirir.

AMEA-nın Ümumi Yığıncağının 20 fevral 2025-ci il tarixli 1/2 nömrəli qərarı ilə təsdiqlənən “AMEA-nın 2025–2030-cu illər üzrə İnkişaf Konsepsiyası və “Yol Xəritəsi”ndə “dünya elminin yeni çağırışlarına uyğun olaraq süni intellekt, rəqəmsal və ağıllı texnologiyaların humanitar və ictimai elm sahələrinə transformasiya edilməsi, ümumbəşəri dəyərlərin bərqərar edilməsi, qlobal problemlərin həlli istiqamətində tədqiqatların gücləndirilməsi ilə dünya elminə layiqli töhfələrin verilməsi – akademiyanın ümumbəşəri dəyərlərə xidmət edən elm mərkəzinə çevrilməsi” AMEA-nın əsas prioritetlərindən biri kimi müəyyənləşdirilmişdir

Ümumilli lider Heydər Əliyevin “Azərbaycanın Sovet dövründə inkişafının ən bariz nəticəsi odur ki, həmin dövrdə yaranmış iqtisadi, elmi-texniki və mədəni potensial respublikamızın tam müstəqil dövlət kimi fəaliyyət göstərməsi üçün möhkəm zəmin yaratmışdır” tezisi və Prezident İlham Əliyevin 18 mart 2025-cü il tarixli Azərbaycan Milli Elmlər Akademiyasının 80 illiyinin qeyd edilməsi ilə bağlı sərəncamı Azərbaycan Milli Elmlər Akademiyasının və onun üzvlərinin XX əsrin 55 və XXI əsrin 25 ilini əhatə edən fəaliyyətinə verilən tarixi bir qiymət olmaqla yanaşı, gələcəyə ünvanlanmış yeni bir yolun məqsəd və vəzifələrini müəyyənləşdirməyi qarşıya qoyan çağırış kimi də qəbul edilməlidir.

# Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva Vyetnamda











**Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva Vyetnama səfəri çərçivəsində aprelin 21-də bir sıra görüşlər keçirib. Hanoy Ticarət və Turizm Kollecində Leyla Əliyeva yaradıcı sənaye nümayəndələri və təhsil müəssisələrinin liderləri, eləcə də sovet dövründə Azərbaycanda təhsil almış vyetnamlı məzunlar ilə görüşüb.**




Görüşdə bildirilib ki, 1965-ci ildən fəaliyyət göstərən Hanoy Ticarət və Turizm Kolleci bu sahədə Vyetnamın ən böyük və nüfuzlu təhsil müəssisələrindən biridir. Təxminən 3000 tələbəsi olan kollecin müxtəlif akademik və peşə təhsilinin səviyyələri üzrə 50-dən çox təlim proqramı var.

Eyni zamanda, Azərbaycan Respublikası ilə Vyetnam Sosialist Respublikası arasında müxtəlif sahələrdə mövcud əlaqələr, iki xalq arasındakı möhkəm dostluq münasibətləri, bu əlaqələrin qurulmasında ümummilli lider Heydər Əliyevin müstəsna xidmətləri vurğulanıb.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2014-cü ildə Vyetnama dövlət səfərinin ölkələr arasında münasibətlərdə yeni səhifə açdığı vurğulanıb. Mövcud əlaqələrin genişlənməsinə Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu tərəfindən həyata keçirilən layihələrin öz töhfəsini verdiyi qeyd olunub. Fondun təhsil və sosial yönümlü layihələrinin Vyetnamı da əhatə etdiyi diqqətə çatdırılıb. Bu istiqamətdə Vyetnamın Ha Giang əyalətində Heydər Əliyev Fondunun dəstəyi ilə ibtidai məktəbin inşa edildiyi xatırladılıb.

Görüş zamanı ikitərəfli münasibətlərə, ümummilli lider Heydər Əliyevin iki ölkənin və xalqın dostluğu istiqamətindəki töhfələrə, hazırda Azərbaycan-Vyetnam yüksəksəviyyəli əlaqələrinə dair fikir mübadiləsi aparılıb. Mövcud münasibətlərin daha da genişləndirilməsi, bu çərçivədə Heydər Əliyev Fondu tərəfindən təhsil və sosial sahələrdə həyata keçiriləcək layihələr müzakirə edilib.

Ticarət və Turizm Kollecində, həmçinin 1968-1990-cı illərdə Azərbaycanın müxtəlif ali təhsil müəssisələrində təhsil almış vyetnamlı məzunlarla görüş keçirilib. İki ölkə arasında dostluq münasibətlərinin formalaşmasında Azərbaycanda təhsil almış vyetnamlı məzunların xüsusi rol oynadıqları diqqətə çatdırılıb. Bildirilib ki, məhz Heydər Əliyevin 1983-cü ildə Vyetnama səfərindən sonra Azərbaycanda təhsil alan vyetnamlı tələbələrin sayı artıb. Sovet dönəmində Azərbaycanda 5 minədək vyetnamlı təhsil alıb. Görüşdə Hanoy Ticarət və Turizm Kollecinə Heydər Əliyev Fondunun maliyyə dəstəyi sertifikatı təqdim edilib.

Daha sonra Dünya Barbekü Assosiasiyasının vitse-prezidenti, tanınmış aşpaz David İsrafilov tərəfindən Azərbaycan mətbəxinin nümunələrinin təqdimatı olub.

## Görmə qabiliyyəti zəif uşaqlar məktəbində

**Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva Vyetnama səfəri çərçivəsində Hanoyda Nguyen Dinh Chieu orta məktəbində olub. Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva məktəbdə yaradılan tədris şəraiti ilə tanış olub.**

Burada keçirilmiş görüşdə Fondun ölkəmizdə görmə qabiliyyəti məhdud şəxslərin cəmiyyətə inteqrasiyası və inklüziv təhsil sahəsindəki layihələri barədə məlumat verilib. Heydər Əliyev Fondu və BMT-nin İnkişaf Proqramı arasında görmə qabiliyyətini itirmiş və görmə qabiliyyəti zəif olan insanlar üçün informasiya-kommunikasiya texnologiyalarına çıxışın təmin edilməsinə dair əməkdaşlıq sazişinin imzalandığı, bu layihənin görmə qabiliyyəti məhdud insanların cəmiyyətə inteqrasiyasına, informasiya-kommunikasiya vasitələri ilə bilik, məlumat əldə etmək imkanlarının genişləndirilməsinə yönəldiyi qeyd edilib. Görmə qabiliyyəti məhdud uşaqlar üçün Heydər Əliyev Fondunun təşəbbüsü əsasında xüsusi internat məktəbinin nəzdində mətbəə yaradıldığı, burada Brayl əlifbası ilə dərslik və dərs vəsaitlərinin çap olunduğu bildirilib.

Leyla Əliyeva inklüziv təhsilə dəstək çərçivəsində Vyetnamdakı görmə qabiliyyəti məhdud şəxslər üçün orta məktəbə Heydər Əliyev Fondunun maliyyə dəstəyi sertifikatını təqdim edib. Eyni zamanda, diqqətə çatdırılıb ki, Heydər Əliyev Fondu tərəfindən məktəbə görmə qabiliyyəti məhdud uşaqların təhsilinə dəstək məqsədilə bir sıra avadanlıqlar hədiyyə olunacaq.

Qeyd edək ki, 1982-ci ildən fəaliyyət göstərən məktəb görmə qabiliyyəti məhdud uşaqlar üçün nəzərdə tutulub. 1988-ci ildən isə sözügedən məktəbdə görmə qabiliyyəti olan şəxslər də təhsil ala bilirlər. Məktəbdə hazırda 1800 şagird, o cümlədən 145 görmə qabiliyyəti məhdud şəxs təhsil alır.

Müəllim heyəti akademik fənlərin tədrisi ilə yanaşı, həm də inklüziv təhsil modelinin inkişafı ilə məşğul olur. Burada inklüziv təhsil üçün geniş sistem qurulub. Məktəbin missiyası bərabər keyfiyyətli təhsil imkanlarını təmin, müstəqilliyi və cəmiyyətə inteqrasiyanı təşviq etməkdir.

# Heydər Əliyev Sarayında “Zoluşka” operasının təqdimatı

**Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva aprelin 19-da Heydər Əliyev Sarayında dünyada məşhur 200 nəfərlik "Qelikon-opera" Moskva Musiqili Teatrının quruluşunda "Zoluşka” operasının təqdimatında iştirak edib.**





Azərbaycan bəstəkarı Leonid Vaynşteynin "Qelikon-opera" teatrının tamaşası hər bir balaca şahzadənin görməli olduğu səhnə əsəridir. Dahi Qara Qarayevin tələbəsi olmuş Leonid Vaynşteynin musiqisi parlaq və yaddaqalandır. Heydər Əliyev Sarayının səhnəsində təqdim olunan operaya dirijorluğu Xalq artisti Yalçın Adıgözəlov edib.

Tamaşanın təqdimatında TASS informasiya agentliyi baş direktorunun birinci müavini Mixail Qusman, tanınmış teatr və kino rejissoru, teleaparıcı, aktyor, ictimai və siyasi xadim Yuli Qusman, azərbaycanlı bəstəkar Leonid Vaynşteynin oğlu - NTV telekanalının baş direktorunun müavini - baş prodüseri Timur Vaynşteyn və ailə üzvləri, Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının rektoru, Xalq artisti Fərhad Bədəlbəyli və ictimai-siyasi xadimlər iştirak ediblər.

Qeyd edək ki, “Zoluşka”nın premyerası 1985-ci ildə Bakıda, Azərbaycan Akademik Opera və Balet Teatrının səhnəsində keçib. 35 ildən sonra maraqlı sehrbazlıq və şəkildən-şəklə çevrilmələr irimiqyaslı dekorasiyalar və müasir holoqrafiyalı texnologiyanın köməyi ilə yaradılıb.

Əsər Şarl Perronun məşhur “Zoluşka”sına əsaslanan, möcüzələr, dönüşmə prosesi və əsl sehrlə dolu, ən müasir teatrlardan birində qüsursuz şəkildə təcəssüm olunmuş, Moskvadakı holoqrafik texnologiyaların və müasir səhnələrin köməyi ilə tamaşaçılara təqdim olunan mehriban musiqili nağıldır.

Heyrətamiz transformasiyalar və sehr genişmiqyaslı dekorasiyalar və müasir holoqrafik texnologiyaların müşayiəti ilə əfsanəvi nağıl əsasında yazılmış opera heç bir tamaşaçını biganə qoymadı. Süjet xəttinə əsasən operada xeyir və gözəllik şər və paxıllığa qalib gəlir.

Tamaşa ərzində qonaqpərvər Nağılbaz bütün yaşlarda olan tamaşaçıları maraqlı oyuna cəlb edib. Tamaşaçılar balqabağın möcüzəli şəkildə faytona, siçanların gözəl atlara, Zoluşkanın Şahzadə xanıma çevriləcəyinin şahidi oldular. Bundan əlavə, teatrda qonaq olan qızlara büllur ayaqqabını geyinmək nəsib oldu.

Tamaşanın rejissoru İlya İlyin, bədii rəhbəri isə Dmitri Bertmandır.

Opera tamaşaçılar tərəfindən böyük maraqla qarşılanıb.

*XQ*

# “Erməni soyqırımı”: uydurmalar və gerçəklər

## *110 illik yalanın, böhtanın mahiyyəti və hədəfi*

*Musa QASIMLI,*
*AMEA-nın müxbir üzvü, professor*



(əvvəli ötən sayımızda)

### Ermənilərlə çarizmin fikir ayrılığı

Rus ordusunun işğal etdiyi ərazilərdə ermənilərin yerləşdirilməsi məsələsində erməni təşkilatları, kilsəsi ilə rus hakimiyyət orqanları arasında ciddi fikir ayrılığı var idi. Ermənilərin həmin ərazilərdə yerləşmək arzusu komandanlığın etirazına səbəb oldu. Qafqaz ordusu komandanı general Nikolay Yudeniç 1915-ci il aprelin 5-də Qafqaz canişininə göndərdiyi 1482 №li məktubunda yazırdı ki, ermənilər türklərin və kürdlərin qoyub getdikləri ərazilərə yerləşdirilmələrini təklif edirlər. Bu təklifi qəbulolunmaz hesab edən general vurğulayırdı ki, çünki ermənilərin ələ keçirdikləri torpaqları müharibədən sonra geri almaq və bu ərazilərin onlara məxsus olmadığını sübut etmək çətin olacaqdır. N.Yudeniç yazırdı ki, buna misal olaraq 1877-1878-ci illər rus-türk müharibəsindən sonra ermənilərin ələ keçirdikləri əraziləri göstərmək olar.

Bütün bunları nəzərə alaraq o, sərhəd ərazilərində daha çox rus maraqlarına cavab verən üsulların həyata keçirilməsini, işğal edilmiş ərazilərdən türklərin və kürdlərin çıxarılmasını, Kuban və Dondan olan adamları, sərhədçi kazakları yerləşdirməyi təklif edirdi. Eyni zamanda qeyd edirdi ki, həmin ərazilərə adamların yerləşdirilməsinə müharibə sona çatdıqdan sonra başlamaq olar. Onun fikrincə, Ələşkird və Bəyazid əraziləri Rostov və Dondan gələnlərlə doldurulmalı idi. Burada fəhlə artelləri yaradıla və onlara silah da verilə bilərdi. Cavabında general N.Yudeniçlə razılaşan Qafqaz canişini bildirdi ki, erməniər işğal edilmiş ərazilərə erməniləri buraxmayan rus əsgərlərinə atəş açmışlar.

Bu hadisə bir daha göstərdi ki, ermənilər istənilən an Rusiyaya qarşı silah çevirə bilərlər.

### Katolikosun İtaliya və ABŞ-a müraciəti

Çarizm erməni istəklərini məharətlə istismar etməyə başladı. Katolikos V Gevorq imperiya orqanlarının tövsiyəsi ilə İtaliya kralına və ABŞ prezidentinə müraciət etdi. 1915-ci il aprelin 7-də isə o, S.Sazonova və İ.Vorontsov-Daşkova teleqram göndərərək ermənilərin fəaliyyətlərini müdafiə etmələrini istədi. Qeyd etmək lazımdır ki, bu zaman türk hökuməti hələ təhlükəsizlik tədbirləri görməmişdi.

Qafqaz canişininin köməkçisi Mışlyayevski 1915-ci il 14/4 aprel tarixli 386 №li teleqramında S.Sazonova bu barədə məlumat verdi. S.Sazonov 1818 №li teleqramı ilə Rusiyanın Romadakı və Vaşinqtondakı səfirlərinə katolikosun müraciətini müdafiə etmək tapşırığını verdi. İ.Vorontsov-Daşkov da müvafiq tədbirləri gördüyünü bildirdi. Əvvəllər Osmanlıda diplomat olmuş, Erməni Xeyriyyə Cəmiyyətini qurmuş, müharibə başlayanda Osmanlıya xəyanət edərək Rusiya ilə əməkdaşlıq etmiş Poqos Nubar Paşa Misirdən katolikos V Gevorqa teleqram göndərərək Paris və Londona gedib həmin məsələ ilə məşğul olacağı barədə məlumat verdi.



Amerikadan gələn ermənilər (1915-ci il)

Antanta ölkələri də “erməni məsələsi”ni yenidən gündəliyə gətirdilər. 1915-ci il aprelin 15-də ingilis parlamentində liberal deputat, Erməni-Britaniya komitəsinin sədri Vilyamın Ermənistanın gələcək taleyi barədə hökumətə verdiyi sorğuda yazılırdı: “Müharibə başa çatdıqdan sonra Böyük Britaniya hökuməti Kiçik Asiyanın bir hissəsində məskunlaşan erməni xalqına muxtariyyət verilməsi üçün tədbirlərə çalışırmı? Belə vədi rus hökuməti Polşaya vermişdi”.

Xarici İşlər Nazirliyinin katibi cavabında bildirdi ki, qoy Erməni-Britaniya komitəsinin hörmətli sədri arxayın olsun, Böyük Britaniya hökuməti Türkiyənin Asiya hissəsində yaşayan ermənilərin vəziyyətini izləyir və onların mənafelərini qoruyacaqdır, lakin indidən gələcəkdə hansısa tədbirlərin görüləcəyi barədə danışmaq çətindir.

### Vanda qətliam

Aprel ayının ortalarında erməni elementi Vanda qiyam qaldıraraq çoxlu dinc türk və müsəlman əhalini qətlə yetirdi. O vaxta qədər ermənilərə loyal münasibət bəsləyən türk hökuməti tədbirlər almağa məcbur oldu. “A.O” imzalı müxbirin Vandan verdiyi və "Baku" qəzetinin 1915-ci il 29 aprel tarixli sayında çap edilmiş məlumatında yazılırdı ki, aprelə qədər ermənilərlə türklər arasında münasibət loyal idi. Lakin sonradan türklər və kürdlər erməniləri ruslarla əlaqəyə girməkdə və xəyanətkarlıqda təqsirləndirdilər. Vanda 10 mindən yuxarı erməni fərari gizlənmişdi, onlar rus ordusunun hücumunu gözləyir və bu ordunun tərəfinə keçməyə hazır idilər.

### Qərargah İrəvana köçürülür

Rusiya hakimiyyəti 1915-ci il aprelin 12-15-də erməni dəstələrinin qərargahını Tiflisdən İrəvana köçürdü. Tiflisdə bu qərargahın yalnız bölməsi qaldı. Erməni “könüllü drujinaları”nın qərargahı İrəvan şəhərində Çarsk küçəsində Tatevosovun evi №48-də yerləşirdi. Qərargahın rəhbəri Abram və Qayk Gülxəndaryan qardaşları idi. Ona pivə zavodunun direktoru Artuş Avetov, Petros Karabaxski, Mıkırtıç, Movses, Vartkes, Şuşa qəza sakini Kostn Amayans daxil idilər. Qərargahda əsas sima Abram Gülxəndaryan idi. İqdırda erməni drujinalarının təşkili işinə Tiqran Devoyans rəhbərlik edirdi.

### Osmanlı dövlətinin təhlükəsizlik tədbirləri

Bir neçə cəbhədə hərbi əməliyyatlar aparan Osmanlı dövlətini arxadan vuran erməni elementinin xəyanətkarlığı türk hökumətini təhülkəsizlik tədbirləri görməyə məcbur etdi. 1915-ci il aprelin 24-də erməni komitələrinin fəaliyyəti qadağan olundu. İstanbulda yaşayan 77 min 835 nəfər ermənidən Daşnaksütyun, Qnçak və Ramkavar partiyalarının 235, bütün ölkə üzrə isə təxminən 2 min 235 nəfər üzvü həbs edildi. Təhlükəsizlik tədbirlərinin alınmasına Almaniya hökumətinin də təsiri olmamış deyildi. Lakin bu barədə mətbuatda məlumat yayıldıqda Osmanlı hökuməti heç bir, hətta dostu və müttəfiqi olan heç bir ölkənin hər hansı bir formada onun daxili işlərinə qarışmasını inkar etdi.

### Rusiya, İngiltərə və Fransanın bəyanatı

Erməni terror-siyasi təşkilatlarının istəklərinin diplomatik-siyasi səviyyədə müzakirəsini çar Rusiyası istiqamətləndirdi. S.Sazonov 1915-ci il 25/12 aprel tarixli 1876 №li teleqramında Parisdəki və Londondakı səfirlər Aleksandr İzvolskiyə və Aleksandr Benkendorfa ermənilərin əzişdirilməsində Osmanlı dövlətinin məsuliyyətinə dair Fransa və İngiltərədə birgə bəyanat verməyi və şəxsi məsuliyyəti türk mülki və hərbi şəxslərinin üzərinə qoymağı tövsiyə etdi. Əgər ingilis və fransız hökumələri razı olardısa, bəyanatın mətnini eyni gündə üç ölkədə çap etmək məqsədəuyğun sayıldı. A.İzvolski Fransanın xarici işlər naziri Teofil Delkasse ilə görüşdü. O, çar hökumətinin belə bir təklifini bəyəndi. Bununla bağlı olaraq A.İzvolski 1915-ci il 27/14 aprel tarixli 243 №li teleqramında yazırdı:

“Teofil Delkasse bu təklifi bəyəndi, bəyanatın mətnini hazırlamaq üçün London ilə əlaqə quracağına söz verdi.” A.Benkendorf aprelin 30/17-də İngiltərənin xarici işlər naziri Edvard Qrey ilə görüşdü. Məsələyə münasibət bildirən E.Qrey katolikosun İtaliya və ABŞ hökumətlərinə müraciətinə cavabı gözləməyi tövsiyə etdi.

İmperiya hakimiyyəti ermənilər üzərində təsirlərinin arta biləcəyindən narahat olaraq belə bir bəyanatın İngiltərə və Fransa tərəfindən hazırlanmasını arzuolunan hesab etmirdi. S.Sazonov 1915-ci il 10 may/27 aprel tarixli 2155 №li teleqramı ilə A.İzvolskiyə və A.Benkerdorfa həmin bəyanatın mətnini göndərdi. Bəyanatda yazılırdı:

“Təxminən bir ay müddətində kürd və türk əhalisi Türkiyə hakimiyyətinin köməyi ilə erməniləri qırır. Xristianlığa və sivilizasiyaya qarşı bu yeni cinayətlər üçün məsuliyyət türk hökumətinin üzərinə düşür.”

S.D.Sazonov səfirlərə göndərdiyi 2156 №li teleqramında yazırdı ki, bu mətn razılaşdırılardısa, eyni gündə Paris, London və Petroqradda çap edilməli idi. Lakin T.Delkasse Fransanın himayəsində olan müsəlmanların hisslərini təhqir etməkdən çəkinərək “xristianlığa və sivilizasiyaya qarşı” ifadələrini "bəşəriyyətə və sivilizasiyaya qarşı” kimi yazılmasını təklif etdi. Rusiya həmin təklifin əleyhinə çıxmadı.

A.Benkendorf İngiltərənin xarici işlər nazirinin müavini Artur Nikolsonla da görüşdü. O, baş verən hadisələr barədə məlumatlarının olmadığını bildirdi. Görüşlər haqqında A.Benkendorf 12 may/29 aprel tarixli 333 №li teleqramında S.Sazonova yazırdı:

“Nikolsonun mövqeyinə görə, hadisələr barədə ingilis hökumətinin məlumatı yoxdur. Əgər fransız məlumatı təsdiq olunarsa, Türkiyə bu hadisələrdə sübut tapacaqdır ki, ermənilər açıq üsyana qalxmışlar.”

A.Nikolsona cavab olaraq A.Benkendorf belə söyləmişdi: “...görünür, qanlı təxribatdan başqa onların bir çıxış yolu qalmamışdır və iş türklər haqqında getdiyindən belə dəlillər fikrimizcə, hər cür əhəmiyyətini itirir. Belə bir bəyanatın verilməsi ermənilərin ruhunu yüksəldəcək və gələcəkdə lazım olacaqdır.” Bundan sonra A.Nikolson mövqeyində israr etməmişdi. Görüşlər barədə məlumatlarla tanış olan S. Sazonov 1915-ci il 15/12 may tarixli 2247 №li teleqramında A.Benkendorfa bildirdi:

“Sizin Nikolsona cavabınızı tamamilə bəyənirəm. Şübhə yoxdur ki, ermənilərin Vandakı üsyanına səbəb qırğın olmuşdur, əksinə, ona görə yox ki, bizim ordular gələnədək ermənilərin qüvvəcə üstün olan kürdlərə və türklərə qarşı hərəkəti başlamalarının mənası yox idi. Portoya (Osmanlı hökuməti nəzərdə tutulur – M.Q.) qarşı birgə bəyanatın eyni vaxtda elan edilməsini və istəyinizi, hətta əgər ona lazımi təsir etməsə də, akkreditə olunduğunuz hökumətə göstərməyinizi xahiş edirik, hər halda ermənilərin ruhunu yüksəldəcəkdir, bu, türklərə qarşı mübarizədə bizə sərfəli olacaqdır.”



Vana hücum ərəfəsində (1915-ci il)

S.Sazonov bu sözləri ilə, əslində, bəyanatların əsası olmadığını, Osmanlıya təsir etməyəcəyini etiraf edir, lakin ermənilərin ruhunu yüksəltmək adı altında onlardan vasitə kimi məharətlə istifadə edirdi.

1915-ci il 20/7 may tarixində S.Sazonov A.İzvolskiyə göndərdiyi 2324 №li teleqramında E.Qreyin “Türkiyədəki ermənilərin qırılmasına” dair Portoya edilən müraciətin mətnini bəyəndiyini bildirdi. A.Benkendorf xarici işlər naziri E.Qreyin Vanda baş verən hadisələrə və bəyanata münasibəti barədə S.Sazonova 1915-ci il 20/7 may tarixli 352 №li teleqramında yazdı. O, E.Qreyə bildirmişdi ki, Vanda üsyan faktı təsəvvür kimi deyil, şübhəsiz, qırğınlarla müşahidə olunub. A.Benkendorfun yazdığına görə, bundan sonra E.Qrey etiraz etməmişdi. Lakin E.Qrey türk hökumətinə üç dövlətin birgə müraciət etməsinin əleyhinə çıxaraq “Rusiyanın tək çıxış etməsi kifayət etməzmi” sualını verdikdə A.Benkendorf bu məsələnin Rusiya üçün həmişə açıq qalacağını, gələcəkdə həmin təklifin mümkün olacağını, lakin indiki halda üç dövlətin açıq şəkildə türklərin hərəkətlərini pisləməsinin ermənilər üçün mənəvi cəhətdən əhəmiyyətsiz olmayacağını söyləmişdi.

Beləliklə, guya türklərin və kürdlərin erməniləri əzişdirmələrinə, məsuliyyəti Portonun, bu hadisələrlə bağlılığı olan mülki və hərbi şəxslərin üzərinə qoyan əsassız bəyanat 1915-ci il mayın 24-də üç ölkənin paytaxtında verildi.

### Daşnaksütyunun müraciətləri

Bundan sonra Daşnaksütyun Osmanlı əleyhinə fəaliyyətini daha da genişləndirdi. 1915-ci ildə Amerikada Daşnaksütyunun Mərkəzi Komitəsi ermənilərin təqib edilməsi ilə əlaqədar olaraq Amerika ermənilərinə müraciət edərək mənəvi və maddi yardım etməyə çağırdı.

Daşnaksütyunun xarici əlaqələr üzrə rəhbəri Yakov Zavriyev 1915-ci ilin may ayında Rusiyanın Londondakı və Parisdəki səfirləri A.Benkendorfa və A.İzvolskiyə göndərdiyi yaddaş qeydində müharibənin ilk günlərindən Rusiya ermənilərinin Türkiyənin müharibəyə qoşulmasını istədiklərini vurğuladı. O, ermənilərin “erməni məsələsi”nin gündəliyə qoyulacağına və qəti həll ediləcəyinə inandıqlarını, öz hesablarına və hökümətin bəzi maliyyələşdirilməsi ilə 5 min nəfərə çatan “könüllü dəstə” təşkil etdiklərini yazdı. Silah çatışmadığından dəstələrin sayının artırılmadığını qeyd edən Y.Zavriyev bu sayda “könüllünün” təşkil edilməsi ilə kifayətlənmək barədə Qafqaz canişininin əmr verdiyini qeyd etdi. Vurğuladı ki, bütün Rusiyada 1 milyon 700 min nəfər erməni yaşayır. O, “erməni məsələsi”nin həllindən ötrü Qafqaz canişini ilə tamamilə məxfi şəkildə əlaqələrin qurulduğunu da etiraf etdirdi. Y.Zavriyev qeydlərində ermənilərin istəkləri barədə də yazırdı ki, Türkiyə ərazisində muxtariyyət əsaslarında idarə olunan Ermənistan qurulmalı, yalnız general-qubernatorun sultan tərəfindən təsdiq edilməsində əks olunan Türkiyənin süverenliyi saxlanılmalı, Ermənistanın daxili işlərinə qarışılmamalı, orada türk ordusu saxlanılmamalı, Ermənistan üzərində Rusiya, İngiltərə və Fransanın protektoratlığı qurulmalı, Ermənistanın ərazisi 6 erməni vilayətini (əhalisi müstəsna olaraq müsəlman olan qərb və cənubun ucqar əyalətləri istisna olmaqla) Kilikiyanı Aralıq dənizində Mersin limanı olmaqla Yumurtalıqla birlikdə bütün İskəndərun körfəzini birləşdirməli idi.

Rusiya Xarici İşlər Nazirliyi ermənilərin layihəsini bəyənərək London və Parisdə də bu işə kömək edəcəyinə söz vermiş, müvafiq təlimatını bu ölkələrdəki səfirlərinə göndərmişdi. Eyni zamanda deyilmişdi ki, Rusiya səfirlərinin erməniləri açıq şəkildə müdafiə etməsi İngiltərə və Fransanın bu nümayəndələrin roluna, xüsusən Kilikiya məsələsinə münasibətdə şübhələr yarada bilər. Erməni nümayəndələri mümkün qədər Rusiya səfirlərinin görünən müdaxiləsi olmadan hərəkət etməli idilər. Onlar yalnız çətin anlarda məsələlərə qarışa bilərdilər.

### Anadoluda yeni təhlükəsizlik tədbirləri

1915-ci il mayın 27-də türk hökuməti dövlət əleyhinə çıxan bütün ünsürlərin təhciri haqqında qərar verdi. Burada milli və dini fərq qoyulmurdu. Qiyam qaldıran və dinc əhalini kütləvi surətdə öldürən erməni elementi Van, Bitlis və Ərzurum vilayətlərindən ölkə daxilində təhlükəsiz və xarici müdaxilədən kənar ərazilərə, əsasən əlverişli torpaqları olan Mesopotamiya və Suriyaya yerləşdirildilər. Yaşayış yerləri dəyişdirilən şəxslərin mal və can təhlükəsizliyini təmin etməkdən ötrü jandarma qüvvələri və həkimlər ayrıldı. Müşayiət edən qüvvələrə erməniləri köçərilərin hücumlarından, kürdlərin və digər müsəlmanların qisas almalarından qorumağa dair göstəriş verildi. Hökumətin qurduğu komissiya onların əmlakının siyahısını çıxarıb auksionda ədalətli qiymətə satmalı idi. Ermənilərin evlərinə köçən şəxslər kirayəniş olaraq banka pul vəsaiti ödəyəcək, sahibləri geri döndükdə isə evləri boşaldaraq təhvil verəcəkdilər. Dövlət əleyhinə fəaliyyətləri olmayan ermənilər isə daimi yaşayış yerlərində qaldılar. Onların təxminən 400 min nəfəri islam dinini qəbul etdi.

### Köçürülməyə reaksiyalar

Dövlətin əleyhinə qiyam qaldıran ermənilərin yaşayış yerlərinin dəyişdirilməsi haqqında əmr verildikdən bir gün sonra erməni silahlı dəstələri Van şəhərində müsəlman əhaliyə qarşı yeni kütləvi qırğınlar törətdilər. Burada ermənilərin Ararat bandası döyüşürdü. Dəstədə 3 batalyon var idi. 2800 nəfərdən ibarət olan bu batalyonların komandirləri Amazasp, Keri və Dro idilər. Onlar Van gölü yaxınlığındakı kəndləri tamamilə dağıtdılar. 200 min türkü və kürdü amansızlıqla öldürdülər. Xüsusən kürdlərdən heç kimə - uşağa, qocaya və qadına rəhm etməmək barədə əmr verildi. Erməni silahlı dəstə başçıları deyirdilər ki, kürdlərin ermənilərə vurduğu yaralar təsvir edilməlidir, kiçik uşaqlara, kişilərə və qadınlara vurduğu yaraları tibb lüğəti ifadə etməkdə acizdir. Bu qətliamdan sonra Vanda yalnız 1500 türk qaldı.

Hökumətin qanuni tədbirləri erməni mətbuatında və Avropa dairələrində hay-küyə səbəb oldu. Müharibə aparan Osmanlı dövlətini arxadan vuran ermənilərə hökumətin aldığı qanuni təhlükəsizlik tədbirləri ermənilər tərəfindən “böyük fəlakət” və “qırılma” kimi təbliğ edilməyə başlandı.

### İstanbulun cavab notası

Rusiya və digər xarici ölkələrin mətbuatında dərc edilən, ermənilərin təqib edilməsi və edamı üçün məsuliyyəti türk hökumətinin üzvlərinin üzərinə qoyan 24 may tarixli bəyanat Osmanlıya ağır təsir etdi. Cavab olaraq 1915-ci ilin iyun ayında türk hökuməti “erməni qırğınları” ilə bağlı xarici mətbuatda gedən yazılarla əlaqədar olaraq nota verdi və onu Osmanlı dövlətinin bitərəf ölkələrdəki nümayəndələrinə göndərdi. Notada Rusiya, Böyük Britaniya və Fransa hökumətlərinin ittihamları rədd edilir, bu vəziyyət geniş inqilabi hərəkatla əlaqələndirilirdi.

Belə hərəkətlərin ilhamvericisinin xristian əhali, xüsusən ermənilərin olduğunun vurğulandığı notada yazılırdı ki, Ərzurum, Dersim, Tercan, Egin, Sasun, Bitlis, Muş və Kilikiya ermənilərinin türk hökumətindən şikayət etməsi üçün heç bir əsası yoxdur, çünki onlar ictimai qaydaya qarşı çıxmağa qadir deyillər və bunu bitərəf dövlətlərin konsulları yaxşı bilirlər. Notada daha sonra qeyd edilirdi ki, müharibənin başlanğıcından Bolqarıstanda və Rumıniyada olan rus və ingilis konsulları və agentləri Varna, Sulin və Konstansadan Qafqaza çoxsaylı gənc erməni qruplarını göndərdilər, onların qarşısına “Türkiyə Ermənistanı”na keçmək, orada işlərə qarışmaq, Türkiyənin ermənilər yaşayan daxili vilayətlərində üsyan qaldırmaq vəzifəsi qoyuldu. Bu məqsədlə Türkiyəyə göndərilən ermənilər böyük sayda silahlarla, bombalarla, proklamasiya və inqilabi proqramlarla təmin edildilər.

Onların bilavasitə vəzifəsi göstərilən vilayətlərdə inqilabi təşkilatlar qurmaq, lazımi anda əsasən Van, Şatak, Anassulya, Nedı və Kəmər əhalisini qiyama qaldırmaq, türk əhalisini qırmaq idi. Notada konkret misallar göstərilərək yazılırdı ki, Rusiya ilə Türkiyə arasında müharibə başlayan kimi keçmiş deputat Karegin Bastarmacyan Troen və Njdeninin bandalarına qoşuldu. Onları Rusiya silahlandırmışdı. Bəyazid rus ordusu tərəfindən işğal edildikdə K.Bastarmacyanın dəstəsi bütün türk kəndlərini dağıtdı və çoxlu türkü edam etdi.

Türklər Bəyazidi geri aldıqda isə K.Bastarmacyan yaralandı. Onun yanında Ərzurum komitəsinin üzvü, ölmüş Suren də var idi. Onun şəkillərini Amerikadakı erməni komitələrinin orqanı olan “Azbareft” dərc etdi. Notada qeyd edilirdi ki, bütün bunlar Türkiyədəki separatçı hərəkatın əvvəlcə gizli olan, ingilislər İskəndərun sahillərinə erməni dəstələrini çıxardıqda isə açıq forma alan tərəfi idi. İngilis-fransız komandanlığının Adana, Yumurtalıq və İskəndərun erməniləri ilə əlaqə quraraq onları qiyamlara təşviq etmələri notada yazılırdı. Qeyd edilirdi ki, 1915-ci ilin fevral ayından başlayaraq Zeytunda ermənilərin qiyamları dayanmadı.

Belə bir şəraitdə hökumət ictimai qaydanı bərpa etmək üçün tədbirlər almağa məcbur oldu. İnqilabi komitənin üzvləri həbs edildi. Ermənilərin axtarışı zamanı inqilabçıların rəhbərlərinin separatçı niyyətlərini üzə çıxaran minlərlə tüfəng və rus bombası aşkar edildi. Notada yazılırdı ki, sənədlər sübut edir, erməni inqilabi komitələri Paris, London və Tiflisdə toplantılarını keçirir, rus, fransız və ingilis hökumətlərindən müntəzəm olaraq dəstək alırlar.

Notada həyata keçirilən tədbirlər nəticəsində inqilabın yatırıldığı, İstanbulda yaşayan 77 min 835 nəfər ermənidən 235 nəfərinin həbs edildiyi vurğulanırdı. Yazılırdı ki, əgər bəzi ermənilərin yaşayış yerləri dəyişdirilmişdirsə, bu yalnız onların hərbi əməliyyatlar aparılan rayonlarda yaşadıqları və oralarda olmalarının vətənin sərbəst müdafiəsinə inam vermədiyi üçün edilib. Notada Antanta ölkələrində müsəlmanlar əleyhinə qəddarlıqların həyata keçirildiyi də vurğulanırdı.

Nota dövlət əleyhinə baş verən qanlı hadisələrdə xarici ölkələrin əlinin olduğunu bir daha sübut edir, erməni elementinin Antanta dövlətlərinin aləti olduğunu göstərirdi.

*(ardı var)*

22 Aprel Beynəlxalq Yer Günüdür

# Azərbaycan "yaşıl dünya" platformasına çevrilib

## Ötən il BMT-nin Bakıda keçirilmiş COP29 konfransı bunun sübutu idi

**Təbiət zarafatı xoşlamır – o, həmişə dürüst, ciddi və sərtdir. Və həmişə haqlıdır. Səhvlər, yanlışlıqlar isə hər dəfə insan əli ilə baş verir.**

**(əvvəli 1-ci səhifədə)**

Bu gün dünyanın istənilən ölkəsinin sakinləri həmin amansızlıqların şahididir. Elə biz də…

Şəxsən mən sovet neft sənayesinin Abşeronun və Xəzərin ekologiyasına vurduğu sarsıdıcı zərbələrin şahidiyəm. Yaxud, ölkəmizin ərazilərinin 20 faizi işğalçı Ermənistanın tapdağı altında qaldığı otuz ildə orada törədilmiş ekoloji vandallıqların tam aradan qaldırılması üçün indən belə on illər lazım olacaq. Prezident İlham Əliyev müxtəlif beynəlxalq tədbirlərin tribunasından çıxış edərkən həmin vəhşilikləri "ekosid" adlandırmışdır. Cənab Prezident Bakının mərkəzindəki "Qara şəhər" ərazisi barədə danışarkən də o dəhşətli faktı Abşeronun ekobalansının pozulması adlandırmış, həmin yerlərin Cənubi Qafqazda analoqu olmayan "Ağ şəhər"ə çevrilməsini təmin etmişdir.

Dövlət başçımız xatırlatmışdır ki, görülən və görüləcək tədbirlər nəticəsində bir neçə ildən sonra görəcəyik ki, Azərbaycan vətəndaşlarının sağlamlığı daha da möhkəmlənib. Çünki insan sağlamlığına ən ciddi zərbə vuran amil ekoloji vəziyyətin lazımi səviyyədə olmamasıdır.

Yeri gəlmişkən, aprelin 22-si Beynəlxalq Yer Günüdür. Qeyd olunur ki, bu günün keçirilmə ənənələri XIX əsrin ortalarına təsadüf edir. Həmin dövrdə ABŞ-ın Nebraska ştatının sakini Corc Morton tərəfindən yaşıllaşdırma gününün keçirilməsi təklif olunub. 1882-ci il aprelin 22-də isə həmin tarix Nebraska ştatında rəsmi bayram günü kimi elan edilib və əvvəllər "Ağac Günü" kimi qeyd olunmağa başlayıb. 1970-ci ildən isə ekoloji fəallardan olan senator Geylord Nelsonun təklifinə əsasən ekoloji problemlərə, ətraf mühitin çirklənməsinə, təbiətin əhəmiyyətinə diqqəti artırmaq məqsədilə həmin günün adı dəyişdirilərək "Yer Günü" adlandırılıb. Tədricən bu bayram beynəlxalq xarakter alıb və hazırda 150-dək ölkədə, o cümlədən Azərbaycanda da qeyd olunur.

Əslində, bizim ölkədə həyata keçirilən dövlət siyasəti həmin əlamətdar günün ilk adını daha çox doğruldur. Çünki həm ulu öndər Heydər Əliyev, həm də Prezident İlham Əliyev nəinki paytaxtımızın, həm də bütövlükdə respublikamızın hər yerində yeni parkların salınmasına, yaşıllıqların artırılmasına daim diqqət göstərib və buna nail olublar. Son 20 ildə elə bir il olmur ki, Prezident İlham Əliyev ən azı iki yeni parkın açılışında iştirak etməsin. Sevindirici haldır ki, Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın rəhbərlik etdiyi IDEA İctimai Birliyi də bu istiqamətdə olduqca dəyərli layihələrin icrasını təmin etmişdir.

Jurnalist kimi fəaliyyət göstərdiyimizə görə ekologiya mövzulu çox tədbirlərə şahidlik etmişik. Məsələn, yadımdadır ki, 2003-cü ildə ulu öndər Heydər Əliyev tərəfindən ekoloji siyasətin müasir strategiya sənədi olan "Ekoloji cəhətdən davamlı sosial-iqtisadi inkişafa dair" Milli Proqram təsdiq edilmişdi. Bu strateji proqram əsasında ətraf mühitin müxtəlif sahələri üzrə 4 milli və dövlət proqram, kompleks tədbirlər planı təsdiq edilmiş və reallaşdırılmışdı.

Ekoloji siyasət cənab Prezident İlham Əliyevin də gündəlik fəaliyyətinin əsas istiqamətlərindən biridir, Məsələn, dövlət başçımızın imzaladığı 2 fevral 2021-ci il tarixli sərəncamla təsdiq edilmiş "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" adlı sənəddə növbəti onillikdə ölkənin sosial-iqtisadi inkişafına dair beş milli prioritetin reallaşdırılması nəzərdə tutulmuşdur. Onlardan biri də "Təmiz ətraf mühit və "Yaşıl artım" ölkəsi prioritetidir. Sənəddə qeyd edilir ki, bu prioritetin uğurla reallaşdırılması üçün yüksək keyfiyyətli ekoloji mühitin, yaşıl enerji məkanının yaradılmasının təmin edilməsi əsas məqsəd olmalıdır. Bu prioritetə görə, ölkənin perspektiv iqtisadi inkişafı ilə bərabər ətraf mühitin sağlamlaşdırılması, yaşıllıqların sürətli bərpası və artırılması, su ehtiyatlarından və dayanıqlı enerji mənbələrindən səmərəli istifadə təmin edilməlidir. Təbii ki, bütün bunlar son nəticədə anamız Yer kürəsinin hansısa yarasının sağalmasına xidmət edir.



… Bir neçə il qabaq rus alimlərinin mülahizələrinə əsasən qələmə alınmış bir publisistik yazıda oxumuşdum ki, bu gün beynəlxalq elm məkanında 250-yə qədər elm sahəsi bilavasitə insanın öyrənilməsinə xidmət edir. Son vaxtlar ən azı ildə bir yeni elm sahəsi yaranır ki, onun da tədqiqat sahəsi bilavasitə insanla bağlı olur. Bu elm sahələrinin əksəriyyətinin görkəmli mütəxəssisləri isə öz tədqiqatlarının son nəticəsində belə qərara gəlirlər ki, bütövlükdə, bəşəriyyətin və ayrılıqda hər bir fərdin həyatındakı əksər fəsadlar bilavasitə ekoloji tarazlığın pozulması ilə bağlıdır.

Bir məqamı da qeyd edək ki, 250-yə qədər elm sahəsi insanın öyrənilməsinə xidmət edirsə, bütövlükdə, bəşər elminin özü məhz insana xidmət edir (Təbii ki, kütləvi qırğın silahlarını yaradan elm sahələrindən başqa). İnsana xidmət edən ən yeni elmlərdən biri də məhz ekologiyadır. Ekoloqlar israr edirlər ki, insanın təbiətə vurduğu ziyanların törətdiyi təbii fəsadlar nə zamansa, hansısa şəkildə bərpa olunur. Ancaq həmin fəsadların bəşəriyyətdəki əks-sədaları ya heç zaman bərpa olunmur, ya da buna çoxlu vaxt və böyük vəsait sərf edilir. Bir sözlə, ekoloji tarazlığın qorunması məsələsi dünya alimlərindən daha çox beynəlxalq siyasətçiləri, xüsusən dövlət başçılarını narahat etməlidir.

Siyasətçi demişkən, son zamanlar planetin ən üzdə olan liderləri çəkinmədən deyirlər ki, III Dünya müharibəsi neft, qaz və ya hansısa təbii resurslar üzündən deyil, bilavasitə içməli su mənbələri səbəbindən baş verəcək. Dünya alimləri artıq on ildən çoxdur ki, bu problemin həlli yollarının tapılması üzərində baş sındırırlar. Ancaq həmin yollar hələ ki, tapılmır.

Bütün bunları nəzərə alan Azərbaycan Prezidenti İlham Əliyev ötən il oktyabrın 10-da "Su ehtiyatlarından səmərəli istifadəyə dair Milli Strategiya" adlı mühüm sənəd imzalamışdır. Sənəddə qeyd edilir ki, BMT-nin məlumatına görə, bu gün dünyada təxminən 2,2 milyard nəfər əhalinin təmiz içməli suya, 3,5 milyard nəfərin isə təhlükəsiz idarə olunan sanitariya xidmətlərinə çıxışı yoxdur. 2050-ci ilədək suya tələbatın, təxminən, 40 faizdən çox artacağı gözlənilir ki, bu da su qıtlığı problemini daha da kəskinləşdirə bilər. Cənubi Asiya, Yaxın Şərq və Böyük Səhradan cənubdakı Afrika da daxil olmaqla, əhalinin sürətli artımı və iqtisadi inkişaf olan regionlarda su problemi daha kəskin şəkildə durur.

Başqa bir mənbədə isə qeyd edilir ki, dünyadakı şirin suyun 69 faizi buz və qar formasındadır. Qlobal istiləşmə nəticəsində Himalay, And və Alp dağlarındakı buzlaqlar kimi mühüm şirin su mənbələri sürətlə əriyir, qar örtüyü isə azalır. Bu, uzunmüddətli dövrdə şirin su ehtiyatlarına çıxışa mənfi təsir göstərə bilər.

Ona görə də Yer Günü münasibəti ilə hər il dünyanın müxtəlif ölkələrindən alimlər qlobal ekoloji problemləri müzakirə etmək üçün "dəyirmi masa" ətrafında toplaşırlar. Müxtəlif ölkələrdə konkret mövzuya həsr olunmuş fərqli tədbirlər təşkil edilir. Bunlara konfranslar, sərgilər, böyük şəhərlərin gur küçələrində nəqliyyatın dayandırılması, ərazinin təmizlənməsi və ağacların əkilməsi daxildir.

Biz məmnunuq ki, Azərbaycan dövləti anamız Yer kürəsinin problemlərinin həlli istiqamətində olan bütün beynəlxalq konvensiyalara qoşulmuş, mütərəqqi təcrübəni mənimsəmiş və icrasına nail olmuşdur. Həmin ekoloji siyasətimizin pik nöqtəsini isə ötən il ölkəmizdə BMT-nin Baş katibi Antonio Quterreşin iştirakı ilə keçirilmiş BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası oldu. O tədbirin müsbət nəticələri barədə dəfələrlə yazdığımıza görə təfərrüatlara varmaq istəmirik.

Ancaq bir faktı xatırlatmaq istəyirik ki, ötən il iyulun 8-də AMEA-nın Mərkəzi Elmi Kitabxanasında "İlham Əliyevin ekoloji siyasəti. Dayanıqlı inkişaf və yaşıl dünya (2003–2023)" üçcildliyinin təqdimatı keçirilmişdi. Tədbirdə 2024-cü ilin ölkəmizdə "Yaşıl dünya naminə həmrəylik ili" elan edildiyini xatırladılmış, həmin sənədin ətraf mühitin qorunması, iqlim dəyişmələrinin qarşısının alınması, təbii fəlakətlərdən müdafiəyə diqqətin artırılması baxımından əhəmiyyəti qeyd olunmuşdu.

Beynəlxalq ekspertlər yazırlar ki, Prezident İlham Əliyevin apardığı məqsədyönlü siyasət nəticəsində "yaşıl enerji", "yaşıl iqtisadiyyat", "yaşıl artım", "yaşıl texnologiyalar" və s. kimi anlayışlar təkcə söz və məfhum olaraq qalmır, Azərbaycan dövlətinin inkişaf strategiyasının reallıqlarını ifadə edir.

… Sonda hansısa hind müdrikinin söylədiyi bildirilən bir aforizmi yada salmaq istəyirik: "Təbiətin gücünü ölçə bilməyəndə insanlar təbiətə, ölçə biləndə isə təbiət insanlara tabe olur".

Çox təəssüf ki, dünyanın bir çox yerlərində insanlar təbiətin gücünü ölçüb-biçməyə, dəyərləndirməyə maraq göstərmirlər. Üzləşdiyimiz çoxsaylı təbii fəlakətlər məhz həmin biganəliklərin, laqeydliyin, bir az da dəqiq desək, məsuliyyətsizliyin nəticəsidir.

Xüsusi günün mübarək, Anamız Yer kürəsi! Sənə vurduğu yaralara görə insan övladını bağışla.

***İttifaq MİRZƏBƏYLİ***

# Horadiz – Arazboyunun dirçəliş qapısı

**Əsrarəngiz təbiət mənzərələri ilə əhatələnmiş rahat, asfalt yollarla budəfəki səfərimizin ünvanı Arazboyudur. Doğma diyarımızın bu gözəl yerlərini ilk dəfə görəcəyimiz üçün sevinc və həyəcan içindəydik. Maşının radiosunda səslənən musiqi də sanki bu hisslərimizi müşayiət edir, Səxavət Məmmədovun şaqraq səsi ətrafa yayılır:**

**Vətənimi qarış-qarış seyrə**
**dalmaq istəyirəm,**
**Hər ocaqdan bir hərarət,**
**bir od almaq istəyirəm...**



Bir müddət sonra Qarabağın Şərqi Zəngəzura açılan, Azərbaycanı Naxçıvanla birləşdirəcək "Zəngəzur dəhlizi"nin "giriş qapısı" olan Horadizə çatırıq. Uzun illərdir müvəqqəti olaraq Füzuli rayonunun mərkəzinə çevrilmiş bu şəhərdə həyat qaynayır. Müasir, bir-birindən fərqli, gözoxşayan memarlıq üslubunda tikilmiş binalar, son dərəcə təmiz küçələr, səliqəli, yaşıl, güllü-çiçəkli parklar ilk baxışdan xoş təəssürat yaradır. Fürsətdən istifadə edib səfərimizin başladığı və son nöqtəsi olacaq Horadizin sosial-iqtisadi həyatı, işğaldan azad edilmiş ərazilərimizə Böyük Qayıdış sevincinin davam etdiyi bugünlərdə füzulililərin hansı əhval-ruhiyyədə olduqları ilə maraqlanırıq. Görəsən, Füzulidə, Horadizdə yaşamın bugünkü ümumi mənzərəsi necədir?

### Küllükdən güllüyə dönən Horadiz

Əvvəlcə qeyd edək ki, Horadiz şəhərini (keçmiş Horadiz qəsəbəsi. 23 oktyabr 2007-ci ildən şəhər statusu alıb – M.R.) umummilli liderimiz Heydər Əliyevin rəhbərliyi altında ordumuz 1994-cü il yanvar ayının 4-dən 5-nə keçən gecə, 22 yaşayış məntəqəsi də daxil olmaqla, düşmən işğalından azad edib. Azərbaycan iqtisadiyyatının həmin dövrdəki böhranlı vəziyyəti hamıya yaxşı məlumdur. Ulu öndərin uzaqgörən siyasəti sayəsində ölkənin düşdüyü çətin durumdan çıxması və inkişaf yoluna qədəm qoyması prosesinə yenicə start verilmişdi. Bunlara baxmayaraq, dövlət başçısının diqqəti və qayğısı sayəsində Horadizin dirçəldilməsi, yol infrastrukturunun, kommunikasiya sistemlərinin qurulması, müasir inzibati və yaşayış binalarının tikilməsi, bir sözlə, qəsəbənin öz yeni simasına qovuşması sürətlə həyata keçirildi. Bu işlər paralel olaraq işğaldan azad olunmuş kəndləri də əhatə edirdi. Görülən işlərin nəticəsi olaraq Füzuli rayonunun sözügedən yaşayış məntəqələrinin sakinləri qısa müddətdə doğma ata-baba yurdlarına döndülər və bu yerlərdə həyat öz axarına düşdü. İlkin mərhələdə qayıdış respublikamızın 58 rayon və şəhərində məskunlaşmış 135 min rayon əhalisinin 22 min nəfərini əhatə edirdi. Sonrakı illərdə Prezidentin sərəncamları ilə Füzulidə keçmiş məcburi köçkünlər üçün 19 qəsəbə salındı, əsasən, Saatlı və Sabirabad rayonlarında çətin şəraitdə yaşayan füzulililər bu qəsəbələrdəki yeni tikilmiş evlərə köçürüldülər. Bununla da işğala məruz qalmamış kəndlərlə birlikdə 40 yaşayış məntəqəsinə və 19 qəsəbəyə daha 65 min nəfərin qayıdışı təmin edildi.

### Qayğı, diqqət inkişafa yol açır

Yəqin, Horadizə ilk dəfə gələnlərin hamısı şəhərin son dərəcə təmizliyindən xüsusi zövq alırlar. Ucqar küçələrdə belə, yerdə zibil görmək mümkün deyil. Füzuli Rayon İcra Hakimiyyətinin başçısı Alı Alıyev bildirdi ki, bu təmizliyin yaradılması və qorunması aidiyyəti dövlət qurumlarının fəaliyyəti ilə yanaşı, həm də füzulililərin öz şəhərlərinə olan sevgilərinin nəticəsidir. Hətta siqaret çəkənlər də öz vətəndaşlıq məsuliyyətlərini dərk edərək kötükləri zibil qablarına atırlar, əks halda ciddi ictimai qınaqla üzləşəcəklərini bilirlər.

Söhbət zamanı əhalinin sosial rifah halı, rayonda görülən işlər barədə də məlumat verən RİH başçısı qeyd etdi ki, ölkəmizin hər yerində olduğu kimi, Füzulinin bütün kənd və qəsəbələrində də insanların rahat, firavan yaşayışı hər zaman dövlətimiz tərəfindən diqqətdə saxlanılıb: "Təsadüfi deyil ki, bu gün Horadiz də daxil, 59 yaşayış məntəqəsində yolların hamısına müasir tələblərə cavab verən asfalt örtüyü döşənib. Qazlaşdırma, elektrik enerjisi, internet, içməli və suvarma suyu ilə təminat üzrə də göstəricilər 100 faiz təşkil edir. Əhalinin dolanışığının, maddi rifah halının yaxşılaşdırılması, onların dövlət qayğısı ilə əhatə olunması istiqamətində atılan addımların ən bariz nümunələrindən biri də 33 il ərzində burada yaşayan insanların dövlət tərəfindən müvinətlə təmin edilməsidir. Belə ki, öz yerinə-yurduna qayıtmış füzulililər 2024-cü ilin may ayına qədər ölkənin digər ərazilərində məskunlaşmış məcburi köçkünlər kimi "çörəkpulu" alıblar. Dövlət büdcəsinə on milyonlarla manata başa gələn bu müavinətin uzun illər verilməsi onlara göstərilən diqqətin təzahürüdür".



Füzuli rayonu torpaqlarımızın azadlığı uğrunda 815 şəhid verib, 600-dən çox füzulili sağlamlığını itirib. Müharibə veteranlarının sayı isə 3 min nəfərdən artıqdır. Rayon rəhbərliyi başda olmaqla hər kəs şəhid ailələrinə və qazilərə xüsusi həssaslıqla yanaşır, onlara maddi, mənəvi dəstək göstərilməsini, problemlərinin aradan qaldırılmasını özlərinə borc bilirlər.

Rayonun ötən il üçün iqtisadi göstəriciləri ürəkaçandır. Əsasən kənd təsərrüfatı rayonu olan Füzulidə 2023–2024-cü illərdə həm əkinçilik və bitkiçilik , həm də heyvandarlıq sahəsində uğurlu nəticələr əldə olunub. Alı müəllimlə söhbət əsnasında öyrəndik ki, son illər rayonda orta statistikaya görə, illik 100 min tondan artıq taxıl istehsal edilir. Bu da Füzulinin taxılçılıq üzrə ölkənin qabaqcıl rayonları sırasına çıxmasına şərait yaradır. Əhalini dənli bitkilərin əkininə həvəsləndirən başqa bir səbəb dövlət tərəfindən verilən subsidiyalardır ki, bu sahədə şəffaflığın təmin edilməsi xüsusi diqqətdə saxlanılır. Yəni insanlar özləri rahat şəkildə müraciət edərək subsidiyaları ala bilirlər.

Cari təsərrüfat ilində isə 40 min hektara yaxın taxıl sahəsində əkin aparılıb. Bundan 11 mini suvarılan, qalanı isə dəmyə sahələrdir. Bu vaxta qədər həm görülən işlər, həm də havaların əlverişli keçməsi yüksək məhsuldarlıq vəd edir. Yəni çəkilən əziyyət öz uğurlu bəhrəsini verəcək.

Horadizdə diqqətimizi çəkən məqamlardan biri də kiçik və orta sahibkarlıq obyektlərinin çoxluğu oldu. Yol boyu və şəhərin özündə fəaliyyət göstərən yeməkxanalar, otellər və gecələmə yerləri, müxtəlif ölçülərdə satış, xidmət köşkləri rayonda sahibkarlar üçün yaradılmış əlverişli mühitdən xəbər verir. Bu isə həm rayona yerli sərmayənin cəlb edilməsinə, həm də dövlət büdcəsinə ödənilən vergilərin artmasına şərait yaradır.

Yeri gəlmişəkən, kiçik və orta sahibkarlıq obyektlərinin, iri taxılçılıq təsərrüfatlarının, aqroparkların mövcudluğu rayon əhalisinin məşğulluğunun təmin edilməsinə də mühüm töhfələr verir. Öyrəndim ki, rayon rəhbərliyi tərəfindən bu sahədə də mütəmadi işlər görülür, əmək yarmarkaları keçirilir, vətəndaşların iş üçün fərdi müraciətləri diqqətə alınır. Xüsusilə, müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında rəşadətli ordumuzun torpaqlarımızı mənfur erməni işğalından azad etməsindən sonra həmin ərazilərdə genişmiqyaslı bərpa-quruculuq layihələrinin həyata keçirilməsi füzulililər üçün yeni iş imkanları yaradıb. Müxtəlif peşə və sənət sahibləri böyük ruh yüksəkliyi ilə işğaldan azad edilmiş torpaqlarımızda işləməyə yollanırlar. Bunun öçün onlar müntəzəm nəqliyyatla təmin olunublar.

### Ənənələrə yeni baxış

Füzuli RİH başçısı ilə görüş zamanı bizi çoxdan maraqlandıran bir məsələ haqqında da söhbət etdik – rayon ərazisində yas mərasimlərinin sadələşdirilməsi. Dini, daha doğrusu, şəriət ənənələrinə bu yeni baxış bəzi hallarda müzakirələrə səbəb olub və açığı, fikirlər birmənalı deyil. Bəs bu dəyişiklik hansı zərurətdən yaranıb? Alı müəllim bildirdi ki, rayonda yas mərasimləri 13 ilə yaxındır sadələşdirilib. Bu mərasimlər əvvəllər vətəndaşa orta hesabla 10–15 min manata başa gəlirdisə, indi 4–5 dəfə ucuz başa gəlir. Nəticədə, heç bir ailə məclis etmək üçün borca düşmür, banklara üz tutaraq kredit götürmək məcburiyyətində qalmır.

2025-ci ilin yanvar ayından isə vəfat etmiş şəxslər üçün keçirilən cümə mərasimləri də sadələşdirilib və 4–5 cümə məclisi biri ilə əvəz olunub. Onu da öyrəndik ki, bu qərarların verilməsi zamanı rayon ictimaiyyətinin nümayəndələrinin – ağsaqqalların, ziyalıların, şəhid ailələrinin, o cümlədən gənclərin rəyləri nəzərə alınıb. Yəni qərar ümumi razılıq əsasında qəbul edilib.

Horadizdən xoş təəssüratlara ayrıldıq. Vətənimizin hər qarışı kimi əziz olan Füzulinin azad, firavan növrağına şahidlik etməkdən gözəl nə ola bilər ki! Qarşıda isə Horadizi də, yeni Füzulini də, füzulililəri və elə hamımızı da inkişafın yeni üfüqləri, o üfüqlərə aparan yeni yollar gözləyir. Deməli, hələ deyəcək, yazacaq sözlərimiz çox olacaq.

***Mahir HÜMBƏTOV***
***XQ***

“Qeyrət” mətbəəsi – 120

# Zirzəmidən yayılan işıq

## *“Qeyrət” mətbəəsi Cəlil Məmmədquluzadənin Tbilisidəki evinin alt qatında fəaliyyət göstərib*

**Qarşıdan milli mətbuatımızın ilki olan “Əkinçi” qəzetinin şanlı yubileyi gəlir. Görkəmli maarifpərvər ziyalı Həsən bəy Məlikov-Zərdabinin yaratdığı bu qəzetin ardınca bir çox Azərbaycandilli mətbu nəşrlər və çapxanalar pərvəriş tapıb. Yaradılmasından 120 il ötən “Qeyrət” mətbəəsi də bu sıradandır.**

Qafqazda ilk maarifçilik şirkəti sayılan “Qeyrət” 1905-ci ilin yanvarında Tbilisidə “Şərqi-rus” qəzeti borca düşüb bağlanandan sonra Azərbaycanın görkəmli yazıçı-dramaturq, jurnalist və ictimai xadimləri Cəlil Məmmədquluzadə və Ömər Faiq Nemanzadənin onun bazasında yaratdıqları ilk milli çapxanamız olub. Bəri başdan bu da xüsusi qeyd edilməlidir ki, onlara mətbəəni almaqda naxçıvanlı tacir Məşədi Ələsgər Bağırzadə təmənnasız maddi kömək göstərib.

Əməkdar jurnalisti, tarix üzrə fəlsəfə doktoru Akif Aşırlı “Azərbaycan mətbuat tarixi” kitabında yazır ki, “Şərqi-rus” bağlandıqdan sonra onun naşiri M.Şahtaxtinski redaksiyanın mətbəəsini satışa çıxardı. Bu barədə Ömər Faiq Nemanzadənin xatirələrində oxuyuruq: “Mətbəəni almaq məsləhəti ilə Cəlil Məmmədquluzadəyə müraciət etdim. Mirzə Cəlil “Məhəmməd ağa pul istəyəcək, ancaq pul nə səndə, nə də ki məndə var” cavabını verdi”. Mətbəəni almaq üçün maddi vəsait axtarışına çıxan dostlar, nəhayət, belə xeyirxah insanı Məşədi Ələsgəri tapırlar. O, ilkin olaraq 7 min manat pul verir, sonra isə “Molla Nəsrəddin” jurnalının çapına da vəsait xərcləyir. Yeni mətbəə “Qeyrət” adı ilə fəaliyyətə başlayır və 1907-ci ilə qədər bu iş davam edir. Fəaliyyətinin ilk aylarından “Qeyrət”in gəlirlə işlədiyini görən bu üç dost mətbəəni daha da genişləndirmək, istehsal gücünü daha da artırmaq istəyirlər. Ö.F.Nemanzadənin xatirələrindən bəlli olur ki, 1907-ci ildə dostlar “Qeyrət kampaniyası” adı altında bir şirkət vücuda gətirirlər. Onlar mətbəənin 7 min manatlıq qiymətini 28 paya bölmüş, hər paya 250 manat hesabı ilə hər biri iki pay götürüb 22 payı satışa buraxmışlar”.



Beləcə, bir müddət mətbəə 28 payçının ixtiyarına keçir. Mətbəənin ilk elanında deyilirdi: “Tiflisdə “Qeyrət” mətbəəsi türkcə, farsca, ərəbcə, rusca və firəngcə hər növ kitab, məcmuə və hər cür tüccar və divanxana dəftər və kağızları ən gözəl hərf ilə çap edir”. Mətbəədə böyük çap maşını, bir amerikanka maşını, 10 mürəttib işləyəcək qədər hərf və hərf kassaları vardı. Maşınlar Moskvadakı “Modern” alman firmasından alınmışdır. Təkcə “Molla Nəsrəddin”i çap etməklə kifayətlənməyən “Qeyrət”çilər Azərbaycan ədəbiyyatına, mədəniyyətinə böyük töhfə olan kitabçalar, siyasi mahiyyətli intibahnamələr, dini əsərlər, vərəqələr, təqvimlər, müraciətlər çap edirdi. Mətbəənin buraxdığı ilk kitablardan biri Firdovsinin “Şahnamə”sindən bir hissə – Rəşid bəy Əfəndiyevin tərcümə etdiyi “Rüstəm və Söhrab” olur. Çap olunan kitabların bəziləri pulsuz paylanır, bəziləri isə ucuz qiymətə satılırdı. Bir çox hallarda isə “Molla Nəsrəddin”in oxucularına hədiyyə kimi göndərilirdi.



Əlbəttə, milli oyanış, milli dirçəliş, mədəni tərəqqi üçün bir vasitə oan mətbəəni saxlamaq çətin idi. Maddi imkanlı olanların çoxu yalnız özünü düşünür, xalq işindən uzaq qaçır, milli təşəbbüsə qoşulmurdular. Bu haqda Ömər Faiq yazırdı: “Ağızlarından arabir çıxardıqları “vamillətə” sözləri dillərinin ucundadır. Əksər sözləri puldur, quru hay-küydür. Millətə lazım olduqları vaxt yüz verst uzaq qaçırlar. “İntelligent”liyi qıraxmallı köynəkdən, başa şapka keçirməkdən, millətin ağır işlərindən qaçmaqdan ibarət bilirlər. Avam camaatın qabağında nümunə olub millətə faydalı bir iş görmürlər. Duaları, təfəkkürləri, asıb-kəsmələri ancaq dillərindədir, xəyallarındadır... Xülasə, bizə dua və söz bəsdir. İş görməliyik. İş, iş, iş”...

Yalnız “Qeyrət”in ətrafına cəlb olunmuş əməkdaşların gücü ilə burada xeyli iş görülüb. Mirzə Cəlil, Ə.Hüseynzadə, Ö.F. Nemanzadə və Əbuturab Axund oğlunun məqalələrindən ibarət “Bizə hansı elmlər lazımdır” kitabında dini və dünyəvi elmlərin müasir həyatda rolu məsələsi müzakirəyə qoyulub. Mirzə Cəlilin “Poçt qutusu”, “Usta Zeynal”, “İranda hürriyyət”, “Qurbanəli bəy” əsərlərini, Ömər Faiqin “Nəşri asarə dəvət”ini, Əhməd bəy Cavanşirin, Məmməd Səid Ordubadinin, Namiq Kamalın, Əbdürrəhim bəy Haqverdiyevin, Əlimirzə Nərimanovun kitablarını da qısa vaxtda nəşr edən “Qeyrət” mətbəəsi Azərbaycanda maarifçilik hərəkatına böyük təkan verib, kitab mədəniyyətinin formalaşmasında şərəfli tarix yazıb.

Cəlil Məmmədquluzadənin Tbilisidə yerləşən ev muzeyi, eyni zamanda “Qeyrət”in ünvanı olub. Çünki mətbəə evin zirzəmisində yerləşib. Deməli, bura həm də məşhur “Molla Nəsrəddin” jurnalının ilk saylarının, “Poçt qutusu” və “Usta Zeynal”ın çap edilərək işıq üzü gördüyü məkandır. Ümid edirik ki, muzey – o cümlədən “Qeyrət” mətbəəsi – tam şəkildə bərpa olunacaq, yenidən gürcü və azərbaycanlı ziyarətçilərin sevimli məkanına çevriləcək.

***Ə.DOSTƏLİ***
***X Q***

# Ərzincanda Dədə Qorqud ocağı

**Türk dünyasının mədəni həyatına yeniliklər gətirməyi hədəfləyən “Dədə Qorqud Aşıqlar Dərnəyi”nin açılış mərasimi keçirilib.**

Türkiyənin ünlü sənət ocaqlarından olan Ərzincan “Çıraqhanə Mədəniyyət Evi”ndə təşkil edilən mərasimdə şəhərin valilik və bələdiyyə rəhbərləri, yerli şair və sənətçilər, Ərzincan Binəli Yıldırım Universitetində çalışan azərbaycanlı, qazax, qırğız elm adamları və ziyalılar iştirak ediblər.

“Dədə Qorqud Aşıqlar Dərnəyi”nin qurucusu, Universitetin ədəbiyyat fakültəsinin türk dili və ədəbiyyatı şöbəsinin müdiri professor Əli Kafkasyalı Türk dünyasının birliyinə töhfə olan dərnəyin məramından, hədəflərindən danışıb.

Qeyd edək ki, əslən Qazax rayonunun Şıxlı kəndindən olan və uzun illərdir ki, Türkiyədə yaşayan professor Ali Kafkasiyalı Türk dünyasının tarixi keçmişinə və aşıq sənətinə aid çox sayda əsərlər yazıb. O, klassik aşıq sənəti ənənələrinin davamçısı Mikayıl Azaflının yaradıcılıq yolu haqqında tədqiqat əsərinin də müəllifidir.

Ulu Dədə Qorqudun deyimləri ilə davam edən bədii hissədə Nurhani təxəllüsü ilə tanınan ərzincanlı Aşıq Nuri Kaya şeirlər oxuyub, türkülər səsləndirib. Kayanın çıxışını tamaşaçılar alqışlarla qarşılayıblar.

***XQ***



# “Qobustan”ın yaz görüşü




**Sənətin çeşidli sahələrinə aid maraqlı müəlliflərin orijinal yazılarını təqdim edən “Qobustan” toplusunun yaz sayı işıq üzü görüb. Üz qabığında Xalq rəssamı Səttar Bəhlulzadənin “Bahar əfsanəsi” tablosu yer alıb.**

Dərgi sənətsevərlərin zövqünü oxşamaq ənənəsinə yenə də sadiq qalıb. Yaz sayında akademik Teymur Kərimlinin “Şərq və Qərb rəssamlarının əsərlərində insan gözəlliyinin bədii təqdimi” məqaləsi xüsusilə diqqət çəkir. Burada iki fərqli mədəniyyətin təmsilçilərinin insana baxışı və təsviri sənətdə bunun necə ifadə edilməsi müqayisə olunur. Həmçinin klassik ədəbiyyatımızda sözlə çəkilən təsvirlərin Şərq miniatürçü rəssamların əsərlərində necə göstərilməsi əyani izah edilir. Dünyanın zamandan asılı olan dərkinin sənətə təsiri məqalənin əsas ideyasını təşkil edir.

Professor Vilayət Quliyev isə “Şuşadan Miçiqana uzanan yol – Qəmər Ağa-oğlu” məqaləsində Amerika elm-sənət cameəsində böyük uğurlara imza atmış Qəmər Ağaoğlunun tale və yaradıcılıq yoluna nəzər salır. Xatırladaq ki, hələ ötən əsrin 70-ci illərində “Qobustan” necəsə senzuranın gözündən yayındırmaqla, Qəmər xanımın həyat yoldaşı, Amerika azərbaycanlısı, incəsənət professoru Məhəmməd Ağaoğlu haqqında Mövsüm Əliyevin kiçik məlumatını çap etmişdi. Həmin yazıdan V.Quliyevin məqaləsinə giriş kimi istifadə olunub.

Filologiya elmləri doktoru Pərvanə Məmmədli bu sayda Xalq yazıçısı Mirzə İbrahimovun Cənubi Azərbaycanla bağlı böyük işlərindən, professor Rahid Ulusel elmlə incəsənətin vəhdətindən söz açır. Bu il yubileyləri olan Xalq yazıçısı Maqsud İbrahimbəyov (Narıngül Nadir) və unudulmaz aktrisamız, Əməkdar artist Ətayə Əliyeva (Esmira Nəzərli) haqqında orijinal məqalələr də dərginin bu sayında oxuculara təqdim edilib.

Təsviri sənətin təbliğatına xüsusi önəm verən “Qobustan” Xalq rəssamı Səttar Bəhlulzadə haqqında Mahcamal Şərifin xatirələrinə və istedadlı gənc rəssam Samirə Abdullayevanın “Zamanın salnaməsi” sərgisi ilə bağlı Züleyxa Baxışovanın məqaləsinə yer ayırıb. Azərbaycan rəssamlarının əsərlərini geyimlərə həkk edən “Amorini consept” brendinin müəllifi, modelyer Günay Əliyeva haqqında təqdimat da müasir oxucu zövqünü oxşamağı hədəfləyir.

Fatimə Fərəhin “Rənglərin aşiqi” məqaləsi xalçaçı rəssam Kamil Əliyevə, musiqişünas Leyla Nəzərlinin “Hər zaman yeni Vaqif” yazısı unudulmaz cazmen Vaqif Mustafazadəyə həsr edilib. Gənc sənətşünas Özləm Əliyevanın animasiyalar barədə araşdırma yazısı isə cizgi filmi tariximizə işıq tutur.

Hər zaman səhifələrində yeni imzalara yer verən “Qobustan”ın budəfəki debütçüsü 87 saylı orta məktəbin şagirdi Gülnarə Məmmədlidir. Onun müsabiqələrdə yer tutan “Möcüzə” hekayəsi ədəbiyyat həvəslisi olan balaca müəllifin möcüzəyə inamının ifadəsidir.

Dərginin yaz sayı da ənənəvi olaraq baş redaktor Pərvinin məqaləsi ilə qapanır. Müəllifin Avropa səfərindən növbəti məqaləsi Amsterdam şəhərinə və impressionist rəssam Van Qoqun muzeyini ziyarətinə aid təəssüratlarını əks etdirir.

Qeyd edək ki, dərgidə yer alan məqalələr rəngli rəsm əsərləri, illüstarasiya və fotolarla təqdim olunub. Həmçinin mətnlərə aid video materialların, musiqi əsərlərinin QR kodlarda səhifələrdə yer alması xüsusi özəllikdir.

***Ə.ƏLİYEV***
***XQ***

**Mədəniyyət Nazirliyinin Mədəniyyət üzrə Elmi-Metodiki və İxtisasartırma Mərkəzində (MEMİM) milli-mənəvi dəyərlərimizin həm yerli, həm də beynəlxalq miqyasda tanıdılması missiyası ilə ardıcıl tədbirlər görülür. Mərkəz bu sahədə kadr potensialının gücləndirilməsi, peşə vərdişlərinin artırılması, ustad dərsləri, təlimlər və ixtisasartırma kurslarının təşkili, eləcə də paytaxt və regionlardakı mədəniyyət müəssisələrinə metodiki dəstək üzrə geniş fəaliyyət göstərir.**

Bu baxımdan aprel ayında Gəncə–Daşkəsən Regional Mədəniyyət İdarəsinin dəstəyi ilə təşkil olunan “Mədəniyyət rüzgarı” adlı tədbirlər proqramını göstərmək olar. Proqram çərçivəsində regionda Əməkdar artist Toğrul Əsədullayev, tarda Ruslan Zərbalıyev olub. Gəncə, Goranboy, Samux uşaq musiqi məktəbləri şagirdlərinin də ifasında müxtəlif muğam parçaları səslənib.

# Gəncə–Daşkəsəndə Mədəniyyət rüzgarı



fəaliyyət göstərən mədəniyyət işçiləri elmi-metodiki, nəzəri və təcrübi məlumatlarla təmin edilib, sənət xadimləri ilə görüşlər, musiqi, teatr, mədəni irs və digər mövzular ətrafında maraqlı müzakirələr aparılıb.

“Musiqidə milli ənənələrin təcəssümü” adlı elmi-praktiki seminar Gəncə şəhərində gerçəkləşən ilk tədbir olub. Əvvəlcə Gəncə Dövlət Universiteti (GDU) ilə birgə “Musiqidə milli ənənələrin təcəssümü” adlı elmi-praktiki seminar təşkil edilib. Gəncə Dövlət Universiteti rektorunun baş müşaviri, tarix üzrə fəlsəfə doktoru, dosent Asif Cavadov və MEMİM-in direktoru vəzifəsini icra edən, sənətşünaslıq üzrə fəlsəfə doktoru Vüqar Hümbətov dahi bəstəkar Üzeyir Hacıbəylinin anadan olmasının 140 illiyi çərçivəsində keçirilən seminarın məqsədinin milli köklərimiz zəminində formalaşan bəstəkarlıq ənənələri, Azərbaycan peşəkar musiqi irsinin tədqiqat məsələlərinin gənc nəslə çatdırılması olduğunu vurğulayıblar. GDU-nun kafedra müdiri, Əməkdar müəllim, sənətşünaslıq üzrə elmlər doktoru, professor Sevda Qurbanəliyeva, baş müəllimlər – sənətşünaslıq üzrə fəlsəfə doktorları Sevinc Rüstəmova və Nüşabə Seyfullayeva, Bakı Musiqi Akademiyasının baş müəllimi İlham Nəzərov, dosent Aytən Babayeva, MEMİM-in aparıcı metodisti, sənətşünaslıq üzrə fəlsəfə doktoru Leyla Muradzadə çıxışlarında mövzularla bağlı araşdırmalarından danışıblar. Videomateriallar və musiqi nömrələri ilə müşayiət olunan seminar sənətşünaslıq üzrə fəlsəfə doktoru, Əməkdar mədəniyyət işçisi Səadət Təhmirazqızının moderatorluğu ilə reallaşıb.

Növbəti görüş Gəncə şəhər Zərif Qayıbov adına 5 nömrəli Uşaq Musiqi Məktəbində fortepiano və vokal ixtisasları üzrə ustad dərsləri olub. Regiondakı musiqi məktəblərinin kollektivlərini əhatə edən dərslərin əsas hədəfi müəllim və şagirdlər üçün yenilənmiş tədris metodikasının tətbiqi, dərs zamanı diqqət yetirilməli əsas məqamlar və siniflər üzrə düzgün repertuar seçiminin təşkili olub. Opera ifaçısı, sənətşünaslıq üzrə fəlsəfə doktoru, Əməkdar artist İlham Nəzərov və Azərbaycan Milli Konservatoriyasının baş müəllimi, pianoçu Svetlana Əhmədova şıxış ediblər.

“Sənətkarın dostu” layihəsi üzrə görüş də maraqlı olub. Gəncə Dövlət Filarmoniyasının dəstəyi ilə keçirilən görüşün qonağı, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin kafedra müdiri, Xalq artisti Teyyub Aslanov olub. MEMİM-in əməkdaşı Riad Cəbrayılovun moderatorluq etdiyi tədbirdə T.Aslanov muğamın tarixi, inkişaf mərhələləri, gənclər arasında təbliği, metodoloji əsaslı tədrisindən söhbət açıb və tələbəsi Ramil Hümbətli ilə birlikdə “Bayatı-şiraz” dəstgahını ifa edib. Onların müşayiətçiləri kamançada Əməkdar artist Toğrul Əsədullayev, tarda Ruslan Zərbalıyev olub. Gəncə, Goranboy, Samux uşaq musiqi məktəbləri şagirdlərinin də ifasında müxtəlif muğam parçaları səslənib.

Silsilə tədbirlər çərçivəsində ilk təlim regionun kitabxana əməkdaşlarını əhatə edib. Dəstəkçi Azərbaycan Milli Kitabxanası idi. Təlim peşəkar inkişafa töhfə vermək, müasir kitabxana idarəçiliyi və rəqəmsal resursların əlçatanlığını, müasir proqramların tətbiqini təmin etmək məqsədilə reallaşıb. Azərbaycan Milli Kitabxanasının şöbə müdirləri – tarix üzrə fəlsəfə doktoru Aygün Koçak və Sevinc Əfəndiyeva maraqlı təqdimatlarla çıxış ediblər.

Növbəti layihə “Nəsildən-nəslə teatr” olub. Gəncə Dövlət Milli Dram Teatrında “Aktyorluq: min maskalı qəhrəmanın səyahəti” adlı seminar tanınmış aktyor, Xalq artisti Nurəddin Mehdixanlının iştirakı ilə keçib. MEMİM-in əməkdaşı, teatrşünas Dağlar Yusifin moderatoru olduğu seminarda gənclərlə aktyor sənətinin sirləri, vətənə və sənətə sevgi, aktyor–tamaşaçı ünsiyyəti, teatrda aktyorun mövqeyi kimi mövzularda söhbət aparılıb.



Region muzeylərinin əməkdaşları üçün isə “Muzeylərin əsas vəzifələri: fondlar, elmi kütləvi və ekspozisiya işi, muzey işinin üç sütunu” mövzusunda təlim təşkil olunub. Azərbaycan İstiqlal Muzeyinin direktor müavini, Əməkdar mədəniyyət işçisi Aida Axundova muzey işinin təşkili, fond və ekspozisiya zallarının müasir standartlara uyğun qurulması, eksponatların mühafizə qaydaları, təqdimat zamanı muzey bələdçisinin rəqəmsal vasitələrdən istifadəsi kimi mövzularda danışıb. Sonda auditoriyanı maraqlandıran suallar cavablandırılıb.

Maarifləndirmə məqsədilə MEMİM-in “Mədəni irsini qoru” layihəsi çərçivəsində Gəncənin tarixi yerlərinə infotur da təşkil edilib. Gəncənin ali təhsil müəssisələrinin tələbələri və media nümayəndələri üçün tarix və mədəniyyət baxımından böyük əhəmiyyət daşıyan Çökək hamamı, Cavad xanın türbəsi, Şah Abbas məscidi və Karvansarayı, Gəncə qala divarları, Azərbaycan Demokratik Respublikasının Parlament binası və digər tarixi yerlərə ekskursiya təşkil olunub. Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin Gəncə Regional İdarəsinin rəisi Pərvin Kazımov, AMEA Abbasqulu Ağa Bakıxanov adına Tarix və Etnologiya İnstitutunun əməkdaşı Faiq İsmayılov və digər mütəxəssislər mühüm maarifləndirici məlumatları diqqətinə çatdırıblar.

Qeyd edək ki, “Mədəniyyət rüzgarı” proqramı çərçivəsində yuxarıda sadalananlar MEMİM-in həyata keçirdiyi tədbirlərin müəyyən bir qismini təşkil edir. Reallaşan bütün layihələrimizlə sahənin inkişafı üzrə vacib məqamları auditoriyanın diqqətinə çatdırmağa çalışırıq.

***Rəfiqə NƏSİROVA,***
***MEMİM-in əməkdaşı***

**XX əsrin ortalarından başlayan, XXI əsrin əvvəllərindən aktuallaşan onomastika və xüsusən toponimika sahəsində tədqiqatlara elmi marağın artması Azərbaycan dilçiliyində də özünü göstərdi. Toponimiyanın qarşısında duran müxtəlif suallara cavab tapmaq zərurəti, dilçilik üçün əhəmiyyətinin qəbul edilməsi onu istənilən təbii dilin lüğətində tərkib hissəsinə çevirdi. İstənilən coğrafiyanın toponimik mənzərəsinin formalaşdırılması müasir dilçiliyin aktual vəzifəsi olaraq hər bir xalqın tarixində öz sözünü deyir.**




# Qərbi Azərbaycanda milli irsimizin soyqırımı

## *Erməni millətçiləri tarixin möhürü olan yer adlarımızı xəritələrdən silmişlər*

Toponimlər qeyd-şərtsiz etnomədəni əhəmiyyətə və inteqrativ statusa malik olmaqla yanaşı, verballaşdırılmış formada etnik qrupun tarixi, sosial, dil və etnokulturoloji xüsusiyyətlərini əks etdirir. Bu isə onun coğrafi obyektin identifikatoru kimi çıxış etməsi ilə bərabər, qaranlıqlar üzərinə işıq salmasına yardım edir. Bir sözlə, toponimlər məkan haqqında biliklərin saxlanılması, etnik qrup barədə tarixi-mədəni məlumatların toplanılıb gələcəyə ötürülməsi prosesində transformator rolunu oynayır.

İstənilən bölgənin toponimikası özündə onu formalaşdıran xalqın maddi və mənəvi mədəniyyəti tarixinin ən mühüm mərhələləri haqqında məlumatları ehtiva edir. Çünki hər bir onomastik faktın arxasında müxtəlif ekstralinqvistik amillər vasitəsilə ən müxtəlif assosiasiyaların xüsusi dairəsini yaradan tarixi və canlı reallıq var. Tarixi Azərbaycanın təbii sərhədləri daxilində olan Qərbi Azərbaycan toponimlərinin XX əsrin 30-40-cı illərində elmi-tədqiqata cəlb olunan nümunələri bu regionda yaşayan insanlar qrupunun təsəvvüründəki linqvistik mənzərənin öyrənilməsində xüsusi yer tutması da o reallıqların diqtəsindən xəbər verir.

Göyçə gölü, Göyçə və Dərələyəz dağ silsiləsi, Zəngəzur dağları, Araz çayına birləşənə qədər geniş ərazilərdən keçib gələn Arpaçay sahilləri IX-X əsrlər iranlı coğrafiyaşünas Əbül-Qasim İbn Xordadbehin "Yollar və ölkələr haqqında kitab"ında, XII-XIII əsrlər ərəb tarixçi və coğrafiyaşünası Şahabəddin Yaqut əl-Həməvinin "Ölkələr haqqında lüğət"ində, XVI-XVII əsrlər alman səyyahı Adam Olearinin hazırladığı qlobusda, XVIII-XIX əsrlərdə yaşamış Rusiya tədqiqatçıları S.M.Bronevskinin "Qafqaz haqqında yeni coğrafi və tarixi məlumatlar"da, XIX-XX əsr rus tarixçisi Y.A.Poxomovun "Azərbaycan tarixinin qısa kursu" və digər müəlliflərin əsərlərində göstərilən türk mənşəli toponimlər XIX əsrdə çar Rusiyasının sərhədlərinə daxil edilən ərazilərin əsl sahiblərini göstərir.

Bu tarixi sənədlərə söykənən etibarlı mənbələr İrəvan quberniyasının 7 qəzasınında, Aleksandropol-Gümrü–mərkəzi Gümrü şəhəri, İrəvan–mərkəzi İrəvan şəhəri, Naxçıvan–mərkəzi Naxçıvan şəhəri, Sürməli–mərkəzi İqdır şəhəri; Şərur-Dərələyəz–mərkəzi Baş-Noraşen kəndi, Üçmüəzzin–mərkəzi Sərdarabad olmaqla təqribən 1,5 milyon nəfərə qədər əhalini əhatə edir.

Qərbi Azərbaycan toponimlərinin müəyyən qisminin əks etdirildiyi Rusiya imperiyasının Tiflis şəhərində yerləşən Qafqaz Hərbi Dairəsi Hərbi Topoqraqfiya bölməsində hazırlanaraq Sankt-Peterburq şəhərində çap edilən "Cənubi Qafqaz. 1903-cü il" xəritəsi həmin məkanın onomostik güzgüsüdür. Bu xəritənin tarixi bələdçiliyi ilə Qərbi Azərhaycan ərazilərinə Çubuqlu-Toxluca-Ağbulaq kəndləri boyunca, Çaykənd, Dilican, Əmirxeyir, Çəmhərək, Gölkənd, Polad Ayrım kəndlərinə keçməklə qədəm basırıq.

Yuxarı Əskipara, Sofulu və Barxudarlı kəndlərini adlayaraq Qaraqoyunlu dərəsinə, oradansa Basarkeçər nahiyəsinə daxil oluruq. Sonra Şərur-Dərələyəzə, Ələyəz dağ silsiləsinə, oradansa Ağbaba və Şörəyel mahallarına çatırıq.

Bunlar isə Zəngəzur dağ silsiləsindən başlayan xəttdir: Bu tarixi yaddaşda Qaladaş və Bəyboğan sıra dağları, Qısırdağ silsiləsi, Canıyandıq dağı, Göyəm dağı, Gərni dağı, Zəngi yaylası, Qapıcıq zirvəsi, Gilan və Oxçu çayları boyunca uzanır. Tarixə ekskursun davamında Gümrü-Göyçə-Pəmbək zolağından keçərək Arpaçayın aşağı yatağına, oradansa Törəgən, Alaca, Afşar, Böyük Yağnı, Kiçik Yağnı, Üçtəpə sıralanır. Oradansa Gözəldərə dağını dolanır, Allaçöl gölünü adlayaraq Yamanqan dağına yetişir, Sadanağ kəndi yaxınlığındakı Oğruca dağına, daha sonra Sarıcallı kəndi yaxınlığındakı Kirgitdağına çatırıq. Ackəsər dağını adlayaraq Qaraxaç aşrımından düşürük. Buradan isə Axısqa türklərinin əsrlərlə məskunlaşdığı yerlərə "əl uzatsan, çatacaq qədər" məsafə var.

Qərbi Azərbaycan hidronimlərinin yaratdıqları mənzərə xüsusilə füsunkardır. Şimal-qərbdə Pəmbək, şimal-şərqdə Göyçə, qərbdə və cənubda Gəyən və Basarkeçər dağları ilə əhatələnən, Göyçə gölünə tökülən 28 addakı çay, oradan mənsəbini götürən, 70 kilometr axdıqdan sonra Araza qovuşan Zəngi çayı bu füsunkarlığı artırır. Onu xüsusi olaraq qeyd edək ki, həmin çaylar ətraf dağlardan axan bulaq sularından əmələ gəlir. Babacan kəndində Gur bulaq, Dərəkənd kəndində Orucoğlu bulağı, Kərimkənd, Başkənd, Paşakənd, Kosa Məhəmməd kəndlərindən axan bulaq suları Nərədüz kəndində birləşərək gölə tökülür, Pəmbək kəndindən Pirverdi bulağı, Həmzəli bulağı, Piyalə bulaq, Murtuzəli bulağı, Toğluca və Ağbulaq kəndləri arasında axan Cələçay, Hamarçay, Çaldaş dağından başlayan Gözəldərə çayı hidronimləri bu yerlərdə minillərlə yaşamış xalqın qoyduğu izlərdir.

Basarkeçər, Pəmbək, Çəmbərək və Kəvər nahiyələrinin müsəlman-türk əhalisi yaşayan kəndlərin – Dərəkənd, Babacan, Toğluca, Pəmbək, Ağbulaq, Cil, Ardanış, Şorca, Ağzıbir, Ağqala, Bığlı, Hacı Muxan, Əyrivəng və digər yaşayış məskənləri o izlərdən yaranan qurşaqdır. Bu nomostikalar günü bu gün də ancaq milli mənsubiyyətinə görə Qərbi Azərbaycandan çıxarılan yüz minlərlə soydaşımızın buraların əsil sahibi olduğunu təsdiq edir.

Bütövlükdə, xalqın dünyagörüşü təkcə dünyanı rasional və məntiqi dərk etməklə deyil, həm də toponimlərin adlandırılmasında reallaşan dünyanı təfəkkür, duyğu, dərk və qiymətləndirmə ilə müəyyən edilir. Coğrafi adları haqlı olaraq linqvistik şəxsiyyətin kommunikativ məkanında fəaliyyət göstərən, özünəməxsus milli xarakter formalaşdıran və daşıyan dil mədəniyyəti hadisəsi kimi qəbul edilir.

Qərbi Azərbaycanda onomastik mənzərənin dəyişdirilməsinə ilkin cəhdlər XIX əsrin 20-ci illərindən – sonuncu Rusiya–İran müharibəsinin nəticələrinin yaratdığı siyasi ab-havadan sonra baş verdi. Regionun işğalı ilə Güney Qafqazın imperiya sərhədlərinə daxil edilməsi yekunlaşandan dərhal sonra İrəvan xanlığının bazasında dini mənsubiyyətə hesablanan strateji dayaqlar yaratmaq prosesi başlanıldı.

Xanlığın ərazisində erməni vilayətinin yaradılması ilə bağlı imperator fərmanı verildikdən bir il sonra – 1829-cu ildə mənşəcə fransalı olan Rusiya tarixçisi və etnoqrafı İvan Şopen Qafqaz canişini Paskeviçdən "Şərqi Ermənistanın ərazisinin təsvirini tərtib etmək üçün" İrəvana gəlmək əmrini alır. O, 1828-ci il Türkmənçay müqaviləsinə əsasən Rusiya imperiyasının tərkibinə verilən və "Ermənistan vilayəti" adlandırılan İrəvan və Naxçıvan xanlıqlarının ətraflı tədqiqi ilə məşğul olur. Dövlət işləri ilə bahəm tarixçi-etnoqraf həm də gələcək kitabları üçün material toplayarkən müxtəlif millətlərin nümayəndələri ilə görüşür, onların adət-ənənələrini, mədəniyyətini müşahidə edirdi.

Rus Coğrafiya Cəmiyyəti Qafqaz şöbəsinin protokolunda İ.Şopenin Qafqaz haqqında qədim müəlliflərin mənbələri əsasında ayrıca kitab kimi nəşr etmək niyyəti barədə məlumat verilirdi. Həqiqətən də etnoqraf-tarixçinin "Ermənistan vilayətinin Rusiya imperiyasına birləşməsi dövründəki dövlətin tarixi abidələri" kitabı 20 il sonra nəşr olundu.

Onu da qeyd edək ki, Güney Qafqazın kulturoloji qatlarını öyrənmək baxımından qiymətli mənbə sayılan bu kitab sonradan xüsusilə Azərbaycan tədqiqatçıları üçün əvəzsiz ədəbiyyat nümunələrindən biri kimi tanındı. Rəsmi dövlət sənədləri və müasirləri ilə aparılan müsahibələr əsasında hazırlanan o kitab, həmin vaxtlardan, təxminən 80 il sonra Qərbi Azərbaycan ərazilərində meydana gətirilən Ermənistan dövlətinin etnosid siyasətinin ifşası üçün başlıca vasitə oldu.

XIX əsrin ikinci yarısında nahiyə və qəzalara, XX əsrin 30-cu illərində rayonlara bölünən inzibati ərazilərdəki onomastik vahidlərə ötəri baxaq: Ağin, Axta, Allahverdi, Barana, Böyük Qarakilsə, Calaloğlu, Çəmbərək, Düzkənd, Ellər, Ərtik, Əştərək, Gorus, Hamamlı, Karvansaray, Keşişkənd, Kəvər, Qafan, Qarakilsə, Qaranlıq, Qəmərli, Qızılqoç, Meğri, Paşalı, Sərdarabad, Şəmsəddin, Talin, Üçkilsə, Vedi, Vorontsovka, Yelenovka, Zəngibasar.

Həmin vaxtdan keçən yüz il müddətində onomastik mənzərənin necə dəyişməsini 1930-cu il sentyabrın 9-da Ermənistan SSR-nin tərkibində yaradılan Abaran, daha sonralar Aparan və Araqats rayonu adlandırılan inzibati vahidin nümunəsində izləmək maraqlıdır. İrəvan şəhərinin 59 kilometrliyində təşkil olunan rayon ərazisinin bir hissəsi 1970-ci illərdə Hamamlı (dəyişdirilmiş Spitak adlandırılıb) rayonunun digər hissəsi ilə birləşdirilərək ayrıca Araqats rayonu da yaradılır. Rayonun inzibati ərazisinə daxi olan onomastik vahidlərə ötəri nəzər salmaq bəs edər ki, onların türk mənşəli olduğunu görəsən.

Ermənistan dövlətinin yarandığı vaxtdan 15 il sonra işə düşən, dayanmaq bilməyən etnosid siyasətinin hüdudsuzluğunu rəsmi dövlət sənədlərini vərəqləyəndə anlamaq olur: Damcılı kəndi 03.01.1935-ci ildə Mravyan, Babakişi kəndi 04.01.1938-ci ildə Bujakan, Böyük Camışlı kəndi 01.06.1940-cı ildə Alaqyez, 15.07. 1946-cı ildə Səmadərviş kəndi Çknax, Bazarcıq kəndi Arayi, Hacı Xəlil kəndi Tsaxkahovit, Gülablı kəndi Dzoraqlux, Güllücə kəndi Vardenis, Məlikkənd Melikqyuğ, Danagirməz kəndi Ovit, Saçlı kəndi Noraşen, Qəzənfər kəndi Araqats adlandırılır.

Ümumilikdə, 1978-ci il yanvar ayının 25-nə qədər rayonda 30 yaşayış məntəqəsinin adı birmənalı olaraq erməni mənşəli adlarla əvəz olunaraq rayon ərazisindəki türk izlərinin silinməsi ilə başa çatmış sayıldı.

Coğrafi adlar isə kulturoloji kodun semantikası ilə təbii dil vahidləri kimi çıxış edir və mədəni-tarixi xarakterli assosiativ əlaqələri qəbul edənin şüurunda aktuallaşan mədəniyyətin verballaşdırılmış əlamətləri funksiyasını yerinə yetirir. Bunları dəyişmək barədə qərar verən Ermənistan SSR Ali Soveti bu həqiqəti unutmuşdu.

Uğurlu mədəniyyətlərarası və dillərarası ünsiyyət dil nümunələrinin harmonik şəkildə mənimsənilməsini və xarici dil mədəniyyətinə dair zəruri fon biliklərini, bu dildə danışan xalqın milli-mədəni xüsusiyyətlərini bilməyi nəzərdə tutur. Toponimlər hər hansı bir etnik qrupun həyatının mədəni və fəlsəfi qavrayışının mühüm hissəsidir, çünki onlar ictimai-tarixi təcrübəni – ümumbəşəri və milli təcrübəni birləşdirir, məlumatları saxlayır və ötürür.

Əslində, toponimiya obrazlı desək, tarixin coğrafiyaya vurduğu silinməz möhürdür. Ümumiyyətlə, toponimlər linqvistik şəxsiyyətin inkişafı prosesində onun idrak bazasının formalaşmasında mühüm rol oynayır. Bu baxımdan Qərbi Azərbaycanın tarixi yer adları bu qədim türk yurdunun xalqımıza məxsusluğunun mötəbər təsdiqidir.

***Mahirə HÜSEYNOVA,***
***ADPU-nun prorektoru, professor, Qərbi Azərbaycan İcması idarə heyətinin üzvü***

# Moskva və İrəvanın birgə deportasiya cinayəti

**Hər bir sivil xalq varlığını qorumaq və dünyada milli kimliyini təsdiq etmək üçün daim mübarizə aparmağa və Vətən adlandırdığı ərazidə mövcudluğunu davam etdirməyə məcburdur. Bu, ondan irəli gəlir ki, hər bir xalqın ürək qızdırdığı dostları olduğu kimi, qəsdinə durduğu düşmənləri də var.**

XX əsr boyu belə təcavüzün qurbanları olaraq, böyük itkilərlə və bəlalarla üzləşmiş Qərbi Azərbaycan əhalisi erməni millətçilərinin davamlı soyqırımı və deportasiya cinayətlərinə məruz qalaraq tarixi vətənini itirmişdir. Artıq 2 ildir ki, suverenliyini və ərazi bütövlüyünü tam bərpa etmiş müstəqil Azərbaycan dövləti regional və qlobal proseslərdə fəal iştirak etməklə yanaşı, həm də tarixi haqsızlıqları aradan qaldırmaq istiqamətində məqsədyönlü və qətiyyətli işlər görür.

Növbəti ümummilli hədəf ötən əsrdə ata-baba yurdlarından qovulmuş Qərbi azərbaycanlıların tarixi yurdlarına kütləvi qayıdışını təmin etməkdir. Bu məqsədlə başladılmış ümumxalq hərəkatı Qərbi Azərbaycan icmasını tarixi Vətənə dönüşə hazırlamaq üçün ölkədə geniş təşkilatlanma və beynəlxalq aləmdə hüquqi-məlumatlandırma işi aparır. Ata-baba yurdlarına zorla qovulmuş soydaşlarımızın öz yurduna qayıtması və söndürülmüş ocaqlarını yenidən yandırması tarixi zərurətdir.

Bir əsr boyunca azərbaycanlıların böyük Vətənimizin qərb bölgələrindən qovulmasını sübuta yetirən faktlar, sənədlər, ricdən, xüsusilə də Livandan, Suriyadan, İraqdan və Yaxın Şərqin digər ölkələrindən köçürülmüş ermənilərin məskunlaşdırılması prosesinə start verilmişdir. Təkcə Avropa ölkələri də daxil olmaqla, 1946–1949-cu illərdə Ermənistana 96 min erməni köçürülmüş, onların xeyli hissəsi İrəvanda məskunlaşmışdı.

Ermənilərin əsas məqsədi 150 il ərzində min bir fitnə-fəsadla ələ keçirdikləri Azərbaycan–türk yurdları olmuş Göyçə, Zəngəzur, Şoragöl, Dağ Borçalısı, Körpübazar, Dərəçiçək–Qırxbulaq, Zəngibasar, Dərələyəz, Dilican, Sərdarabad və İrəvan mahallarında etnik təmizləmə aparmaq idi. Beləliklə, Qərbi Azərbaycanda əsrlərlə yaşamış azərbaycanlılar böyük faciə ilə üz-üzə qalmışlar. Ermənistan rəhbərliyi azərbaycanlıları "5-ci kolon" kimi qələmə verərək sovet rəhbərliyini inandırmışdılar ki, SSRİ ilə Türkiyə arasında hərbi qarşıdurma yaranacağı halda sərhəddə yaşayan azərbaycanlılar kommunistlərə qarşı vuruşacaqlar.

Beləliklə, SSRİ Nazirlər Sovetinin 1947-ci il 23 dekabrında qəbul etdiyi 4083 nömrəli qərarla Qərbi Azərbaycandan soy-



şahidlərin ifadələri necə bir qəddar düşmənlə üz-üzə olduğumzu bütün detalları ilə açıb göstərir. "Yersiz gəldi, yerli qaç" siyasətini həyata keçirən erməni millətçi başbilənləri imperialist havadarlarının dəstəyi ilə hər tarixi fürsətdə Azərbaycana xəyanət edərək yeni-yeni ərazilərimizi ələ keçirmiş, onun sakinlərinə divan tutmuşlar.

Ermənistan Xalq Komissarları Soveti 1921-ci ilin 20 iyulunda Qərbi Azərbaycanda qurduqları oyuncaq dövlətin 8 qəza və 33 nahiyədən ibarət inzibati-ərazi bölgüsünü təsdiq etmişdir. Həmin bölgüdə Zəngəzur qəzası yox idi. Avqustun 31-də isə Azərbaycandan qoparılmış yeni 9-cu qəza – mərkəzi Gorus şəhəri olmaqla Zəngəzur qəzası yaradılmışdır. Sovet Rusiyasının zorakı təzyiqi ilə Azərbaycan Zəngəzurun qərb hissəsini (Gorus, Sisyan, Qafan və Meğrinin bir hissəsi) inzibati-ərazi bölgüsündən çıxararaq Ermənistana güzəştə getmişdir. Bununla tarixi Zəngəzur mahalı (rus işğalı dövründə qəza) iki hissəyə bölünmüş və onun qərb hissəsi Ermənistana birləşdirilmişdir.

Ermənilərin Qərbi azərbaycanlılara qarşı təcavüzünün növbəti aktı II Dünya müharibəsindən sonra başlanmışdır. Bu dəfə ermənilər bolşevizmin Türk dünyasına qarşı səlib yürüşünün davamı olaraq, Dağlıq Qarabağın Ermənistana birləşdirilməsinə cəhd göstərmişlər. Bu mümkün olmadıqda isə Qərbi azərbaycanlıların kütləvi deportasiyasını dövlət siyasəti səviyyəsində gerçəkləşdirmişlər. Sovet ali rəhbərliyində yarım əsr yuva salmış daşnakxislət Anastas Mikoyanın hiylə və təxribatı ilə SSRİ Xalq Komissarları Soveti 21 noyabr 1945-ci il tarixdə "Ermənilərin xaricdən Sovet Ermənistanına qayıtmaları ilə əlaqədar tədbirlər haqqında" qərar qəbul etmişdir.

Bundan bir həftə sonra Ümumittifaq Kommunist (bolşeviklər) Partiyası MK-nin ikinci katibi G.Malenkov Dağlıq Qarabağın Ermənistanın tərkibinə daxil edilməsi barədə Ermənistan rəhbəri Q.Arutinovun sovet diktatoru İ.Stalin qarşısında qaldırdığı vəsatəti Azərbaycanın rəhbəri M.Bağırova göndərmişdir. 1945-ci il dekabrın 10-da M.Bağırov həmin məktuba cavab olaraq bildirir ki, o, Arutinovun təklifi ilə o şərtlə razıdır ki, Şuşa istisna olmaqla, Ermənistanda əhalisinin əksəriyyəti azərbaycanlılar olan Əzizbəyov, Vedi və Qarabağlar rayonları da Azərbaycana birləşdirilsin. Bundan sonra həmin məsələ qapadılmış, əvəzində azərbaycanlıların Ermənistandan kütləvi deportasiyası ideyası ortaya atılmışdır.

Bununla da azərbaycanlı əhalinin deportasiyasına və onların yurdlarında xaricdən gətirilmiş erməni ... (see above) 

daşlarımızın deportasiyası rəsmiləşmişdirilmişdir. İ.Stalinin imzaladığı bədnam qərarda deyilirdi:

1. 1948–1950-ci illərdə könüllü əsaslarda 100 min kolxozçu və digər azərbaycanlı əhali Ermənistan SSR-in ərazisindən Azərbaycan SSR-in Kür–Araz düzənliyinə köçürülsün. 1948-ci ildə 10 min nəfər, 1949-cu ildə 40 min nəfər və 1950-ci ildə 50 min nəfər.

2. Ermənistan SSR Nazirlər Sovetinə azərbaycanlıların köçürülməsi ilə əlaqədar azad etdikləri tikililərdə və yaşayış evlərində xaricdən gətirilmiş ermənilərin yerləşdirilməsinə icazə verilsin.

SSRİ Nazirlər Soveti 10 mart və 13 may 1948-ci ildə daha rüsvayçı 2 qərar qəbul etmişdir. I qərarda ittifaqın, Azərbaycan və Ermənistanın müvafiq orqanlarının qarşısında təxirəsalınmaz vəzifələr qoyulmuşdu. II qərarda isə Ermənistanın kənd rayonları ilə yanaşı, İrəvan şəhərinin Stalin və Spandaryan rayonlarında yaşayan azərbaycanlı əhalinin də köçürülməsinə göstəriş verilmişdi.

Nəticədə, 1948-ci ildən başlayaraq, bir neçə il ərzində 100 min azərbaycanlının köçürülməsi və xaricdən 100 min erməninin onların yurdlarında məskunlaşdırılması mütəşəkkil həyata keçirilmişdir. Bu misilsiz cinayət aktı 1948-ci ilin mart ayının sonlarından 1953-cü il martın 5-də İ.Stalinin ölümünə qədər ən zorakı üsullarla davam etmişdir.

Azərbaycan Respublikası müstəqillik əldə etdikdən sonra ümummilli lideri Heydər Əliyevin 1997-ci il 18 dekabr tarixli fərmanı ilə 1948–1953-cü illərdə azərbaycanlıların Ermənistan ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyasının hərtərəfli tədqiq edilməsi, Azərbaycan xalqına qarşı dövlət səviyyəsində həyata keçirilmiş tarixi cinayətə hüquqi-siyasi qiymət verilməsi və onun beynəlxalq ictimaiyyətə çatdırılması məqsədilə dövlət komissiyası yaradılmış və 100 il ərzində xalqımıza qarşı törədilmiş cinayətlərə hüquqi-siyasi qiymət verilmişdir.

Bu gün Prezident İlham Əliyevin uğurla həyata keçirdiyi siyasətin prioritetlərindən biri də Qərbi azərbaycanlıların ata-baba yurdlarına qaytarılması məsələsidir. Biz Qərbi Azərbaycan icmasının çoxsaylı nümayəndələri inanırıq ki, on illərdən bəri yolumuzu gözləyən doğma yurdlarımıza mütləq qayıdacağıq.

***Almaz ƏLİYEVA,***
***Mingəçevir Dövlət Universiteti mühəndislik fakültəsinin dekanı, dosent***

Turan elləri

# Qaspıralının davamçısı, Göyalpın ustadı

## *Yusif Akçura çarizmin düşməni Lenindən türk xalqlarına milli haqq tələb etmişdi*

**XX əsrin əvvəllərində Yusif Akçura təkcə mənsub olduğu tatar xalqının deyil, bütün dünya türklərinin istiqlalı, tərəqqi və intibahı naminə əvəzsiz xidmətlər göstərən tarixi şəxsiyyətdir. Böyük Turan aşiqlərindən idi. Siyasi türkçülüyün yaradıcılarından və əsas ideoloqlarından sayılır. Onun mübarizələrlə dolu həyatı hər zaman türkün adını və şərəfini uca tutan hər kəsdə dərin rəğbət hissi doğurur.**



Bəli, həqiqətən, Yusuf bəy Akçura türk xalqlarının səadəti uğrunda gördüyü böyük işlərə görə türk dünyasının Həsən bəy Zərdabi, İsmayıl bəy Qaspıralı, Əli bəy Hüseynzadə, Əhməd bəy Ağaoğlu, Ziya Göyalp kimi böyük şəxsiyyətləri ilə bir cərgədə dayanmağa mənəvi haqqı olan kişilərdəndir. Onun adı və əməlləri haqlı olaraq bu gün də bütün Turan ellərində dərin sevgi və sayğı ilə anılır.

Yusif bəy 1876-cı il dekabrın 2-də Rusiyanın Simbirsk şəhərində anadan olub. Bu, həmin Simbirskidir ki, ondan düz 6 il əvvəl bolşeviklərin rəhbəri Vladimir İliç Lenin doğulmuşdu. Qəribədir ki, tale onları ilk dəfə Sürixdə (İsveçrə) 1916-cı ildə görüşdürdü. Rusiyada milli məsələnin həlli ilə bağlı 4 saata yaxın qızğın müzakirələr aparıblar. Söhbətin sonunda Lenindən soruşub ki, işdir, birdən, bolşeviklər hakimiyyətə gəlsələr, milli məsələyə hansı mövqedən yanaşacaqlar? Leninin cavabı bu olub ki, “o hüquqları ki, siz tələb edirsiniz, biz yerli özünüidarəetməyə keçsək, artıqlaması ilə alacaqsınız”.

Bolşeviklər, həqiqətən, həmin söhbətdən cəmi 1 il sonra çoxları üçün, eləcə də Y.Akçuranın gözlənilmədiyi bir şəraitdə Oktyabr qiyamı zamanı hakimiyyəti zor gücünə ələ keçiriblər. Amma nə V.İ.Lenin və nə də onun siyasi varisi İ.Stalin çar Rusiyasında yaşayan kiçik xalqlara vəd etdikləri azadlıqları vermədilər. Onlar hakimiyyətdə güclənəndən sonra milli haqları dilə gətirənləri NKVD həbsxanalarına ataraq məhv etdilər.

Yusif bəyin uşaqlıq illəri çox təzadlı hadisələrlə yadda qalıb. Onun cəmi 2 yaşı olanda çuxa istehsal edən fabrikin sahibi olan atası Həsən Akçurin vəfat edib. Anasının qəfil xəstələnməsi səbəbindən ailə 1883-cü ildə İstanbula köçməli olub. Yusif 1883–1892-ci illərdə İstanbulda əvvəlcə ibtidai, sonra isə orta məktəbi bitirib. Sonrakı 4 il ərzində isə təhsilini İstanbul Hərbiyyə Məktəbində davam etdirib. Məhz bu təhsil ocağında o dönəmdə Türkiyədə pərvəriş tapmaqda olan türkçülük hərəkatının fəalları ilə yaxınlaşmağa başlayıb.

Yusif bəy İstanbulda olarkən tez-tez əmisi qızı, “Tərcüman” qəzetinin redaktoru İsmayıl bəy Qaspıralının həyat yoldaşı Zöhrə xanım Akçurinin evinə qonaq gedərdi. İsmayıl bəy gənc Yusifin ağlına, hünər və qeyrətinə heyran qalır. Yusif bəy hələ gənc yaşlarından yaxın qohumu və hamisi İsmayıl bəy Qaspıralını həyatda özünün “böyük müəllimi” adlandırıb. İsmayıl bəyin şərəfli ömür yolu və parlaq ideyaları daim Yusif Akçuranı ruhlandırıb.

Xatırladaq ki, XX əsrin əvvəllərində çoxları Osmanlı imperiyasını xəstə qocaya bənzədirdilər. Təbii ki, vətənpərvər insanlar bundan pəjmürdə olur, düşmənlər isə sevinirdilər. Vəziyyət son dərəcə gərgin idi. “Gənc türklər” Osmanlının əvvəlki şan-şöhrətini, qüdrətini qaytarmaq istəyirdilər. Sultanın casusları isə gənc türkləri və onların planlarına rəğbət göstərənləri təqib edirdilər.

21 yaşlı gənc Yusif bəy 1897-ci ildə Osmanlı Sultanı Əbdülhəmidin əmri ilə Trablisə sürgün edilir. “İttihad və tərəqqi” Partiyasının Sultanla apardığı danışıqlardan sonra Yusif bəy həbsdən azad edilir. Lakin onun Türkiyəyə qayıtmasına izn verilmir, bu səbəbdən Parisə mühacirət etməli olur. O, 1899–1903-cü illərdə məşhur Sorbonna Universitetində təhsi alır. Parisdə yaşadığı dövrdə Qərb fəlsəfəsinə, Avropa insanının düşüncə tərzinə, mentalitetinə yaxından bələd olur. Bu arada uşaqlıq dostu Sədri Məqsudi Sorbonna Universitetində təhslini davam etdirmək üçün Parisə gəlir. Onlar sarsılmaz əqidə və məslək dostlarına çevrilirlər.

Yusif bəy Parisdə yaşadığı illər ərzində özünün böyük müəllimi İsmayıl bəy Qaspıralı ilə tez-tez məktublaşırdı. 1903-cü ilin baharında “Tərcüman” qəzetinin 20 yaşı tamam olacaqdı. Sorbonna Universitetinin tələbələri – Yusif və Sədri bəylər bu işdə İsmayıl bəyə yardımçı olmaq fikrinə düşürlər. Dostlar “Tərcüman”ın türkçülüyün inkişafındakı böyük rolundan bəhs edən 27 səhifəlik mətn hazırlayıb onu o dövrün 100 tanınmış ziyalısına göndəriblər.

“Tərcüman”ın yubileyi Baxçasarayda çoxsaylı qonaqların iştirakı ilə yüksək səviyyədə keçib. Türkiyə, Rusiya, eləcə də digər yaxın-uzaq ölkələrdən İsmayıl bəyin adına Bağçasaraya təşrif buyuran tanınmış şəxslər türk xalqlarının gələcək taleyi ilə bağlı öz arzu, təklif və düşüncələrini bölüşüblər. Səid bəy Məqsudi sonralar yazmışdı ki, bu yubiley mərasimi Rusiya türklərinin dirçəliş tarixinə son dərəcə əlamətdar bir hadisə kimi həkk olunmuşdur. İsmayıl bəy Qaspıralı, təbii ki, gənc türkçülərin bu cəfakeşliyindən xeyli təsirlənib.

Yusif bəy 1904-cü ildə Qahirədə çıxan “Türk” qəzetində “Üç tərzi-siyasət" adlı məşhur əsər dərc etdirib. Müəllifin fikrincə, dünyadakı bütün türk xalqlarını əsasən türk dili zəminində birləşdirmək mümkün ola bilər. Bu əsər türk milli özünüdərkinin manifesti hesab olunur. Hətta sonrakı, yəni 1908–1912-ci illər ərzində onun qurduğu “Türk dərnəyi”, “Türk bilgi dərnəyi”, “Türk ocağı”, “Türk yurdu” kimi cəmiyyətlər Yusuf bəyin irəli sürdüyü türkçülük ideallarına sədaqət prinsipi əsasında fəaliyyət göstərmişdir.

Tanınmış türkoloq Azər Turan 2021-ci ilin dekabrında “Ədəbiyyat və incəsənət” qəzetində nəşr edilən “Yusif Akçura barədə düşüncələr” məqaləsində yazmışdır: “1904-cü ildə Yusif Akçura ideal sistem və ideoloji təməl axtarışındaydı. Elə həmin ərəfədə bu üç siyasi tərzin, istiqamətin ideal şəklini Əli bəy Hüseynzadə müəyyənləşdirdi: türkləşmək, islamlaşmaq, çağdaşlaşmaq düsturunu irəli sürdü. Hüseynzadənin milli triadasını ilk alqışlayanlardan biri də Yusuf Akçuraydı. Yazırdı ki, “Əli bəyin üçlü düsturu türk millətinin yaxşı tapılmış xoşbəxt əsaslarındandır”.

Yusif bəy Parisdə təhsilini bitirdikdən sonra yenidən Rusiyaya qayıdıb. 1904-cü ildən 1908-ci ilədək olan dövrü onun həyat və fəaliyyətinin qaynar “Kazan dövrü” adlandırılır. 1905-ci ildən başlayaraq “Kazan xəbərləri” (“Kazan müxbire”) qəzetini nəşr etdirir. Bu mətbu nəşr tatar milli hərəkatının ideyaca möhkəmlənməsi və təşkilatlanmasında mühüm rol oynayır. Yusif bəy o dönəmdə Kazanda “Müsəlmalar İttifaqı”nı da yaratmağa müvəffəq olur. Qeyd etmək lazımdır ki, tatar burjuaziyası Yusif bəy Akçuranın milli azadlıq ideyalarına maddi dəstək verirdi.

Yusif bəyin əhali arasında şöhrəti və nüfuzu artırdı. Dövlət Dumasına millət vəkili seçiləcəyinə heç bir şübhə yox idi. İmperiya xəfiyyəsi bu prosesin qarşısını almaq məqsədilə 1906-cı ildə Yusif bəyi həbs edir. Bir müddət sonra o, dostlarının köməyi ilə həbsdən azad edilir.

Təqvimdə artıq 1908-ci il idi. Həmin il Osmanlıda məşruyyətin elanından sonra Yusif bəy vaxt itirmədən İstanbula qayıdır. Bu dövrdə bir çox vətənpərvər türkçü dərnəklərinin qurulmasında iştirak edir, “Türk yurdu” dərgisini yaradır. Yeri gəlmişkən, bu dərgi Azərbaycanda da kifayət qədər populyar olmuşdur.

Birinci Dünya savaşı (1914-1918-ci illər) başlayır. Böyük əqidə dostlarına çevrilən Əli bəy Hüseynzadə və Yusif bəy Akçura rus imperiyasındakı müsəlman-türk xalqlarının siyasi müqəddəratı üçün narahat idilər. Bu iki məsləkdaş 1915-ci ilin dekabrında bir yerdə “Turan heyəti”ni qururlar, bundan sonra Avropa ölkələrinə səfərə çıxırlar. Avstriya, Macarıstan, Almaniya, Bolqarıstan rəsmiləri ilə görüşüb Rusiya müstəmləkəçiliyindəki türklərin milli talelərini müzakirə edirlər.

“Turan heyəti” Amerika Birləşmiş Ştatlarının prezidenti Vudro Vilsona, hətta Rusiyanın müttəfiqlərinə “Rusiya müsəlmanlarının haqlarının tanınması” çağırışı ilə teleqramlar göndərirlər. Bu iki fədakar türk ziyalısı qısa, yığcam teleqraf müraciətlərində dünyaya türk xalqlarının milli istiqlalına qovuşmağa layiq olduqlarını bəyan edirdi. Təəssüf ki, o dövrün güc sahibləri bunun fərqində deyildilər. Onlar heç zaman türklərin Rusiya imperiyasında müstəqil qüvvəyə çevrilməsini arzulamırdılar.

Birinci Dünya savaşını uduzan Osmanlı İmperiyası artıq çökmüşdü. Düşmənlər birləşib yerbəyerdən onun torpaqlarını ələ keçirməyə, varidatını talan etməyə, türkün ruhunu yenməyə çalışırdılar. Hər dəqiqə, hər an çox qiymətli idi. Belə bir taleyüklü məqamda böyük Atatürk qürur, istiqlal savaşına başladı. Yusif bəy Akçura milli mücadilə dönəmində Atatürkün tərəfini saxladı, Anadolu cəbhələrinə getdi, Sakarya döyüşlərində şəxsən iştirak etdi. Türk Milli Firqəsinin qurucularından biri oldu. Cümhuriyyət Xalq Partiyasına daxil oldu. Əvvəl İstanbuldan, sonra Qarsdan Türkiyə Böyük Millət Məclisinə deputat seçildi.

Böyük Atatürk Yusif bəyə dərin sayğı bəsləyirdi. Yusif bəy əvvəlcə Türkiyə Xarici İşlər Nazirliyində Şərq məsələləri şöbəsinin müdiri vəzifəsində çalışdı, sonra Atatürkün mədəniyyət məsələləri üzrə müşaviri təyin olundu. Türk Tarix Qurumunun yaradıcısı və ömrünün sonunacan bu qurumun rəhbəri oldu. 1932-ci ildə keçirilən Birinci Türk Tarixi Qurultayına Atatürkün tövsiyəsi ilə sədrlik etdi.

Yusif bəy Akçura Türkiyədə yaşadığı illərdə, eyni zmanda, İstanbul Universitetinin yeni dövr siyasi tarix professoru olmuşdur. 1935-ci il martın 11-də ədəbiyyat fakültəsindəki dərslərini tamamlayıb 8 yaşlı oğlu Toğrulla evlərinə qayıdarkən yolda infarkt keçirərək dünyasını dəyişmişdir. O zaman 58 yaşı vardı...

***Məsaim ABDULLAYEV***
***XQ***

Gəlimli-gedimli dünya

**Dünən səhər saatlarında təkcə dünya katoliklərini deyil, bütün bəşəriyyəti üzən kədərli bir xəbər yayılıb. Müqəddəs Taxt-Tacın başçısı, görkəmli din xadimi Roma Papası Fransiskin 88 yaşında vəfat edib. Kardinal Farrell bu barədə açıqlamasında bildirib: “Əziz qardaşlar və bacılar, böyük kədər hissi ilə müqəddəs atamız Fransiskin vəfatını elan etməliyəm. Roma yepiskopu Fransisk bu gün saat 07:35-də canını tapşırıb. Onun bütün həyatı Tanrıya və onun kilsəsinə xidmətə həsr olunub”.**



# Roma Papası Fransisk vəfat edib

Qeyd edək ki, əsl adı Xorxe Mario Berqolyo olan pontifik 12 il əvvəl səhhətində yaranan problemlərə görə taxtdan imtina etməyə qərar verən XVI Benediktin yerinə Müqəddəs Pyotr taxtına seçilib.

Mərhum Papa Argentinada doğulub. O, papalıq tarixində ilk qeyri-avropalı idi. Son aylarda pnevmoniya xəstəliyindən əziyyət çəkirdi.

Papa Fransisk tarixin ən mütərəqqi və islahatçı pontifiklərindən biri kimi yadda qalacaq. O, dinlər arasında dialoqu, ətraf mühitin mühafizəsini, yoxsullara və imkansızlara yardımı fəal şəkildə müdafiə edirdi.



Ölümündən cəmi bir gün əvvəl, aprelin 20-də Papa Müqəddəs Pyotr meydanında Qəzza zolağı və Ukraynadakı vəziyyətdən narahat olduğunu dilə gətirərək tərəfləri sülhə çağırıb. Bu sözlər bir növ onun mənəvi vəsiyyəti olub.

Roma qəzetləri yazırlar ki, papalar, adətən, Vatikan qrotlarında – Müqəddəs Pyotr kilsəsinin altındakı kriptalarda dəfn edilir. Lakin Papa Fransisk vəsiyyət edib ki, onu Romanın Eskvilino rayonundakı Santa-Mariya-Maccore bazilikasında dəfn etsinlər. Yeddi papa – 1216-cı ildə III Honoridən 1669-cu ildə IX Klementə qədər – orada dəfn ediliblər.

Roma Papası Fransisk böyük nüfuz sahibi idi. Hesab olunur ki, onun simasında beynəlxalq birlik və dünya katolikləri həyat amalı bəşəriyyətin əmin-amanlığı naminə fədakarcasına xidmət olan parlaq din xadimini, yüksək mənəvi keyfiyyətlərə malik böyük şəxsiyyəti itirdilər.

Xatırladaq ki, zati-müqəddəsləri Fransisk həzrətlərinin Azərbaycan ilə Müqəddəs Taxt-Tac arasında dostluq və əməkdaşlıq münasibətlərinin inkişafında və möhkəmlənməsində misilsiz xidmətləri olub. Dünyanın əksər dövlət və hökumət başçıları, tanınmış siyasətçilər, mədəniyyət xadimləri Roma Papasının vəfatı münasibəti ilə çox sayda başsağlığı teleqramları göndəriblər. Azərbaycan Prezidenti İlham Əliyevin Fransisk həzrətlərinin vəfatı ilə bağlı məktubunda deyilir:

“Onunla görüşlərimi, səmimi ünsiyyətimizi həmişə ən xoş təəssüratla xatırlayacağam. Roma Papası Fransiskin əziz xatirəsi və zəngin mənəvi irsi qəlblərdə və hafizələrdə daim yaşayacaq”.

***MH ACIXANLI***
***XQ***

# Ümid Londonamı qaldı?

**Prezident Donald Tramp ümid edir ki, bu həftə Moskva və Kiyev “sövdələşmə əldə edəcəklər”. ABŞ, Avropa ölkələri və Ukrayna bugünlərdə Londonda bir araya gələrək atəşkəs barədə razılığa gələcəklər. Ancaq heç də hamı müharibənin tezliklə başa çatacağına ümid bəsləmir. Ən azından ona görə ki, Rusiyanın elan etdiyi 30 saatlıq Pasxa atəşkəsi gecə yarısı başa çatdı və tərəflər atəşkəsi uzatmadılar. Hər iki tərəf bir-birilərinə öldürücü zərbələr vurmağı davam etdirirlər.**

ABŞ prezidenti Trampın bəhs etdiyi London görüşü aprelin 17-də baş tutan Paris danışıqlarının davamı olacaq. Fransada Vaşinqtonun öz sülh planını müttəfiqlərə təqdim etdiyi bildirilir. Daha sonra təkliflərin Moskvaya göndərildiyi vurğulanır. Atəşin şərtləri rəsmi olaraq açıqlanmır. Bununla belə, ABŞ mediası yazır ki, Rusiyanın Kiyevin itirdiyi əraziləri tanıyacağı, Ukraynanın NATO-ya daxil olması ilə bağlı müzakirələrin dayandırılacağı güman edilir. Bundan əlavə, anti-Rusiya sanksiyalarının yumşaldılması müzakirə olunur.

ABŞ Dövlət katibi Marko Rubio aprelin 17-də Paris danışıqlarını konstruktiv adlandırır. Lakin bir gün sonra o, heç bir irəliləyiş əldə olunmasa, Birləşmiş Ştatların sülh prosesindən çıxa biləcəyini də vurğuladı. Bu hədə Avropada və Ukraynada ciddi müzakirələrə səbəb oldu. Kiyev və müttəfiqləri ehtiyat edirlər ki, Ağ ev sülh danışıqları istiqamətində fəaliyyətini dayandıra və daha sonra Ukraynaya silah tədarükündən imtina edə bilər. Belə bir perspektiv Kiyevi və Avropanı ciddi narahat edir. Buna görə də Londonda keçiriləcək növbəti görüşdə Ukraynanın maraqlarını ciddi zədələyəcək qərarların qəbul edilməyəcəyinə ümidlidirlər. Bəzi ekspertlər Londonda hansısa razılaşmanın əldə oluna biləcəyini istisna etmirlər. Belə ehtimal olunur ki, Londonda söhbət daha uzunmüddətli atəşkəsdən, sonra isə danışıqlara başlamaqdan gedəcək. Danışıqların uzun və çətin olacağı güman edilir.



Avropanın da sülh danışıqlarına qoşulması Ukraynanın ümidlərini artırır. Xatırladaq ki, amerikalılar öncə Aİ olmadan da sülh tənzimlənməsinə nail ola biləcəklərinə ümid edirdilər. Ancaq sonra Ağ evdə sanksiyaların çoxunun məhz Avropa istiqamətində tətbiq olunduğunu anladılar. İndi danışıqlarda Avropanın Ukraynanın təhlükəsizliyinə təminat verilməsinə çalışacağı güman edilir. Ən azından Aİ-nin Londonda ABŞ-ın atəşkəs planının yenidən müzakirə olunmasına cəhd edəcəyinə dair müəyyən mülahizələr var.

Amma Vaşinqtonun Londonda təqdim etmək niyyətində olduğu plana yenidən baxılacaqmı? Politoloqlar bu suala birmənalı cavab verə bilmirlər. Ona görə ki, atəşkəs təklifinin rəsmən hələ təqdim olunmadığını vurğulayırlar. “The Washington Post” yazır ki, getdikcə daha çox Avropa ölkəsi Kiyevə silah vermək əvəzinə Ukraynanın müdafiə sənayesinə sərmayə qoymağa hazır olduğunu bildirirlər. “The Wall Street Journal” qəzeti də vurğulayır ki, prezident Trampın xüsusi nümayəndəsi Stiv Uitkoff bu həftə Rusiyaya gələ bilər. Bu, ABŞ, Ukrayna və Avropa nümayəndələrinin Londonda keçiriləcək görüşündən sonra baş verəcək. Qəzet onu da bildirir ki, Ağ ev Zaporojye Atom Elektrik Stansiyasının ətrafındakı ərazilərə neytral statusun verilməsini təklif edir və bu da münaqişənin həllinə kömək edəcək.

Bütün bu gözləntilərin fonunda Ukrayna–Rusiya müharibəsi davam edir. Pasxa bayramı ilə bağlı elan edilən atəşkəsdən bir gün sonra cəbhədə döyüşlərin yenidən bərpa olunduğu bildirilir.

***SE LAY***
***XQ***

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 79 (30773) 22 aprel 2025-ci il, çərşənbə axşamı

İdman

## "Prezident Kuboku"nun iştirakçıları məlum olub




**Gənclər və İdman Nazirliyi ilə Azərbaycan Kanoe və Avarçəkmə Federasiyasının birgə təşkilatçılığı əsasında ümummilli lider Heydər Əliyevin 102-ci ildönümünə həsr olunan "Prezident Kuboku-2025" beynəlxalq reqatasında iştirak edəcək ölkələr müəyyənləşib.**

Yarışda Avropa, Asiya və Afrikadan 200-dən çox idmançı, 20-dən artıq ölkə – Azərbaycan, Estoniya, Gürcüstan, Almaniya, Yunanıstan, Macarıstan, Hindistan, Qazaxıstan, Qırğızıstan, Latviya, Litva, Moldova, Polşa, Serbiya, Cənubi Afrika Respublikası, İspaniya, Tacikistan, Türkiyə, Ukrayna və Özbəkistan mübarizə aparacaq.

Xatırladaq ki, "Prezident Kuboku" reqatası ardıcıl üçüncü ildir Avropa Kanoe Assosiasiyasının (ECA) rəsmi təqvim planına daxil edilib. Yarışlar aprelin 28-dən mayın 2-dək davam edəcək.

## Lüksemburqda xüsusi mükafat

**Azərbaycan akrobatı Ağasif Rəhimov Lüksemburqda keçirilmiş Avropa çempionatında xüsusi mükafata layiq görülüb.**



Azərbaycan Gimnastika Federasiyasından bildirilib ki, Raziyə Seyidli ilə qarışıq cütlük proqramında fəxri kürsünün ən yüksək pilləsinə qalxmış idmançıya "Shooting star" mükafatı təqdim olunub.

O, templə hərəkətlərin icrasında fərqlənib.

Qeyd edək ki, milli komanda yarışları 1-i qızıl, 4-ü gümüş, 3-ü bürünc olmaqla, 8 medalla başa vurub. Bunula Azərbaycanın akrobatika gimnastikası tarixində ilk dəfə olaraq qadın və kişi qrupu Avropa çempionatında fəxri kürsüyə qalxıb.

## Triatlonçularımız Türkiyədə



**Triatlon üzrə Azərbaycan millisinin üzvləri Serik şəhərində keçirilən Türkiyə Kubokunda iştirak ediblər.**

Yarışda 2011-ci il təvəllüdlü idmançılar arasında təmsilçimiz Raul Mahmudov qızıl medal qazanıb. 2012-ci il təvəllüdlülər arasında Şamil Dövlətov 7-ci olub. 2008–2010-cu il təvəllüdlü idmançılardan Əli Rzazadə finiş xəttini 14-cü, Tamerlan Musayev 22-ci, Teymur Cəfərov 26-cı keçib. Bu yaş kateqoriyasında 56 triatlonçu mübarizə aparıb.

*LQ URBANOVA*
*XQ*

# Xalid Məmmədov Tbilisidən "Avropa qızıl"ı gətirib

## *Azərbaycanda kuraş idman növünə maraq artır*



**Türk xalqlarının ənənəvi idman növlərindən biri olan kureşə son illər ölkəmizdə də maraq xeyli artıb. Yeniyetmə və gənclərimiz beynəlxalq yarışlarda yüksək ustalıq nümayiş etdirərək Azərbaycan bayrağını yüksəklərdə dalğalandırır, himnini səsləndirirlər. Bugünlərdə Gürcüstanın Batumi şəhərində keçirilən Avropa çempionatında çıxış edən komandamız parlaq nailiyyətə imza ataraq 3 qızıl, 3 gümüş və 3 bürünc medal qazanıb. Kişilər arasında qızıl medalları Xalid Məmmədov (60 kq) və Emin Həsənov (81 kq) qazanıblar.**

18 yaşlı Xalid Məmmədovun adı artıq cüdosevərlərə yaxşı tanışdır. O, cüdo üzrə yığma komandanın heyətində yeniyetmələr arasında bir sıra uğurlar qazanıb. Xalid Avropa kubokunun ikiqat bürünc mükafatçısıdır. Gənc idmançı cüdo ilə yanaşı, kuraşa da böyük həvəs göstərir.

**Şəxsi məşqçisi Elməddin Əhmədov Xalidin şəxsi keyfiyyətləri sırasında onun əzmkarlığını və vətənpərvərliyini xüsusi qeyd etdi:**

– Xalid 2013-cü ildən – 7 yaşından mənim rəhbərliyim altında "Zirvə" İdman Klubunda cüdo ilə məşğul olmağa başlayıb. Çox güclü və döyüşkən idmançıdır. 2022-ci ildə yeniyetmələr arasında 3-cü, 2023-cü ildə 2-ci yeri tutub. Yeniyetmələr arasında İspaniya və Fransada keçirilən Avropa kuboku yarışlarında da fəxri kürsüyə yüksəlib.

Xalid beynəlxalq qarşılaşmalarda əsl döyüşçü xarakteri nümayiş etdirir. Qalib gələndə arxayınlaşmır, istəyinə çatmayanda isə ruhdan düşmür. Beynəlxalq arenada Azərbaycanı layiqincə təmsil edir, mükafat qazandıqda bu gəncin sevincinin həddi-hüdudu olmur. Digər yaxşı xüsusiyyəti dözümlü olmasıdır. Məşqlərdə yorğunluğunu heç zaman bürüzə vermir. Sonacan mübarizə aparmağa cəhd edir. Qarşılaşmalarda ciddi zədə aldığı zaman belə döyüşünü davam etdirir.

**Anası Səbinə Məmmədova Xalidin hələ uşaq yaşlarında döyüş növlərinə həvəs göstərdiyini bildirdi:**

– İdman sanki onun həyatıdır. Yarışlarda ciddi zədə alsa da, idmandan getməyi düşünməyib. Bir ana kimi ürəyim dözmədiyi üçün onun idmandan aralanmasını istəyirdim. 2022-ci ildə Avropa kuboku ərəfəsində çiynindən ağır zədə almışdı. Onu da yarışa aparsınlar deyə, məşqlərdə böyük əzmkarlıq nümayiş etdirib, döyüşə hazır olduğunu göstərib.

Avropa kubokunda zədəli olmasına baxmayaraq, bürünc medal qazandı. Böyük əziyyətlə qazanılmış bürünc mükafat bizim üçün elə qızıla bərabər idi. Döyüş növlərindən sambo üzrə yarışda da özünü sınayıb. Ölkə yarışında burnu qırılmışdı, lakin mübarizəni mükafatla başa vurdu.

8 ay bundan əvvəl zədə səbəbindən əməliyyat olundu. Amma 3 ay keçməmiş burnuna xüsusi maska taxıb məşqləri davam etdirdi.

Son yarışda – kuraş üzrə qitə çempionatında qızıl medal qazanması onun üçün çox sevindirici və ruhlandırıcı oldu. İnanıram ki, növbəti yarışlarda da uğur əldə edəcək.

**Kuraş yığmasının məşqçisi Elçin İbrahimov** Xalid Məmmədovun yarışda böyük ustalıq göstərdiyini dedi. O qeyd etdi ki, Xalid də, komandamızın digər üzvləri də yüksək peşəkarlıq nümayiş etdirdilər.

**Azərbaycan Universal Döyüş Federasiyasının prezidenti Azər Həsənov bildirdi ki, komandamız Beynəlxalq Kuraş Assosiasiyasının dəvəti ilə Avropa çempionatında iştirak etdi və böyük nailiyyətlə Vətənə qayıtdı:**

– Qitə çempionatında 9 medal qazanan millimiz ümumi hesabda 2-ci yeri tutdu. Bu növ üzrə istedadlı idmançılarımız var. Kişilər arasında Xalid Məmmədovla yanaşı, Emin Həsənov da qızıl medala sahib oldu, Əhməd Ağayev (73), Ağani Məmmədov (90 kq) 2-ci, Hacalı Qasımov (73 kq) 3-cü yeri tutdular. Qadınların yarışında isə Aysel Şəfiyeva (57 kq) bürünc medal aldı. Gənclər arasında Elgün Şirəliyev (77 kq) qızıl medala layiq görüldü. Bu kateqoriyada ağır çəkidə Asim Səlimov bürünc mükafat əldə etdi. Yeniyetmələr arasında isə Yusif Hüseynov gümüş mükafata yiyələndi.

Yarışın keçirildiyi günlərdə təşkil edilən Beynəlxalq Kuraş Assosiasiyasının konqresində ölkəmizi təmsil etdim. Konqresdə müzakirə edilən məsələlərdən biri də ölkələrdə kuraş federasiyasının yaradılması və bu idman növünün inkişafı oldu. Bu istiqamətdə görülən işlərdən biri də klubların yaradılması və ölkə çempionatlarının təşkilidir. Kuraş artıq İslam Həmrəyliyi Oyunlarının proqramına salınıb.

Azər Həsənovun sözlərinə onu da əlavə edək ki, ölkəmizdə döyüş növləri üzrə Xalid kimi istedadlı gənclər çoxdur. Əminik ki, kuraşın inkişafı istiqamətində də həyata keçiriləcək mühüm tədbirlər adlı-sanlı idmançıların yetişməsi üçün münbit şərait yaradacaq.

*Leylа URBANOVA*
*XQ*

Sağlamlıq

## 6 növ duz – hansı qorxusuz?

**Xörəkdə işlədilən hər duz orqanizm üçün faydalı deyil. Diyetoloq Andrey Bobrovski bununla bağlı, xüsusən, böyrək və ürək xəstələrinə xəbərdarlıq edib.**

Natrium və xlorun birləşməsinə görə duzun "ağ ölüm" adlandırıldığını, lakin müasir dünyada bu mineralın əvəzedicisinin olduğunu bildirib.

Mütəxəssisin sözlərinə görə, yeganə pəhriz duzu natrium xloridin qismən kalsium xloridlə əvəz olunduğu duzdur. Xüsusilə hipertoniya və böyrək xəstəliyi olan insanlar üçün həmin duz faydalıdır. İstifadə etdiyimiz duza əvəz olaraq Bobrovski 6 növ fərqli məhsuldan söz açıb:

– Minalı qaya duzu;
– yeraltı duz təbəqələrinin həll edilməsi və buxarlanması nəticəsində əldə edilən süfrə duzu;
– dəniz suyunun buxarlanmasından əldə edilən duz;
– tiroid vəz üçün vacib olan kalium hidroksid əlavə edən yodlaşdırılmış duz;
– kalsium, kalium, maqnezium və digər vacib elementləri ehtiva edən Himalay çəhrayı duzu;
– Hindistanda çıxarılan qara duz.

Bunlar gündəlik duz ehtiyacımızı ödəmək üçün salatlarda və xörəklərdə istifadə üçün yararlı hesab olunur.

*Z.HÜSEYNLİ*
*XQ*

HAVA

## Abşeronda yağmursuz, bölgələrdə yağış və duman...

**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən,aprelin 22-də Bakıda və Abşeron yarımadasında hava dəyişkən buludlu olacaq. Əsasən yağmursuz keçəcək. Lakin səhər bəzi şəhərətrafı ərazilərdə qısamüddətli az çiskinli olacağı ehtimalı var. Cənub-şərq küləyi əsəcək, axşam şimal-qərb küləyi ilə əvəz olunacaq. Gecə 10-13°, gündüz 20-24° isti olacaAtmosfer təzyiqi 761 mm civə sütunu, nisbi rütubət gecə 65-70, gündüz 50-60 faiz olacaq.**

Azərbaycanın rayonlarında əsasən yağmursuz keçəcək. Lakin gecə və axşam bəzi yerlərdə arabir yağıntılı olacağı, şimşək çaxacağı gözlənilir. Ayrı-ayrı yerlərdə qısa müddətə intensivləşəcəyi, dolu düşəcəyi ehtimalı var. Gecə və səhər bəzi yerlərdə arabir duman. olacaq Mülayim şərq küləyi əsəcək. Havanın temperaturu gecə 9-12°, gündüz 22-27°, dağlarda gecə 0-5°, gündüz 12-17° isti olacaq.

*QQ ASIMOV*
*XQ*

Yeni tamaşalar

## "Düyməcik" Bakı səhnəsində



**Uşaq vaxtı sevə-sevə baxdığımız "Düyməcik" nağılını Azərbaycan Dövlət Milli Gənc Tamaşaçılar Teatrı aktyorlarının ifasında izləmək imkanı yaranıb. Bu tamaşa insanı real həyatdan qoparıb nağıllar dünyasına aparır.**

Səhnə tərtibatı, dekorasiyaları, bəzək əşyaları, səhnə və aktyorların rəngarəng geyimləri tamaşaya xüsusi gözəllik qatır. Uşaqların sevinci isə nəyə desən, dəyər. İzləyicilərin uşaq dünyasına səyahət etmək, onu daha da gözəlləşdirmək bu tamaşanı ərsəyə gətirənlərin əsas amalıdır.




Danimarkalı yazıçı Hans Xristian Andersenin 220 illiyinə həsr olunmuş tamaşanın quruluşçu rejissoru Ayla Osmanova, quruluşçu rəssamları Şahin Hüseynli, Yekaterina Xaritonova, musiqi tərtibatçısı Aygül Quliyevadır. Plastika həlli Ceyhun Dadaşova aiddir.

Rolları aktyorlar Aydan Həsənzadə, Fəridə Qurbanova, Ramil Məmmədov, Xəyalə Qasımova, İlhan Sadıqov, Könül Əbilova, Elgün Yəhyayev, Mətləb Abuşov, İradə Rəşidova, Anar Seyfullayev, İlahə Əmirxanova, Aybəniz Heydərova, Nuranə Vaqifqızı, Gülbəniz Lətifova ifa edirlər.

Mehribanlıq, dostluq və müdriklik kimi saf hisslərdən bəhs edən nağıl insanlara həyatda baş verən çətinliklər qarşısında heç vaxt ümidsizliyə qapılmamağı, xoşbəxtliyə çatmaq üçün isə təmiz qəlbə, mərhəmətli düşüncəyə sahib olmağı aşılayır.

*Fidan SALMANOVA*
*XQ*

✓ *"Commerce House" MMC-nin dairəvi möhürü itdiyi üçün etibarsız sayılır. VÖEN 1308346371.*

## ALLAH RƏHMƏT ELƏSİN

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının əməkdaşları Prezidentin İşlər İdarəsinin işçisi

**İBRAHİM MƏMMƏDOVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75 Mühasibatlıq: 498-85-29
Məsul katib: 493-61-02 E-mail: xalqqazeti@gmail.com
Texniki şöbə: 493-59-64 info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3433
SİFARİŞ 749
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Mirbağır YAQUBZADƏ
Çapa imzalanmışdır 00:00